| | |
|---|---|
| LDU 1992 LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ | AZE GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ LƏNKƏRAN-ASTARA |



# LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ VƏ LƏNKƏRAN-ASTARA REGİONAL GƏNCLƏR VƏ İDMAN İDARƏSİNİN BİRGƏ TƏŞKİLATÇILIĞI İLƏ “ “YAŞIL” İQTİSADİYYAT VƏ DAVAMLI İNKİŞAF” MÖVZUSUNDA ELMİ-PRAKTİKİ KONFRANSIN

# MATERİALLARI

**Lənkəran, 26 aprel 2024-cü il**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ**

# LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ VƏ LƏNKƏRAN-ASTARA REGİONAL GƏNCLƏR VƏ İDMAN İDARƏSİNİN BİRGƏ TƏŞKİLATÇILIĞI İLƏ " "YAŞIL" İQTİSADİYYAT VƏ DAVAMLI İNKİŞAF" MÖVZUSUNDA ELMİ-PRAKTİKİ KONFRANSIN

# M A T E R İ A L L A R I

**Lənkəran, 26 aprel 2024-cü il**

## TƏŞKİLAT KOMİTƏSİ

| | |
|---|---|
| **Natiq İbrahimov** | Lənkəran Dövlət Universitetinin rektoru, professor, sədr; |
| **Mikayıl Məhərrəmov** | Lənkəran Dövlət Universitetinin rektor müşaviri, professor, sədr müavini; |
| **Teymur Babazadə** | Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin rəisi, üzv; |
| **Zaur Məmmədov** | Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor vəzifəsini icra edən, dosent, üzv; |
| **Elvin Əliyev** | Elm və innovasiya məsələləri üzrə prorektor, dosent, üzv; |
| **Ramiz Şəmmədov** | Sosial məsələlər üzrə prorektor vəzifəsini icra edən, dosent, üzv; |
| **Azər Əliyev** | Təsərrüfat işləri və iqtisadi məsələlər üzrə prorektor, üzv; |
| **Allahşükür Quliyev** | Baş Elmi katib (Aparat rəhbəri), dosent, üzv; |
| **Ənvər Şahqubadbəyli** | Elm, İnformasiya-kommunikasiya və kitabxana mərkəzinin direktoru, baş müəllim, üzv; |
| **Gülbəniz Əliyeva** | İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, dosent, üzv; |
| **Əlixan Bədəlov** | Maliyyə idarəetməsi və audit kafedrasının müdiri, dosent, üzv; |
| **Aytəkin Əfəndiyeva** | İqtisadiyyat və innovativ idarəetmə kafedrasının müdiri, dosent, üzv; |
| **Şəfa Bağırova** | "Sosial məsələlər və tələbələrlə iş üzrə" dekan müavini, baş müəllim, məsul katib. |

## MÜNDƏRİCAT

## AZƏRBAYCANDA YAŞIL İQTİSADİYYATIN İNKİŞAF İMKANLARI


1. **Aytəkin Əfəndiyeva, Ayşə Fərəcli** - Yaşıl iqtisadiyyatda turizm məhsullarının marketinqi.......... **6**
2. **Aytəkin Əfəndiyeva, İlkanə Hacızadə** - Yaşıl iqtisadiyyatda ekoturizmin inkişaf istiqamətləri.......... **7**
3. **Aytəkin Əfəndiyeva** - Yaşıl iqtisadiyyata sinergetik yanaşma.......... **9**
4. **Barat Mirzəzadə** - Aqrar sahədə yaşıl inkişaf: əsas innovativ qlobal trendlər.......... **10**
5. **Əlixan Bədəlov, Kənan İsazadə** - Azərbaycanın dayanıqlı iqtisadi inkişafında maliyyə siyasətinin rolu.......... **12**
6. **Əlixan Bədəlov, Murad Təhməzov** - Müəssisələrin səmərəli fəaliyyətində daxili auditin rolu və ona olan yeni tələblər.......... **14**
7. **Əlixan Bədəlov, Rövşən Mustafayev** - Azərbaycanda kiçik və orta biznesin inkişafında mühasibat uçotu problemləri.......... **16**
8. **Fərhad Mirzəyev, Fatma Əliyeva** - "Yaşıl" iqtisadiyyata keçidin ətraf mühitin mühafizənin qorunmasında rolu haqqında .......... **18**
9. **Fərid Xankişiyev, Aydan Əsgərova** - Yaşıl iqtisadiyyatın ölkə iqtisadiyyatının inkişafına təsiri.......... **19**
10. **Fərid Xankişiyev, Mirəhməd Nəsirov** - "Yaşıl iqtisadiyyat"ın turizmin inkişafında rolu.......... **20**
11. **Fərid Xankişiyev, Tərlan Həsənzadə** - "Yaşıl" iqtisadiyyat və davamlı inkişafda dövlətin rolu.......... **22**
12. **Firdovsi Şahbazov** - Azərbaycanda yaşıl iqtisadiyyata keçidin normativ hüquqi bazası.......... **23**
13. **Fizuli Zamanov, Hüseyn Hüseynzadə** - Azad edilən ərazilərdə "Yaşıl iqtisadiyyat"ın formalaşmasına turizmin təsiri.......... **25**
14. **Fizuli Zamanov, Leyla Məmmədli** - Yaşıl iqtisadiyyatın Azərbaycanın enerji sənayesinin inkişafında rolu.......... **26**
15. **Fizuli Zamanov, Səbuhi Mirzəyev** - "Yaşıl" iqtisadiyyatda turizmin inkişafı ekoloji təhlükəsizliyin təminatı kimi.......... **28**
16. **Gülbəniz Əliyeva, Lalə Şahbazova, Nübar Əhədova** - Azərbaycanda bankların kredit portfelinin təsnifatı, diversfikasiyası və strukturu.......... **30**
17. **Gülbəniz Əliyeva, Vasif Zamanov** - Yaşıl istiqrazlar ekosistemin davamlı maliyyələşməsinin mənbəyi kimi.......... **32**
18. **Gülbəniz Əliyeva, Zəka Mehrəliyev** - Azərbaycanda "yaşıl investisiya", onun rolu və əhəmiyyəti.......... **34**
19. **Könül Ağayeva, Həbib Həbibi** - "Yaşıl iqtisadiyyat" və "dayanıqlı enerji" konsepsiyaları istiqamətində Azərbaycanın bərpa olunan enerji resurslarının inkişaf xüsusiyyətləri .......... **35**
20. **Könül Ağayeva, Tural Vəliyev** - Müasir dövrdə kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi problemləri.......... **37**
21. **Leyla Yusubzadə** - Yaşıl marketinqlə bağlı reklamların brend imicinə təsiri.......... **39**
22. **Murad Məmmədov** - Yaşıl logistika və yaşıl təchizat zəncirinin idarə edilməsinin iqtisadi faydası və tətbiqi istiqamətləri.......... **40**
23. **Natiq Qarayev, Fuad Bayramov** - Cənubi Qafqaz regionunun yaşıl iqtisadiyyatda əhəmiyyətinin artırılması strategiyası.......... **42**
24. **Natiq Qarayev, Təhmasib Zamanlı** - Azərbaycanda dövlətin davamlı inkişaf strategiyaları.......... **44**
25. **Natiq Mirzəyev, Əli Səmədov** - Təsərrüfat subyektlərinin "Yaşıl iqtisadiyyat" istiqamətində maliyyə məsrəflərinin vəziyyəti.......... **46**

26. **Natiq Mirzəyev, İzzət Məmmədov -** Milli iqtisadiyyatın inkişafında "Yaşıl iqtisadiyyatın" təşkil olunmasına risk amillərinin təsiri........................................ 47
27. **Natiq Mirzəyev, Nurxan Mehtiyev -** İşğaldan azad olunmuş ərazilərdə "Yaşıl iqtisadiyyat"ın təşkil olunmasında investisiya qoyuluşları.................................... 49
28. **Nigar Namiq -** Yaşıl iqtisadiyyat şəraitində turizmin inkişaf perspektivləri.......... 50
29. **Nuran Hüseynli -** Azərbaycan yaşıl iqtisadiyyat konsepsiyasında turizmin perspektivləri................................................................................................ 52
30. **Ramiz Şəmmədov, Tural Cəfərzadə -** Qızılağac milli parkı florasında bitən bir sıra dərman bitkilərinin davamlı istifadə olunma imkanları.................................. 53
31. **Rövşən Ələkbərov, Xəzər İsmayılov -** Yaşıl iqtisadiyyatda davamlı inkişafın stimullaşdırılması........................................................................................ 54
32. **Rövşən Ələkbərov, Məmmədəli Məmmədov -** Yaşıl iqtisadiyyatda ekoloji risklərin idarə edilməsi problemləri.................................................................... 55
33. **Rövşən Ələkbərov -** Yaşıl iqtisadiyyatın inkişafında yaşıl texnologiyaların rolu... 57
34. **Samirə Bağırova, Leyla Atayeva, Lalə Nəsirli, Səriyyə Əhmədova, Cəmalə Ağayeva, Mirhüseyin Səfərov -** Abşeron yarımadası park və bağlarında *Pinus eldarica* Medw. növünə ətraf mühit dəyişkənliklərinin təsiri................................ 58
35. **Samirə Bağırova, Şəbnəm Əşrəfova, Fəridə Hüseynova, Sevinc Yusifova -** Abşeronda *psidium guajava* l. növünün introduksiyası və yaşıllaşdırmada istifadə perspektivliyi........................................................................................... 60
36. **Samirə Bağırova, Şənay Albalıyeva, Aydan Ağamalıyeva -** Yaşıl iqtisadiyyatda efir yağlı bitkilərin tətbiqi............................................................. 62
37. **Səbinə Əsədova -** Yaşıl iqtisadiyyatın inkişafı naminə aqrar sektorun rəqəmsallaşdırılması................................................................................. 63
38. **Səriyyə Tağızadə, Pərvanə Məhəmmədova -** Maliyyə idarəetməsinin əsas məqsədi, metod və funksiyaları.................................................................... 65
39. **Təbriz Yadigarov, Aygül Dəmirova -** Azərbaycanda yüngül sənaye müəssisələrinin davamlı inkişafına təsir edən amillərin ekonmetrik qiymətləndirilməsi.................................................................................. 67
40. **Tural Xəlilov, Fatimə Həsənova -** Turizmin inkişafı istiqamətində "Yaşıl iqtisadiyyat"ın rolu................................................................................ 69
41. **Ülvi Quliyev, Əli Əhmədli -** Yaşıl iqtisadiyyat və dayanıqlı inkişafda uçotun rolu................................................................................................ 71
42. **Ülvi Quliyev, Simran Həbibli -** Banklarda daxili auditin əsas vəzifələri………... 73
43. **Ülvi Quliyev, Yaşar Muradov -** "Yaşıl" və "ekoloji" auditin əhəmiyyəti............ 74
44. **Vaqif Mustafayev, Ceyran Səfərova -** Dayanıqlı inkişaf prosesində əmək bazarının statistik göstəricilərində keyfiyyət dəyişiklikləri.................................... 76
45. **Vildan Rizayeva, Təbibi Əhədzadə -** Rəqəmsal iqtisadiyyata keçid şəraitində Azərbaycanda rəqabətli insan kapitalı və müasir innovasiya məkanı…………….. 78

## "AZƏRBAYCANDA YAŞIL İQTİSADİYYATIN İNKİŞAF İMKANLARI" BÖLMƏSİ

# YAŞIL İQTİSADİYYATDA TURİZM MƏHSULLARININ MARKETİNQİ

**Aytəkin Əfəndiyeva**
**dosent**
**Ayşə Fərəcli**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**aytek@mail.ru**
**aysafaracli2002@gmail.com**

Son illər Azərbaycanda turizm infrastrukturunun yenilənməsi nəinki yerli, eləcə də xarici turistlərin də ölkəmizə marağını xeyli artırmışdır. Qəbul olunmuş dövlət proqramları ölkəmizdə turizmin inkişafını sürətləndirmiş, onun yüksək tələblər səviyyəsində qurulmasına imkanlar yaratmışdır. Həyata keçirilən tədbirlər çərçivəsində kənd turizminin yaradılması da diqqət mərkəzində saxlanılır. Artıq insanlar şəhərin sıxlığından, abu-havasından əziyyət çəkib ucqar yaşayış yerlərinə üz tuturlar. Azərbaycanda yaşıl iqtisadiyyatın təmin edilməsi baxımından turizmin inkişafı özünün aktuallığı ilə seçilir. Azərbaycanda yaşıl turizmin inkişafı üçün kifayət qədər potensial imkanlar mövcuddur. Bu baxımdan Azərbaycanın regionları xüsusilə fərqlənir.

Naxçıvan Muxtar Respublikanın ərazisi bu baxımdan böyük potensiala malikdir. Ucqar dağ yaşayış məntəqələrindən olan Şahbuz rayonunda dağlar qoynunda yerləşən "Batabat" istirahət zonası, Ağbulaq İstirahət Mərkəzi turistlərin mənəvi rahatlığını təmin etməklə bərabər ekoloji cəhətdən təmiz qida məhsulları ilə təmin olunmasına imkan verir. Burada qiymətlərin münasibliyi, təklif olunan xidmətlər qonaqları razı salır. Turistlər Naxçıvan şəhərində və rayon mərkəzlərində fəaliyyət göstərən mehmanxanaların xidmətindən istifadə edə bilərlər. Mehmanxanalar ekoloji cəhətdən təmiz, gözəl təbiət məlnzərələri ilə əhatə olunmuş, tarix mədəniyyət abidələri ilə zəngin ərazilərdə yerləşdirilmişdir. Bu gün muxtar respublikanın ən ucqar dağ kəndləri belə fasiləsiz elektrik enerjisi, təbii qaz və içməli su ilə təchiz edilmişdir. Telefon rabitəsi vasitəsilə dünyanın istənilən yeri ilə əlaqə yaratmaq mümkündür. Bütün bunlar ən tələbkar turistin ehtiyaclarını ödəməyə imkan verir.

Göygöl rayonu Azərbaycanın qərbində dağlıq və dağətəyi zonada yerləşir. Ən yüksək nöqtəsi dəniz səviyyəsindən 3724 metr hündürlükdədir. Bənzərsiz təbiəti olmaqla, zəngin florası və faunası var. Yay mövsümündə qonaqlı-qaralı olan Göygöl rayonunun yarıdan çox kəndi Göygöl Milli Parkına yaxın ərazidə yerləşir. Yeni Zod, Aşıqlı, Toğanalı, Topalhəsənli, Üçbulaq, Çaykənd, Mixaylovka, Şəhriyar və sair kəndlərdə yay istirahətini keçirənlər çox asanlıqla milli parkın ərazisində yerləşən Göygölə səyahət edə bilirlər. Sevindirici haldır ki, keçən il bu kəndlərə 81 min nəfərdən çox turistin gəlməsi qeydə alınmışdır. Onun da 5 min nəfəri əcnəbilər olmuşdur. Rayonda ən çox turist qəbul edən Aşıqlı kəndidir. Bura Hacıkənd və Göygölə gedən yolun üstündə olduğundan turistlər burada qalmağa daha çox üstünlük verirlər. Aşıqlı kənd nümayəndəliyinə daxil olan Köşkü və Üçbulaq kəndləri də turistləri özünə cəlb edir. Üçbulaq kəndində müalicəvi əhəmiyyəti olan "Nurud" suyu çıxır. Yaşıl meşələr qoynunda yerləşən Üçbulaq kəndində istirahət edənlərin sayı da ildən-ilə artır. Onlar maraqlı gəzintilərdə iştirak edir, tarixi abidələrlə yaxından tanış olurlar. Yerli və xarici turistlərin maraq göstərdikləri Üçbulaq kəndini Göygöllə cəmi bir dağ ayırır. Sıx meşələrin arası ilə asfalt yolla cəmi 20 dəqiqəyə göllər tacı Göygölə, eləcə də onun ətrafındakı digər göllərə getmək olar. Göygölə ən yaxın kənd isə Toğanalıdır. Odur ki, hər il rayona gələn

turistlər bu kəndə daha çox maraq göstərirlər. Dağlardan axıb gələn çay kəndi iki yerə bölür. Çayın gur səsi insanlara rahatlıq, ürəklərə isə sərinlik gətirir. Son illər burada infrastruktur tamamilə yenilənib. Rayon rəhbərliyinin təşəbbüsü ilə vaxtilə salınmış evlər, eləcə də XIX əsr Lüteran kilsəsi əsaslı şəkildə təmir edilmiş, rayonda yaşayan sonuncu alman Viktor Klaynın ev-muzeyi yaradılmışdır. Azərbaycanda alman irsinə göstərilən bu qayğıya görə, əcnəbi turistlər daim minnətdarlıq edirlər.

Ümumiyyətlə, Azərbaycanın bütün rayonlarında kənd turizmi üçün geniş potensial imkanlar var. Əvvəla, bu ərazilərdə turistlər üçün lazım olan bütün imkanlar - o cümlədən təmiz hava və təbii su ehtiyatı, təmiz ekoloji qida məhsulları, yaşıllıq, cəlbedici təbiət mənzərələri, infrastruktur, xüsusilə abad yollar var ki, bu da gələn qonaqlara rahatlıq gətirir.

## YAŞIL İQTİSADİYYATDA EKOTURİZMİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Aytəkin Əfəndiyeva**
**dosent**
**İlkana Hacızadə**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**aytek@mail.ru**
**ilkanahacizade@mail.ru**

Hər bir ölkədə yaşıl iqtisadiyyatın inkişafı ekoloji problemlərin həllini, eyni zamanda iqtisadi təhlükəsizliyin, sosial sabitliyin təmin edilməsini və dayanıqlı iqtisadi artımın bərpası üçün əlavə şəraitin yaradılmasını nəzərdə tutur. Ekoloji turizm müasir dünya turizminin ən cəlbedici növlərindən biri hesab edilməklə yanaşı, ekoloji turizm mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi müxtəlif regionlarda, həmçinin dünya ölkələrində fərqli istiqamətlərdə aparılmaqdadır. Bu da öz növbəsində ölkələrdə ekoturizmin inkişaf etməsinə təkan verməkdədir. Ekoturizmin inkişafının əsas məqsədi, ilk növbədə, turist statusunda fəaliyyət göstərən şəxsin əqli, fiziki, mənəvi və əxlaqi sağlamlığını bərpa etməyə kömək edən turistlərin açıq havada istirahətə olan ehtiyaclarını ödəməkdir.

Azərbaycan respublikası ərazisində də ekoturizmin inkişafı üçün əlverişli şərait vardır. Ölkəmizin əlverişli coğrafi mövqeyi, 13 iqlim tipindən 9 iqlim tipinin burada olması, eyni zamanda flora və fauna müxtəlifliyi, mədəni tarixi irs kimi faktorlar ekoturizmin inkişaf etməsi üçün başlıca amillər kimi görülür. Buna görə də Azərbaycanda ekoturizm assosiasiyalarının yaradılması nəzərdə tutulur. Ölkə ərazisində ekoloji turizmin inkişaf etməsinə şərait yaradan amillərdən biri də onun landşaft müxtəlifliyi, relyef amilidir. Mənzərəli təbii landşaftları, dağ meşələri, mineral suları və digər rekreasiya ehtiyyatları ilə zəngin olan rayonlar ekoturizmin təbiət, kənd, dərketmə turizmi növləri üçün prespektivli sayılır. Həmçinin bioloji müxtəlifliyin qorunması ilə yanaşı rekreasiya ehtiyatlarından düşünülmüş şəkildə istifadə olunmasını həmçinin turizm fəaliyyətinin dayanıqlı olmasını təmin etmək üçün təbiətin "qeyri-aşındırıcı" rejimindən istifadə edilməsinin işlənib hazırlanmasını tələb etməkdədir. Ekoloji turizm-təbii resursların qorunmasını yerli əhali üçün daha əlverişli edir eyni zamanda ekosistemin bütövlüyünün pozulmasının qarşısını alır. Ona görə də səyahətlər zamanı ekosistemin bütövlüyünü qorumaq zərurəti yaranır ki, bu da mövcud problemə elmi yanaşma tələb edir. Ekoloji turizmin inkişaf tendensiyası və ekoloji mühitin qorunması Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qolu olan Ümümi Dünya Turizm Təşkilatı tərəfindən müəyyən olunur. Ölkəmiz BMÜTT-nın ekoloji turizmin inkişafı və ekosistemlərin mühafizəsi baxımından etibarlı tərəfdaş kimi qəbul edilir. Qeyd etmək lazımdır ki, respublikamızda ilk milli parkların yaradılması başqa məsələlərlə yanaşı, turizmin vacib bölmələrindən biri sayılan ekoloji turizm üçün ən uyğun şəraiti yaratmaq, coğrafi mühiti mühafizə etmək və yaxşılaşdırmaq məqsədi daşıyaraq öz-özlüyündə təbiət

komplekslərinin mühafizəsində önəmli amil olaraq çıxış edir. Məhz bu baxımdan ekoloji problemlərin həlli istiqamətində ekoloji menecerlərin fəaliyyətinin qabaqcıl standartlara uyğun təşkili və həmçinin kadr potensialının inkişafı, ekoturizmin fəaliyyəti üçün lazımi şəraitin yaradılması vacib əhəmiyyət kəsb edir. Respublika ərazisində ekoturizmin inkişafına bu sahədə marketinqin zəif olması, bəzən isə olmaması mane olur. Hazırki dövrdə davamlı turizmin inkişafının başlıca problemlərindən biri də, davamlılıq prinsiplərini praktikada tətbiq etmək üçün alətlərin olmamasıdır. Ekoloji turizm fəaliyyətinin təşkilində müsbət nəticələrə yönəlmiş səriştəli, diqqətli bir menecerə sahib olmaq vacib amildir. Buna nail olmaq üçün də bu sahədə xarici təcrübəni öyrənib mövcud vəziyyətdə tətbiq etmək lazımdır. Dünya ölkələrinin təcrübəsində istifadə olunan davamlı turizmin inkişafının dövlət tənzimlənməsi metodlarının məcmusu, xarici təcrübənin təhlili ekoloji turizm müəssisələrinin fəaliyyətinin davamlı inkişafının təmin edilməsi sahəsində aşağıdakı strateji istiqamətləri qeyd etməyə imkan verir:

- iqtisadi fəaliyyətlərin yaşıllaşdırılmasını yəni ekoloji turizm obyektləri və infrastrukturunun inşasında ekoloji cəhətdən təmiz material və texnologiyaların istifadəsinin tətbiqi;
- yeni səyyahları inkişafının bir istiqamətə cəlb edilməsi üçün ətraf mühitə daha ekoloji cəhətdən uyğun olan yeni keyfiyyətli turizm məhsulları və xidmətlərinin inkişafını stimullaşdıran turizmdə ekoloji sertifikatlaşdırmanı tətbiq etmək və burada ətraf mühit sertifikatı müstəsna ekoloji etiket, bir növ "keyfiyyət nişanı" kimi çıxış edir;
- ekoloji audit, yalnız turizm sahələrinin və müəssisələrinin ekoloji sertifikatlaşdırılması üçün zəruri bir prosedur kimi deyil, həm də fəaliyyətlərinin davamlı inkişaf prinsiplərinə uyğun olaraq ətraf mühitə uyğunluğunun izlənilməsi üsulu kimi çıxış etməkdədir. Ətraf mühit auditi xərclərin azaldılmasını (tullantıların, enerji və su istehlakının miqdarının azaldılması ilə), istehsal olunan məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsini, istehsalçıların məsuliyyətinin gücləndirilməsini və nəticədə turizm müəssisələrinin rəqabət qabiliyyətinin artmasına kömək edir.

Dünyanın müxtəlif ölkələrində qəbul edilmiş turizm klasterinin fəaliyyəti üçün iqtisadi göstəricilər toplusu, inkişafının davamlılığının lazımi səviyyədə izlənilməsinə və nəzarət edilməsinə imkan vermir. Buna görə də sistemin inkişafı tələb olunur, beləki ilk növbədə, iqtisadi fəaliyyətdən yük dərəcəsini qiymətləndirməyə eyni zamanda müqayisəli təhlil aparmağa və dəyişikliklərdəki meylləri müəyyənləşdirib əsaslı qərarlar qəbul etməyə imkan verən ekosistemlərin vəziyyəti bir neçə tələblərə cavab verməlidir:

- ekoloji, sosial və iqtisadi aspektləri birləşdirmək;
- kəmiyyət ifadəsinə malik olmaq;
- mövcud milli statistika sisteminə güvənmək və məlumatların toplanması eyni zamanda hesablanması üçün əhəmiyyətli xərc tələb etməmək;
- beynəlxalq müqayisələrin təmsilçisi kimi çıxış etmək;
- dinamikada qiymətləndirmə qabiliyyətini təmin etmək.

Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, ekoturizm çoxşaxəli bir vasitədir ki, burada xarici turistlərin iştirakı ilə ölkə haqqında, onun davamlı iqtisadi və ekoloji inkişafı haqqında obyektiv məlumatlar xarici ölkələrə çatdırılır.

# YAŞIL İQTİSADİYYATA SİNERGETİK YANAŞMA

**Aytəkin Əfəndiyeva**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**aytek@mail.ru**

Qloballaşan dünyada insanların rifah səviyyəsinin artırılması və tələbatlarının ödənilməsində davamlılığın təmin olunması üçün iqtisadi, sosial və ekoloji sistemlərin hər birinin nəzərə alınması vacibdir. Bu sistemlərə vahid yanaşmanı “yaşıl iqtisadiyyat” təmin edir. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair müəyyənləşdirilən beş Milli Prioritetdən biri Azərbaycanın təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi olmasıdır.

İqtisadi və ekoloji sistemlərin hər biri ayrılıqda kifayət qədər mürəkkəb və çoxparametrli sistemlərdir. Onların birlikdə fəaliyyət göstərdiyi iqtisadi-ekoloji sistemlər daha mürəkkəb və gözlənilməz xassələrə malikdirlər. Mürəkkəb sistemlərin təhlili üçün riyazi modelləşdirmə və müasir kompüter texnologiyalarının tətbiqi ilə aparılan təhlillər xüsusi əhəmiyyət kəsb edir. Təhlil üçün müəyyənləşdirilən model qeyri-xəttidir. Bu modeldə iqtisadi arımın neoklassik modelinin əsas diferensial tənliyi olan Solou tənliyində ekoloji faktorlar nəzərə alınmışdır [2].

Aşağıdakı qeyri - xətti adi diferensial tənliklər sistemini nəzərdən keçirək.

$$\frac{dk(t)}{dt} = f(k(t)) - \lambda k(t) - c(t) - \sum_{i=1}^{3} z_i(t) E_i(t)\,, 0 < t < T, \tag{1}$$

$$\frac{dE_i(t)}{dt} = \varphi(E_1(t), E_2(t), E_3(t)),\ 0 < t < T, \tag{2}$$

$$E_i(0) = E_{0i}\ \ , k(0) = k_0,\ \ i = 1,2,3 \tag{3}$$

burada, $z_i(t), i = 1,2,3$ - ətraf mühitin bərpasına sərf olunan xərc normaları, $E_i(t), i = 1,2,3$ - istehsal prosesində biosferin zədələnməyə məruz qalan hissəsi olub, $E_1 = E_1(t)$ - sənayenin hesabına biosferdəki dəyişikliklər, $E_2 = E_2(t)$ və $E_3 = E_3(t)$ - uyğun olaraq bitkilərin və əhalinin hesabına biosferdə baş verən dəyişikliklərdir, $E_{0i}\ , i = 1,2,3,\ k_0$ - uyğun başlanğıc vəziyyətlərini xarakterizə edən verilmiş ədədlərdir. (1) - (3) sistemi iqtisadi-ekoloji elə bir ifadəsidir ki, burada iqtisadi artım ekoloji dəyişikliklər nəzərə alınaraq vahid sistem kimi təhlil edilir. Öyrənilən modelin elə tipik halını seçməyə cəhd göstərilmişdir ki, bu modeldə təhlil olunan real proseslərin əsas xarakterik xüsusiyyətlərini müşahidə etmək mümkündür. İqtisadi – ekoloji sistemin kəsilməz riyazi modeli riyazi çevirməıərdən sonra aşağıdakı diskret riyazi model şəklinə gətirilir:

$$k_{i+1} = \lambda k_i \left[1 - k_i\right] \tag{4}$$

burada, $\lambda = 1 + \gamma\tau > 1$.

İqtisadi – ekoloji sistemin diskret modeli analitik öyrənilə bilsə də ümumi halda modelin təhlili uyğun proqram təminatının yaradılmasını tələb etdi. Bu həm də iqtisadi –

ekoloji modelin real sistemlərin bir sıra prinsipal xüsusiyyətlərini aşkar etməyə və proqnozlaşdırmağa zəmin yaratdı. Belə xüsusiyyətlərdən ən mühümü olan iqtisadi – ekoloji sistemlərin dinamikasında xaotik mərhələnin nə zaman baş verə biləcəyini proqnozlaşdırmaqdan ibarətdir. Bu işdə məhz iqtisadi – ekoloji sistemdə determinə olunmuş xaosun müşahidə olunma şərtləri araşdırılır, bu halın yaranma səbəblərini təhlil etmək üçün proqram təminatı hazırlanır. Göstərilən nəticələr çoxlu ədədi eksperimentlərlə və real verlənlərlərin təhlili ilə təsdiq olunur. Bundan başqa qurulmuş proqram təminatı determinə olunmuş xaosu dinamikada proqnozlaşdırmaqla yanaşı xaotik vəziyyətdən nizama keçid yollarını da müəyyənləşdirməyə imkan verir.

İqtisadi-ekoloji tədqiqatlarda xüsusi əhəmiyyət kəsb edən kapital artımı və populyasiyanın inkişaf dinamikasının öyrənilməsi üçün kifayətdir ki, baxdığımız sadə modeldə $\{k_i\}$ ardıcıllığının $i \to \infty$ olduqda müxtəlif $\lambda$ -lar üçün özünü necə aparmasını aydınlaşdıraq. Qeyd edək ki, əgər $1 < \lambda \leq 4$ olarsa, $x_i$ -nin qiymətləri $0 \leq x_1 \leq 1$ şərti daxilində $[0,1]$- dən olur. Məhz buna görə deyirlər ki, (4) düsturu parçanı özünə inikas etdirir. Sistemin mövcudluğunu müəyyən edən əvvəlki səviyyə, keyfiyyətcə yeni və daha mürəkkəb səviyyə ilə əvəz olunur ki, bu cür dəyişmə və keçidin baş verdiyi mərhələ bifurkasiya fazası adlanır. Sistemin özünütəşkiletmə prosesinə əvvəlcədən qeyri-müəyyən, stoxastik (ehtimali) xarakter verən bifurkasiya fazası qeyri-xətti keçidin ilk mərhələsinə uyğun gəlir. Həmin sistemin bir vəziyyətdən digərinə keçidi mümkün yeni strukturlar çoxluğundan seçim etməyi tələb edir. Bifurkasiyalar zənciri nəinki sistemi başlanğıc vəziyyətdən apara bilər, sistemin inkişafı hər hansı bir vəziyyətdə baş verir. Bu elə vəziyyətdir ki, bu həddə çatdıqdan sonra sistem heç vaxt əvvəlki vəziyyətə qayıda bilmir. Sistemin vəziyyəti onun inkişafının baş verdiyi məhdud stabil vəziyyətlə bir yerə sığmadıqda sistem mümkün stabillik vəziyyətini itirmək nəticəsində dağılır. Bifurkasiya fazasında sistem, praktiki olaraq «yaddaşını» itirə bilər. Bu isə o deməkdir ki, sistemin sonrakı inkişafı, onun əvvəlki inkişafının xarakterindən çox az dərəcədə asılı olur. Tədqiqatlar göstərir ki, təbii özünütənzimetmə sistemlərində inkişaf prosesi, sistemin mühit təsirlərinə qarşı maksimal sabitliyə nail olması ilə bilavasitə bağlıdır. Sistemin daxili və xarici təsir münasibətləri qanununu müəyyən edən prinsip, maksimal mürəkkəblik və sabitlik prinsipidir. Bunun əsasında mümkün bifurkasiyalı strukturlar çoxluğundan, verilmiş vəziyyət və mühitdə ən sabitini seçməlidir.

Proqram təminatına əsasən aparılan ədədi eksperimentlər modelin fərz olunan xüsusiyyətlərinin real hallara uyğun olduğunu göstərir və bu təhlil bir daha sübut edir ki, təbiətin özü qədər mütəşəkkil və nizamlı olan ikinci bir sistem mövcud deyil.

## AQRAR SAHƏDƏ YAŞIL İNKİŞAF: ƏSAS İNNOVATİV QLOBAL TRENDLƏR

**Barat Mirzəzadə**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**baratmirzezade24@gmail.com**

**Açar sözlər:**. Yaşıl iqtisadiyyat, yaşıl inkişaf, aqrar sahə, blokçeyn texnologiyası, süni intellekt, ağıllı kənd təsərrüfatı, milli ərzaq təhlükəsizliyi

Dünya əhalisinin sayı durmadan artır və mövcud olan ehtiyatlardan daha artıq məhsul istehsal olunması zərurətə çevrilmişdir. BMT – nin apardığı hesablamalara görə, 2050 – ci ilə qədər dünya üzrə təqribən 9 milyarddan çox insan yaşayacaqdır ki, bu da faktiki əhalinin sayından təxminən 10-20% çox deməkdir. Buna uyğun olaraq artan əhalinin ərzaqla təmin olunması üçün ərzaq məhsullarının istehsalı 70-75% artırılmalıdır. Məhz bu tələbatın ödənilməsi və dayanıqlı inkişafın təmin edilməsi üçün kənd təsərrüfatında ənənəvi strategiyalardan uzaqlaşaraq müasir texnologiyalardan və yeniliklərdən istifadə olunmasına

ehtiyac vardır. Son illər aqrar sahədə innovasiyaların tətbiq olunması nəticəsində dəyişikliklər baş vermişdir. Bu gün insanlar dünyanı daha çox yaşıl bir məkana çevirmək barədə fikirləşirlər. Bu səbəbdən dünya ölkələri kənd təsərrüfatında istehsalı daha dayanıqlı hala gətirmək üçün çıxış yolları axtarırlar. Aqrar sahədə və o cümlədən ərzaq istehsalında dünya üzrə dayanıqlığa yönəlmiş bir sıra meyillər aydın görünür ki, bunlara da aşağıdakıları aid edə bilərik.

Əhali sayının artması nəticəsində yaranan qlobal istiləşmənin ziyanlarını daha çox hiss edən subyektlərdən biri kimi fermerləri qeyd etmək olar. Belə ki, qlobal istiləşmə nəticəsində balıqçılıq, bitkiçilik və heyvandarlıq sahəsində risklər artmaqda davam edir. Dayanıqlı kənd təsərrüfatının inkişafı qlobal iqlim böhranı çərçivəsində ən böyük problemlərdən biridir. İndi kənd təsərrüfatı istehsalçıları iqlim dəyişikliklərinə tab gətirəcək və bu baxımdan ağıllı məhsullar ortaya qoymalıdırlar. Eyni zamanda, ağıllı texnologiyalardan istifadə bu istiqamətdə mühüm əhəmiyyət kəsb edir. Bundan başqa iqlim dəyişikliklərinin təsirlərinə tab gətirə bilmək üçün gələcəkdə yeni sort toxumların yaradılmasına da ehtiyac vardır.

**Şəkil 1:** İqlim baxımından ağıllı kənd təsərrüfatı. Milli ərzaq təhlükəsizliyi və inkişaf məqsədləri

- İqlim dəyişikliklərinə dayanıqlılığın gücləndirilməsi
- Məhsuldarlığın və gəlirin dayanıqlı artımı
- Kənd təsərrüfatının iqlim dəyişikliklərinə təsirlərinin azaldılması

*Mənbə: Vüsal Qasımlı, Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Yaşıl iqtisadiyyat, Bakı, 2022, səh 221-222.*

Müasir dövrdə blokçeyn texnologiyasından maliyyə, istehsal, enerji və hökumət sektorları da daxil olmaqla bir çox sektorlarda istifadə olunur. Blokçeyn texnologiyası müxtəlif əməliyyatları şəffaf formada vasitəçiyə və ya mərkəzi orqana ehtiyac olmadan həyata keçirməyə imkan verir ki, bu da müəyyən qədər üstünlüklər yaradır. Blokçeyn texnologiyası son illərdə kənd təsərrüfatı sahəsində yayılmağa başlamışdır. Buna misal olaraq torpaqların reystrə salınmasında blokçeyn texnologiyalarından istifadə edilməyə başlanılmışdır ki, bu da torpaqların qeydiyyatının daha təhlükəsiz və effektiv şəkildə aparılmasına xidmət göstərir. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı tədarük zəncirlərində şəffaflığın artırılması üçün bu texnologiyalardan istifadə edilir ki, bu da fermerlərə və istehlakçılara bütün tədarük zəncirini əvvəldən axıra qədər izləməyə imkan verir. Bu isə qida tullantılarının azalmasına və eyni zamanda çatdırılan məhsulların fermerin təsərrüfatından çıxdığı keyfiyyətlə təyinat yerinə çatmasına xidmət edir. Blokçeyn texnologiyası məhsulların tarladan süfrəyə çatdırılmasını daha da səmərəli edə bilər. Blokçeyn texnologiyalarının kənd təsərrüfatında mümkün tətbiq istiqamətlərinə aşağıdakıları göstərə bilərik:

- təsərrüfat inventarlarına nəzarət edilməsi istiqaməti;
- tədarük zəncirinin gücləndirilməsi istiqaməti;
- təsərrüfatın idarəetmədə istifadə etdiyi proqamların modernləşdirilməsi istiqaməti;
- texnologiyaların optimallaşdırılması istiqaməti;
- ədalətli qiymətlərin müəyyənləşdirilməsi;
- aqrar sahədə subsidiyalara nəzarət edilməsi mexanizmi;
- istehsalçılar üçün mobil pul köçürmələrinin tətbiq olunması;
- dayanıqlı inkişafla bağlı təcrübələrin stimullaşdırılması prosesi.

Müasir dövrdə kənd təsərrüfatında baş verən ən böyük inkişaflardan biri süni intellektin bu sahədə tətbiq olunmasıdır. Süni intellektin tətbiqi, eyni zamanda digər iqtisadi sahələrin inkişafı üçün də ən önəmli amillərdən biri sayılır. Süni intellekt daha sağlam məhsul yığmağa, zərərvericilərə və bitkinin böyümə şəraitinə nəzarət olunmasına, istehsalçılar üçün məlumatların toplanmasına kömək edə bilər. Kənd təsərrüfatında süni intellektə yönəlmiş xərclər dünya üzrə 2020 - ci ildə 1 milyard dollar olduğu halda, 2026 – cı ildə bunun 4 milyard dollara qədər artacağı gözlənilir. İllik orta artım sürətinin 25,5% olması gözlənilir. Kənd təsərrüfatında süni intellektin istifadə istiqamətləri aşağıdakılardan ibarətdir:

- məhsuldarlığın və qiymətlərin proqnozlaşdırılması istiqaməti;
- zərərvericilərə qarşı ağıllı mübarizə sistemlərinin tətbiq olunması;
- əkin və biçin üçün ən optimal zamanın müəyyənləşdirilməsi və əməliyyatların icrasında robotlardan istifadə olunması;
- torpağın keyfiyyətinə nəzrət olunması və xəstəliyin düzgün diaqnoz edilməsinin təşkili.

Bütün qeyd olunanlardan belə bir nəticəyə gələ bilərik ki, müasir dövrdə aqrar sferada yaşıl inkişaf əsas istiqamət və məqsədə çevrilmişdir. Çünki, dünya əhalisinin sayı artır və əhalini ərzaqla təmin etmək üçün isə mövcud olan resurslar, ehtiyatlar azalır. Məhz buna görə də bu sahədə dayanıqlı inkişafı təmin etmək üçün innovativ texnologiyalardan istifadə mühüm amilə çevrilmişdir. Süni intellektin sürətli inkişafı kənd təsərrüfatında səmərəli və effektiv nəticələrin əldə olunmasına imkan yaradır.

## AZƏRBAYCANIN DAYANIQLI İQTİSADİ İNKİŞAFINDA MALİYYƏ SİYASƏTİNİN ROLU

**Əlixan Bədəlov**
**dosent**
**Kənan İsazadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**alixan.badalov@mail.ru**
**kenan.isazade0@gmail.com**

**Açar sözlər:** maliyyə siyasəti, pul siyasəti, borc siyasəti, büdcə siyasəti, vergi siyasəti

Müasir dövrdə maliyyə sahəsində əldə olunan nailiyyətlər milli iqtisadiyyatımız üçün böyük potensial yaratmaqla yanaşı, onun uzunmüddətli dayanıqlı inkişafı üçün zəmin yaradır. Azərbaycanın dayanıqlı iqtisadi inkişafında həyata keçirilən maliyyə siyasəti müasir dövrdə ölkəmizin keyfiyyətcə yeni inkişaf prioritetlərini müəyyən etmişdir.

Qeyd etmək lazımdır ki, maliyyə siyasəti iqtisadi siyasətin tərkib hissəsidir. İqtisadi siyasətin həyata keçirilməsi, cəmiyyətin ümumi inkişaf istiqamətləri maliyyə siyasətinin formalaşması və təşkili səviyyəsindən çox asılıdır. Maliyyə siyasəti hər bir dövlətin maliyyə sisteminin tənzimlənməsi, idarə edilməsi və qurulmasını təyin edən strateji tədbirlərin məcmusudur. Maliyyə siyasəti dövlətin maliyyə qurumları tərəfindən icra olunur və ölkənin iqtisadiyyatının effektiv inkişafını, maliyyə stabiililiyini və sosial rifahını təmin etmək məqsədi ilə formalaşır. Maliyyə siyasətinin əsas məqsədi maliyyə stabilliyinin qorunmasını və iqtisadi inkişafın təmin edilməsini təmin etməkdir. Maliyyə siyasəti dövlətin maliyyə sistemində aşağıdakı qeyd edilən sahələrdə qərarlar qəbul etməklə özünü göstərir:

- Pul siyasəti;.
- Borc siyasəti;
- Büdcə siyasəti;
- İqtisadi siyasəti;

- Vergi siyasəti.

Pul siyasəti ölkədə valyuta və mənfəət dərəcələrinin idarə edilməsi, maliyyə stabiililiyinin qorunması və həmçinin inflyasiyanın nəzarət altında saxlanması ilə bağlı strateji və tədbirləri əhatə edir.

Borc siyasəti dövlət borcunun idarə edilməsi, borcun sürətli artımının qarşısının alınması və borcun ödənilməsi ilə bağlı tədbirləri əhatə edir.

Büdcə siyasəti dövlətin gəlirlərinin və xərclərinin idarə edilməsi, büdcə tənzimlənməsi, dövlət büdcəsinin hazırlanması və icrası ilə bağlı strateji və tədbirləri əhatə edir.

İqtisadi siyasəti investisiya təşviqi, sahibkarlığın dəstəklənməsi, maliyyə mənbələrinin cəlb edilməsi və maliyyə sektorunun inkişafı ilə bağlı strateji tədbirləri əhatə edir.

Vergi siyasət vergilərin təyin edilməsi, vergi qanunvericiliyinin formalaşdırılması və vergilərin cəmləşdirilməsi ilə bağlı strateji tədbirləri əhatə edir.

Beləliklə maliyyə siyasəti ölkənin iqtisadi və sosial məqsədlərinə nail olmaq üçün bu sahələrdə qərarlar qəbul edir və müvafiq tədbirləri həyata keçirir.

Müasir qlobal iqtisadiyyatda müşahidə edilən bir sıra mənfi tendensiyalar, o cümlədən, mal və xidmətlərə istehlakın azalması fonunda istehsalın aşağı düşməsi, milli valyutaların ucuzlaşması, bank-maliyyə sektorunda yaşanan tərəddüdlər bir sıra ölkələri ciddi çətinliklərlə üz-üzə qoyub. Belə bir şəraitdə bəzi Avropa ölkələri hətta sosial proqramları ixtisara salmaq hesabına vəziyyətdən çıxmağa çalışırlar. Öz növbəsində, ötən ilin ikinci yarısından etibarən dünya birjalarında neftin kəskin ucuzlaşması ixracatının əsasını neft və neft məhsulları təşkil edən ölkələr üçün ciddi problemlər yaradıb. Müasir qlobal iqtisadiyyatda müşahidə edilən mənfi tendensiyalar ölkəmizə də öz təsirini göstərə bilmişdir. Lakin ölkənin bank-maliyyə sisteminin sabitliyinin təmin olunması üçün həyata keçirilən zəruri önləyici tədbirlər öz müsbət nəticəsini verməkdədir. Ölkəmizin uğurlu maliyyə siyasəti həm dövlət sektorunun, həm də özəl sektorun maliyyə təminatının daha yüksək səviyyəyə qaldırılmasına istiqamətlənmişdir. Maliyyə siyasətinin əsas elementlərindən biri kimi ölkəmizdə həyata keçirilən büdcə siyasəti yalnız makro səviyyədə müxtəlif dövlət və özəl şirkətlərin maliyyə resurslarına olan tələbatının ödənilməsinə deyil, eləcə də mikro səviyyədə hər bir fərdin həyata keçirilən büdcə siyasətindən daha səmərəli şəkildə istifadəsinəşərait imkan verir. Əhalinin sosial təminatı birbaşa büdcə siyasətinin əsas elementlərinə aid sosial siyasətlə bağlıdır ki, bu da maliyyə siyasətinə daxildir.

Maliyyə siyasətinin həyata keçirilməsində və xüsusən özəl sektorun investisiya təminatının ödənilməsində kommersiya banklarının iştirakının artırılması ölkəmizin uğurlu maliyyə siyasətindən irəli gəlir.

Azərbaycanın 2030-cu ilədək Milli Prioritetlərində və 2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyasında hədəflənən nəticələrə və sağlam prinsiplərə əsaslanmaqla gələcəkdə qeyri-neft iqtisadiyyatını daha da inkişaf etdirmək, insan kapitalının inkişafı nəticəsində dünya iqtisadiyyatında ölkənin mövqeyini gücləndirmək, daha yuxarı gəlirli ölkələr qrupuna daxil olmaq hədəflənir.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyev tərəfindən inamla həyata keçirilən maliyyə strategiyası - uzunmüddətli perspektivə hesablanan və bir qayda olaraq iri miqyaslı məsələlərin həllini nəzərdə tutan maliyyə siyasətinin uzunmüddətli xəttidir.

Prezident İlham Əliyevin yürütdüyü siyasət nəticəsində son 2003-2023-cü illərdə Azərbaycanda müasir maliyyə infrastrukturunun atributlarından olan nağdsız ödənişlər sürətlə inkişaf edib. Milli ödəniş sisteminin dövriyyəsi 80 dəfə, ödəniş kartlarının sayı 151 dəfə, ölkədaxili nağdsız əməliyyatların həcmi isə 950 dəfə artmışdır. Sığorta sektoru son 20 ildə sürətlə inkişaf edib. Bu dövrdə sığorta şirkətlərinin aktivləri 36 dəfə, sığorta haqları 17 dəfə, ödənişləri isə 37 dəfə artıb. Maliyyə sektorunun rəqəmsallaşdırılması sığorta xidmətlərinə əlçatanlılığın və keyfiyyətin artırılmasını təmin edib.

2003-cü ildə indiki dövrədək ölkəmizdə Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlıq subyektlərinə investisiya layihəsinin maliyyələşdirilməsilə əlaqədar 3 milyard manatədək güzəştli kreditlər verilmişdir.

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti tərəfindən “2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası” təsdiq olunmuşdur.

Strategiya ölkəmizdə maliyyə sisteminin mühüm sektorları olan sığorta, kapital bazarları və ödəniş sistemlərinin inkişaf etdirilməsi, habelə bank sektorunun dayanıqlığının daha da gücləndirilməsi kimi prioritetləri ehtiva edir. Strategiya maliyyə inklüzivliyinin genişləndirilməsi, maliyyə xidmətlərinin əhatəliliyinin artırılması və maliyyə alətlərinin şaxələndirilməsi, sektorda səmərəliliyin yüksəldilməsi, korporativ idarəetmənin tətbiqi, habelə şəffaflıq və dayanıqlılığının gücləndirilməsi kimi strateji məqsədləri özündə əks etdirir.

“2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası”-nın hədəflərinin və prioritetlərinin uğurla həyata keçirilməsi ölkəmizin makroiqtisadi və maliyyə sabitliyinə töhfə verəcək, vətəndaşların güclü və dayanıqlı maliyyə sistemindən faydalanmaq imkanlarını daha da artıracaqdır.

2024-cü ildə də Mərkəzi Bankın pul siyasəti ölkədə qiymət sabitliyinin təmin olunmasına, yəni inflyasiyanın aşağı və stabil səviyyədə saxlanılmasına yönəldilməsi müşahidə edilir. Fikrimizcə inflyasiyanın “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” ilə elan edilmiş hədəf intervalında saxlanılması pul siyasətinin əsas məqsədidir.

## MÜƏSSİSƏLƏRİN SƏMƏRƏLİ FƏALİYYƏTİNDƏ DAXİLİ AUDİTİN ROLU VƏ ONA OLAN YENİ TƏLƏBLƏR

**Əlixan Bədəlov**
**dosent**
**Murad Təhməzov**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**alixan.badalov@mail.ru**
**murad.tahmazov.97@mail.ru**

**Açar sözlər:** səmərəli fəaliyyət, daxili audit, daxili audit prosesi, auditor

Daxili audit hər hansı bir şirkətin və ya təşkilatın daxili əməliyyatlarının, maliyyə və idarəetmə proseslərinin, risklərinin və nəzarətinin obyektiv qiymətləndirilməsi və təhlil edilməsi prosesidir. Bu proses, şirkətin məqsədlərinə çatmaq üçün keyfiyyətli və effektiv fəaliyyətin təmin edilməsini və risklərin nəzarətdə saxlanılmasını dəstəkləyir.

Müasir dövrdə daxili audit prosesinə geniş şəkildə yanaşılır və o bir neçə mərhələdən ibarətdir:

- İlk mərhələdə auditorlar şirkətin strukturasını və məqsədlərini anlamağa çalışırlar.
- İkinci mərhələdə auditorlar riskləri və nəzarət mexanizmlərini müəyyənləşdirir və audit planını hazırlayırlar.
- Üçüncü mərhələdə auditorlar məlumat toplayır, təhlil edir və auditor rəyini hazırlayırlar.

Daxili audit prosesi şirkətin maliyyə səhiyyəsinin, fəaliyyətinin və risklərinin effektiv bir şəkildə idarə olunmasına kömək edir. Həmçinin, bu proses şirkət rəhbərliyinə məlumat verirməklə mövcud prosesləri və sistemləri yaxşılaşdırmaq üçün tövsiyələr verir. Bu yolla

daxili audit şirkətin uzunmüddətli uğuru üçün əhəmiyyətli bir təminat və dəstək vasitəsi olaraq qiymətləndirilir.

Daxili audit, iqtisadi inkişafın keyfiyyətli və dayanıqlı olaraq inkişaf etməsinə dəstək verən əsas amil və alətdir. Bu proses hər bir şirkətin və ya təşkilatın effektivliyini artırmaq və nəzarət mexanizmlərini məhdud riskləri azaltmaq məqsədilə nəzərdə tutulur.

Müəssisənin inkişafında daxili audit aşağıdakı rola malikdir:

- Effektivliyi artırır. Daxili audit hər bir şirkətin əməliyyatlarını, maliyyə proseslərini və idarəetmə tədbirlərini qiymətləndirir və yaxşılaşdırmaq üçün tövsiyələr verir. Bu şirkətin effektivliyini artıraraq sərbəst bazar şəraitində daha rəqabətli olmasına kömək edir.

- Riskləri azaldır. Daxili audit şirkətin risklərini təhlil edir və nəzarət mexanizmlərini qiymətləndirir. Bu, potensial risklərin öncədən müəyyən edilməsini və qarşısının alınmasını təmin edir. Risklərin azaldılması şirkətin stabil və sabit inkişafını təmin edir.

- Dəyər artırmaq. Daxili audit şirkətin dəyərini artırmaq üçün effektivliyi və nəzarəti artırmaq üçün strateji tövsiyələr verir. Bu şirkətin büdcəsinin idarə olunmasını, məhsul və xidmətlərin keyfiyyətini və müştərilərin əminliyini artırmağa kömək edir.

- Əminliyi təmin edir. Daxili audit şirkətin proseslərini və maliyyə məlumatlarını təhlil edərək, məlumatların doğruluğunu və etibarlılığını yoxlayır. Bu, şirkətin əməliyyatları və maliyyəsi ilə bağlı dəqiqliyi təmin edir, investorlar və payçılar üçün güvən yaradır.

- Qanunvericiliyə və standartlara uyğunluğu təmin edir. Daxili audit şirkətin qanunvericilikə və tətbiqi standartlara uyğunluğunu yoxlayır. Bu, qanunvericilik məcburiyyətlərinə uyğunluğun təmin edilməsini və şirkətin etibarını qoruyur.

Daxili audit prosesi, iş dünyasının dəyişən tələblərinə uyğun olaraq daim inkişaf etməlidir. Yeni texnologiyaların və iş təcrübəsinin artması ilə birlikdə, daxili audit tələbləri də dəyişir. Müəssisələrin inkişafda daxili auditə olan yeni tələblərə aşağıdakılar daxildir:

- Texnologiya bilikləri. Daxili auditorların texnologiya, avtomatlaşdırılmış proseslər, data analitikası, kiberr təhlükəsizlik və digər texnoloji sahələrə dair bilikləri olmalıdır. Texnologiya ilə əlaqəli proseslərin audit edilməsi, məlumat sistemlərinin sərbəstlikləri və effektivliyi, şirkətin keyfiyyətli idarə olunması üçün əhəmiyyətli bir amildir.

- Riyazi və statistik təhlil. Daxili auditorların riyaziyyat bilikləri və statistik analiz sahəsində yüksək səviyyədə bacarıqları olmalıdır. Bu, maliyyə məlumatlarının təhlili, risklərin qiymətləndirilməsi və effektiv nəzarətin təmin edilməsi üçün əhəmiyyətli bir alətdir.

- Risk idarəetməsi. Daxili auditorların risk idarəetməsi sahəsində yaxşı bilikləri olmalıdır. Risklərin müəyyən edilməsi, qiymətləndirilməsi, nəzarət edilməsi və müvafiq reaksiyaların hazırlanması prosesləri şirkətin uğurlu fəaliyyəti üçün əsas şərtlərdə hesab edilir.

- Beynəlxalq təcrübə. Müasir iş dünyasında çoxmillətli coğrafi və məişət səviyyəli əməliyyatlar üzrə auditorların işləməsi geniş yayılmışdır. Daxili auditorların fərqli məkanlarda işləməyə və beynəlxalq standartlara, təcrübələrə və tətbiqlərə malik olmaları önəmlidir.

- Liderlik və əməkdaşlıq bacarıqları. Daxili auditorlar müxtəlif təmsilçilərlə əməkdaşlıq edə biləcəkləri kimi, audit komandalarını da rəhbərlik etmək üçün liderlik bacarıqlarına malik olmalıdırlar. Bu müəyyən bir misiyaya nail olmaq və auditoriyanın məqsədlərinə uyğun işləməyə imkan verir.

- Təcrübə və peşəkar təhsil. Daxili audit sahəsində təcrübə və peşəkar təhsilin əhəmiyyəti artır. Auditorlar daxili audit təcrübəsində sərbəst işləmək üçün gərəkli bilikləri və bacarıqları əldə etmək üçün lazımi təhsili və sertifikatlara malik olmalıdırlar.

Daxili auditorlar yalnız mövcud prosedurları nəzərə almadan, həmçinin yeni və yaradıcı yollar axtararaq şirkətin iş proseslərini və nəzarət sistemlərini təkmilləşdirə biləcək innovativ bir yanaşma göstərməlidirlər. Bu şirkətin yeniliklərə və fəal mövqe tutumuna əsaslanan inkişafına kömək edə bilər.

Yuxarıda qeyd olunan yeni tələblər daxili audit prosesinin daha adaptasiyalı və müasir tələblərə cavab verməsinə kömək edər. İş dünyasında sürətli dəyişikliklər baş verdiyi

vaxt daxili auditorların bu tələblərə uyğun olması şirkətin uzunmüddətli uğuruna və inkişafına səbəb olacaqdır.

## AZƏRBAYCANDA KİÇİK VƏ ORTA BİZNESİN İNKİŞAFINDA MÜHASİBAT UÇOTU PROBLEMLƏRİ

**Əlixan Bədəlov**
**dosent**
**Rövşən Mustafayev**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**alixan.badalov@mail.ru**
**rovsen1728@gmail.com**

**Açar sözlər:** mühasibat uçotu, hesabat, vergi qaydaları, mühasibat uçotunun avtomatlaşdırılması

Biznesin idarə olunması və mühasibat uçotu bir-biri ilə sıx əlaqəli sahələr olsa da, kiçik şirkətlərdə onlar bir şöbədə birləşdirilə bilər. Daha böyük şirkətlərdə isə bunun əksinə bu sahələr ayrı-ayrı departamentlərdə təşkil olunur və mütəxəssislər iki sahədən birində ixtisaslaşırlar. Biznesin iderəedilməsi mühasibat uçotu, vergi işləri və mühasibatlıq ilə birbaşa məşğul olmur - daha çox strateji maliyyə planlaşdırmasına fokuslanır. Mühasibat uçotu isə bilavasitə yalnız maliyyə məsələləri ilə məşğul olur.

Azərbaycanda kiçik və orta biznesin inkişafı məsələsi çox ciddi məsələdir. Nəzərə almaq lazımdır ki, ölkəmizdə hələ də kiçik və orta biznesin inkişafında, vergi sistemində və digər sahələrdə müəyyən problemlər vardır. Bu problemlərin aradan qaldırılması üçün mühasibat uçotu, vergi ödəmə məsələləri də aktual məsələlərdən hesab edilir.

Bu istiqamətdə biznes sferasında həllini gözləyən biri də mühasibatlıq problemləridir.

Kiçik və orta biznes müəssisələrində təşkil edilmiş mühasibatlıqlar və ya mühasibat uçotu xidmətini göstərən sahibkarlıq subyektləri vasitəsi ilə aşağıdakı işlər (xidmətlər) həyata keçirilir:

- mühasibat uçotunun aparılması üzrə Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə riayət etmək;
- mühasibat uçotunun aparılmasını həyata keçirmək;
- mühasibat uçotunu ilkin uçot sənədləri əsasında, mühasibat uçotu registrlərini tərtib etməklə fasiləsiz həyata keçirmək;
- maliyyə, vergi və digər hesabatların tam və vaxtında təqdim olunmasını təmin etmək;
- kommersiya sirri hesab edilən məlumatları məxfi saxlamaq;
- müvafiq vəsaitlərin təyinatı üzrə istifadə edilməsini həyata keçirmək;
- aktiv, öhdəlik, kapital, gəlir və xərclərin uçotunun həyata keçirilməsini təmin etmək.

Müasir biznesin idarə olunması üçün informasiya texnologiyaları sahəsində müasir nailiyyətlərin tətbiqi, idarə olunan proseslər haqqında informasiyanın vaxtında və dolğunluğunun təmin olunmasına imkan yaradır, proseslərin daha dərindən təhlilinə, modelləşdirilməsinə və onların inkişafının proqnozlaşdırılmasına imkan verir.

Mühasibat uçotu informasiyanın daxili istifadəçiləri olan təşkilat rəhbərliyi tərəfindən ən mühüm idarəetmə qərarlarının qəbul edildiyi informasiya bazası kimi çıxış edir və müəssisənin fəaliyyəti dövlət tənzimləyici orqanları, səhmdarlar, investorlar, kreditorlar və s. kimi xarici istifadəçilər tərəfindən qiymətləndirilir.

Son illərdə biznes idarəçiliyində informasiya texnologiyalarının inkişafı çox sürətlə gedir. Müasir mühasib bu gün artıq avtomatlaşdırma vasitələrindən geniş istifadə etmədən mühasibat uçotunun aparılması prosesini təsəvvür belə, edə bilmir. Məhz, ona görə də

mühasibat hesabatlarının formalaşdırılmasının əsas tətbiqi problemlərindən biri onun avtomatlaşdırılması və kompüter texnologiyaları dünyasında son tendensiyalarla əlaqələndirilməsi prosesidir.

Lakin bu gün mühasibat uçotunun avtomatlaşdırılması ilə bağlı meydana çıxan problemlər aktual olaraq qalır.

Mühasibat uçotunun avtomatlaşdırılmasının müxtəlif aspektləri müxtəlif müəlliflər tərəfindən öyrənilir. Bu, əsasən, müəyyən proqram məhsullarının tətbiqi və istifadəsi üzrə metodik tövsiyələrlə bağlıdır.

Mühasibat uçotunun müasir aktual problemlərindən biri mühasibat uçotunun avtomatlaşdırılmış formasının zəif işlənmiş metodologiyasıdır. Bütün hallarda proqram tərəfindən istifadə olunan alqoritmlər olduqca mürəkkəbdir. Buna görə də proqram təminatından istifadə ilə bağlı həmin proqramın yaradıcılarının verdikləri ipucları, tövsiyələri daha faydalıdır. Lakin eyni zamanda, mühasibat uçotunun avtomatlaşdırılmış formalarının metodologiyasının inkişaf etdirilməsi də çox zəruridir.

Müəlliflər yalnız bəzi işlərdə avtomatlaşdırılmış sistemlərin qurulması prinsiplərini təhlil edir, mühasibat uçotunun avtomatlaşdırılmış formasının inkişafının metodik, həm də metodoloji problemlərini nəzərdən keçirirlər. Özü də bu zaman mühasibat uçotunun aparılmasının avtomatlaşdırılmış forması təkcə bütövlükdə mühasibat uçotu ilə bağlı qurulmanın ümumi prinsiplərinə malik olmur, həm də özünəməxsus spesifik prinsipləri nəzərə almaqla həyata keçirilmədən avtomatlaşdırılmış mühasibat uçotu formasını qurmaq mümkün deyil.

Bundan əlavə, MHBS-a keçidlə əlaqədar olaraq mühasibat uçotunun avtomatlaşdırılmasının digər bir problemi yeni mühasibat standartlarına uyğun proqram məhsullarının təkmilləşdirilməsi zərurəti ilə əlaqədardır.

Mühasibat uçotunun müasir avtomatlaşdırılmasının digər mühüm bir problemi məlumatların saxlanılmasının etibarlılığının təmin edilməsi məsələsi olur. Çünki informasiya təşkilatın strateji resurslarından birinə çevrilir və onun fəaliyyətində getdikcə daha çox əhəmiyyət kəsb edir.

Eyni zamanda, məlumatların virtualda mühafizəsi metodlarının tətbiqi ilə bağlı da bir sıra problemlər ortaya çıxır. Onlardan ən mühümü informasiya təhlükəsizliyinin təmin edilməsi problemidir. Bu günə qədər, məlumatların tam məxfiliyini təmin edən hər hansı bir xüsusi tənzimləmə aktları, eləcə də bunu yerinə yetirən texnologiyalar mövcud deyil. Nəticə etibarilə, ən qiymətli məlumatları ictimai virtual məkanda mühafizə etmək tövsiyə olunmur.

Müasir biznesin idarə olunması üçün informasiya texnologiyaları sahəsində müasir nailiyyətlərin tətbiqi idarə olunan proseslər haqqında informasiyanın vaxtında və dolğunluğunun təmin olunmasına imkan yaradır, proseslərin daha dərindən təhlilinə, modelləşdirilməsinə və onların inkişafının proqnozlaşdırılmasına imkan yaradır.

Məlumatların bütövlüyü məsələləri də aktual problem kimi çıxış edir. Belə ki, virtual məkan xidmətləri üçün internet şəbəkəsi ilə daimi əlaqənin təmin edilməsi zəruridir. Daimi əlaqə təmin edilmədikdə isə məlumat anbarlarında informasiyanın düzgün və vaxtında yenilənməsi ilə bağlı problemlər yarana bilər.

Yuxarıda göstərilən problemlərin həlli şirkətə məxsus olmayan serverlərdə informasiyanın itirilməsi və ya ona çıxış üçün şəraitin aradan qaldırılması üçün məqsədyönlü tədbirlər tələb edir.

Bundan başqa, proqram təminatının texniki dəstəyi ilə bağlı xərclərin azaldılmasına baxmayaraq, istifadəçi istifadə olunan təminatda məhdudiyyətlərlə üzləşir və bəzən isə öz məqsədləri üçün onu tam şəkildə tənzimləmək imkanı mövcud olmur.

Mühasibat uçotunun avtomatlaşdırılmasından istifadənin üstünlüklərinə baxmayaraq, onun bilavasitə müəssisə çərçivəsində istifadə edilməsinin aşağıdakı problemləri mövcuddur:

- Müəssisənin fəaliyyətinin əsaslarını və əsas biznes proseslərini müəyyən etmək zərurətindən ibarət olan avtomatlaşdırma məsələlərinin müəyyən edilməsi, bu da müəssisənin real tələbatından kənara çıxmamağa imkan verir.

- Mühasibat uçotu, hesabat və vergi qaydalarını tənzimləyən qaydalarda tez-tez yol verilən dəyişikliklər çevikliyə imkan vermir və kənar şəraitdəki dəyişiklikləri əks etdirə bilmir.

- İxtisaslı kadrların çatışmazlığı.

- Müəssisədəki mövcud məlumatların yeni bir sistemə köçürülməsi.

Nəticə:

- Yuxarıda qeyd edilən problemlər mühasibat uçotunun aparılması üçün avtomatlaşdırılmış sistemin tətbiqinə çəkilən xərclərin artmasına və onun tətbiqindən iqtisadi effektin əldə olunmamasına gətirib çıxara bilər.

- Azərbaycanda kiçik və orta biznesin bir çox subyektləri mühasibat uçotunun avtomatlaşdırılmasına tələsmirlər. Bu, aydındır, çünki işi köhnə qayda ilə aparmaq daha rahatdır. Fikrimizcə mühasibat məsələləri komplekslərinin kompüter emalı biznesin müəyyən mənada irəliləməsinə müsbət təsir edəcəkdir.

## "YAŞIL" İQTİSADİYYATA KEÇİDİN ƏTRAF MÜHİTİN MÜHAFİZƏNİN QORUNMASINDA ROLU HAQQINDA

**Fərhad Mirzəyev**
**dosent**
**Fatma Əliyeva**
**Bakı Dövlət Universiteti**
**farhad_1958@mail.ru**
**aliyevafatma2901@gmail.com**

Müasir dövrdə bütün dünyada ətraf mühitin çirklənməsi, bərpa olunmadan azalan təbii ehtiyatlar və gündən-günə həndəsi silsilə ilə artan tələbat vəziyyətində davamlı inkişafa çatmaq üçün "yaşıl" iqtisadiyyatın genişləndirilməsi istiqamətində realizasiya olunan tədbirlər çox böyük, ölçüyə gəlməyəcək dərəcədə vacib əhəmiyyət daşıyır və aktuallığa malikdir. Əbəs yerə deyil ki, ölkə prezidenti cənab İlham Əliyevin tərəfindən təsdiq edilib fəaliyyətə başlayan "Azərbaycan 2030: sosial-iqtisadi, inkişafa dair Milli Prioritetlər"də 5-ci priotet Təmiz ətraf mühit və "yaşıl artım ölkəsi" adlanır. Adı çəkilən sənəddə ekoloji təmiz texnologiyaların tətbiqinə vacib yer ayrılması, tullantı məhsullarının təkrar emalı və daha çox çirklənməyə məruz qalmış ərazilərin bərpasının aktuallığı, ekoloji nöqteyi nəzərdən əlverişli olan "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsi ilə bağlı qarşıya müvafiq strukturlar qarşısında konkret tapşırıqlar qoyulmuşdur.

Onu da qeyd etmək vacibdir ki, ölkəmizdə qurulub fəaliyyətə başlayan təkrar emal prosesi "yaşıl iqtisadiyyat"ın inkişaf etdirilməsinə, rəqabətə dözümlü məhsulların istehsalının artırılmasına, ekoloji durumun xeyli yaxşılaşdırılmasına xidmət edir. Bu gün "təkrar emal" məsələsi çox aktualdır. İstehlak prosesindən sonra atıla biləcək tullantıların bir hissəsini təkrar istifadəyə verib yararlı hala salmaq mümkündür. Təkrar emala gedən materialların dövrü olaraq insanların istehlakına qoşulmasıdır. Bunu etməkdə əsas məqsəd bərpa olunması mümkün olmayan, tükənən təbii ehtiyatların israf olunmasına və çirklənmənin qarşısını almaq, eləcə də əlavə xammal ehtiyatı yaratmaqdır. Bu da həm asan, həm tez başa gəlməsi ilə yanaşı, enerji qənaətinə şərait yaradır.

Əminik ki, son illərdə Balaxanı Sənaye Parkının fəaliyyəti, Bakı Bərk Məişət Tullantılarının Yandırılması zavodunun işə düşməsi, azad edilmiş ərazilərimizin "yaşıl iqtisadiyyat potensialı", BƏƏ-nin "Masdar" şirkəti ilə bağlanmış müqavilələr Günəş Elektrik və Külək Elektrik Stansiyalarının qurulması, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik" ili elan olunması ölkəmizin "yaşıl" iqtisadiyyatın inkişafına nail olmasına inam yaradır.

Yuxarıda deyilən fikirlər ümid verir ki, Azərbaycanımızda yaxın gələcəkdə ətraf mühitin sağlamlaşdırılması, çox az olan yaşıllıqların sürətli bərpası və həndəsi silsilə sürəti

ilə artırılması onsuz da çox az olan su ehtiyatlarından və tarazlı enerji mənbələrindən optimal, effektiv surətdə istifadə edilməsini təmin edəcəkdir.

## YAŞIL İQTİSADİYYATIN ÖLKƏ İQTİSADİYYATININ İNKİŞAFINA TƏSİRİ

**Fərid Xankişiyev**
**dosent**
**Aydan Əsgərova**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**ferid_khan@mail.ru**
**aydansgrova29@gmail.com**

Bu gün bəşəriyyətin inkişafının qlobal səviyyədə əsas diqqət ediləcək sahələrindən biri də Yaşıl iqtisadiyyatdır. Yaşıl iqtisadiyyat təbiətin mühüm bir hissəsi hesab edilən, eyni zamanda da təbiətdən asılı olan bir iqtisadiyyatdır. Yaşıl iqtisadiyyat iqtisadiyyat elmində ətraf mühit iqtisadiyyatı, yaşıl siyasət və s. kimi mövzüları özündə birləşdirir. Yaşıl iqtisadiyyat həmçinin yeni iqtisadiyyat olaraq da ifadə edilə bilər.

Azərbaycanda Yaşıl iqtisadiyyatın inkişaf dinamikasını müəyyənləşdirməyə çalışarkən ilk növbədə qlobal trendləri və perspektivləri təhllil etməyə çalışmaq lazımdır. Statistik göstəricilərə əsasən 2020-ci il enerji ilə özünü təminetmə səviyyəsi 364 % və enerji asılılığı isə mənfi işarə 254.5% olan Azərbaycan uzun əsrlərdir ki, enerji ölkəsi kimi tanınır. Yaşıl iqtisadiyyatın inkişafı üçün ekoloji təmiz texnologiyalar, yeni institusional çərçivələr, yaşıllaşma, insan kapitalı və s. əsas prirotet istiqamətlər sayılır.

Ölkəmizdə Yaşıl iqtisadiyyatın inkişaf etdirilməsi üzrə aşağıdakı tədbirlər görülür:

- yaşıl iqtisadiyyatla mənəvi-əxlaqi , problemlərin qarşılıqlı əlaqəsinin öyrənilməsi;
- Təbii sərvətlərdən dayanıqlı istifadə edilməsi;
- Ekoloji tarazlığın qorunub saxlanması;
- Təbiətdən istifadənin ödənişli olması və s.

Yuxarıda göstərdiyimiz tədbirlərlə yanaşı Yaşıl iqtisadiyyatın inkişafına zəmin yaradan digər bir əsas amil isə "təkrar emal" anlayışıdır. Müasir dövrümüzdə "təkrar" anlayışı tez-tez istifadə olunur. İstehlak prosessindən sonra tullantıların bir qismini təkrar istifadəyə yararlı vəziyyətə gətirmək mümkündür. Bununla da, əsas sərvətlərin israfının, həmçinin ekoloji çirklənmənin qarşısını alır. Təkrar istehsal prossesi enerjiyə də qənaətdir, yəni ilk istehsaldan fərqli olaraq təkrar istehsal prosessi zamanı enerji az sərf olur.

Yaşıl iqtisadiyyatın inkişafına zəmin yaradan amillərdən biri də fiskal siyasətdir. Çünki hər bir ölkənin özünəməxsus olaraq fiskal alətləri (yanacaq və digər ehtiyyatlardan istifadəyə görə vergilər və s.) var. Dünyanın müxtəlif ölkələri üzrə istifadə olunan fiskal alətlərdən biri karbon vergisidir. Karbon vergisi dedikdə iqlim dəyişikliyi ən önəmli mənbəələrdən biri olan neft, kömür, təbii qaz kimi yanacaqlarının yanmasını azaltmaq məqsədi ilə alınan vergilərdir. Bu o deməkdir ki, karbon vergisinin alınması gəlir əldə etmək deyil də, qlobal çirklənmənin qarşısını almaq və resurslardan səmərəli istifadə etməkdən ibarətdir. Bu gün ölkəmizdə çirklənmənin qarşısını almaq üçün atılan addımlardan biri də parkların salınmasıdır. Bu sahəyə dövlət tərəfindən xüsusi diqqət edilir, həmçinin yatırımlar edilir.

Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030 sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" də ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi" tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsi ilə bağlı konkret tapşırıqlar qoyulub.

Bu günkü gün insanlar düşünməlidirlər ki, maddi imkanlarla yanaşı, insanların cəmiyyət və gələcək nəsillər qarşısında daşıdığı sosial məsuliyyət də vardır. Buna görə də yaşıl iqtisadiyyatının xarakterik xüsusiyyətlərinin hər bir vətəndaş tərəfindən nəzərə alınması özümüz üçün də səmərəli yaşam şərtlərindən biri olmalıdır.

## "YAŞIL İQTİSADİYYAT"IN TURİZMİN İNKİŞAFINDA ROLU

**Fərid Xankişiyev**
**dosent**
**Mirəhməd Nəsirov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**ferid_khan@mail.ru**

Bu gün yaşıl iqtisadiyyatın inkişaf səviyyəsi milli iqtisadiyyatın rəqabət qabiliyyətini müəyyən edən amillərdən biridir. Yaşıl iqtisadiyyat planetin ekoloji məhdudiyyətləri daxilində yaşıl texnologiyalardan istifadə edərək daha yüksək həyat keyfiyyətini təmin edən iqtisadiyyatdır.

İqtisadiyyatın yaşıllaşdırılması prosesi iqtisadiyyatın xammal modelindən davamlı inkişaf modelinə keçidi nəzərdə tutur, bu da iqtisadi, sosial və ekoloji komponentlərin səmərəli qarşılıqlı əlaqəsini özündə əks etdirir. İqtisadiyyatın yaşıllaşdırılmasının faydaları aşağı karbonlu iqtisadi inkişaf, resursların səmərəliliyinin artırılması, yeni iş yerlərinin yaradılması, yeni texnologiyaların və innovasiyaların istifadəsidir.

Yaşıl iqtisadiyyat biosfer üçün risklər olmadan insanların rifahının yaxşılaşdırılmasına yönəlmiş iqtisadi fəaliyyətin aparılması üsuludur. Bu iqtisadi model çərçivəsində turistlərin səyahət zamanı davranışlarını əks etdirən yaşıl turizm fəal şəkildə inkişaf edir. Yaxın gələcəkdə turizm sənayesində xidmət istehsalında yaşıl texnologiyalardan istifadə edə bilən müəssisələr rəqabətədavamlı olacaqlar.

Hazırda turizmin yaşıllaşdırılması, turizm sənayesində yaşıl texnologiyaların tətbiqi aktual məsələdir. Qeyd etmək istərdim ki, elmi ədəbiyyatda yaşıl turizmin tərifi ilə bağlı hələ də konsensus (razılıq, ümumi rəy) yoxdur. Bu konsepsiya çox vaxt ekoturizmlə eyniləşdirilir. Təbii ki, bunlar müəyyən dərəcədə əlaqəli anlayışlardır. "Yaşıl" və "ekoloji" xüsusiyyətlər turistin davranışına aiddir, bu, təkcə səfərin məqsədləri ilə deyil, həm də istifadə olunan nəqliyyat, yerləşdirmə vasitələri, ekoloji mal və xidmətlərin istehlakı ilə müəyyən edilir. Bu baxımdan, turistin yaşıl davranışının konkret turizm növlərində deyil, səyahət zamanı reallaşa biləcəyini iddia etmək qanunauyğundur. Bununla belə, fikrimizcə, ən yaşıl turizm ekoturizmdir.

"Yaşıl iqtisadiyyat" və "turizm" sektorunun əlaqələrinin öyrənilməsi iki qlobal tendensiya ilə bağlıdır: bir tərəfdən turizm biznesinin qloballaşması və diversifikasiyası, digər tərəfdən ekoloji problemlərin kəskinləşməsi.

Odur ki, turizm fəaliyyəti zamanı, xüsusən də təbiətlə əlaqəli turizm növlərini həyata keçirən təşkilatlar aşağıdakılara əməl etmələri vacibdir:

- təbii ehtiyatların ekoloji cəhətdən əsaslandırılmış istifadəsini təmin etmək;
- ətraf mühiti fiziki, kimyəvi, bioloji, radioaktiv, elektromaqnit təsirlərdən, səs-küydən, digər növ çirklənmələrdən və mənfi təsirlərdən qorumaq;
- ərazi landşaftı, ayrı-ayrı əraziləri, ekoloji sistemləri və kompleksləri, elmi, idrak, tarixi, estetik və mədəni əhəmiyyət daşıyan təbii obyektlərə qayğı ilə yanaşmaq;
- təbii mühitə və təbii ehtiyatlara antropogen (insanların ətraf mühitə təsiri) təsirin mənfi nəticələrinin azaldılması məqsədi ilə əraziyə səfərlərin sayını azaltmaq;
- təbii ehtiyatlardan istifadə və ətraf mühitin mühafizəsi sahəsində qanunlara riayət etmək və s.

Digər sahələrdə olduğu kimi, turizm sənayesində də təbiətdən səmərəli istifadə edilməməsi ekosistemin dayanıqlığının pozulmasına gətirib çıxara bilər. Turizm fəaliyyəti prosesində ekoloji komponentlərlə qarşılıqlı əlaqələrə girmə, müasir dövrdə turizm fəaliyyətinin ekoloji əsaslarını yaradır. Bu mənada da təbiət turizm fəaliyyətinin həyata keçirilməsində ətraf mühitin mühafizəsi ön planda durur. Təbi komponentlər daxil olmaqla həyata keçirilən turizm fəaliyyətində aşağıdakı tələblərə əməl olunması vacib şərtlərdəndir:

- təbii su mənbələrini korlamamaq (axar suyun qarşısını kəsməmək, içərisinə lazımsız əşyalar atmamaq, məcrasını dəyişməmək və s.);
- fauna-floraya ziyan gətirə bilən hərəkətlərə yol verməmək (heyvanları qəzəbləndirməmək, qorxutmaq, onlara zədə yetirmək, bitkiləri məhv etmək, ağacların budaqlarını qırmaq, nəzərdə tutulmayan yerdə ocaq qalamamaq və s.);
- tullantıların nəzərdə tutulan yerlərə atılmasını təmin etmək və s.

Turizmin səmərəli, cəlbedici, maraq kəsb etməsi baxımından təbii-coğrafi resurslar (dənizlər, dağlar, meşələr, göllər, bitki aləmi və fauna, iqlim və s.) və onlardan istifadə imkanlarının əlçatan olması ən vacib şərtdir. Həmçinin yaddan çıxarmaq olmaz ki, nəzarətsiz təbiətdə baş tutan turizm fəaliyyəti ətraf mühitə mənfi təsir göstərə bilir.

Ərazinin həssaslığı nəzərə alınmaqla, ziyarətçilərin hansı məqsədlərlə gəlmələri, vaxtı, sayı, səfərin uzunluğu və digər zəruri şərtlər nəzərə alınmalıdır. Turizm fəaliyyətində təbiətdən istifadənin mühüm əlamətlərindən biri də onun mühafizəsidir. Təbiətdə turizm fəaliyyətinin genişləndirilməsi ilə qarşıya çoxsaylı problemlər çıxmış olur. Bu baxımdan da təbiət turlarında ətraf mühiti mühafizə tədbirlərinə əməl olunmalıdır.

Ölkəmizdə turizmin inkişafı ilə bağlı son dövrlərdə müxtəlif dövrləri əhatə edən strateji hədəflər müəyyənləşdirilmiş və bu istiqamətdə məqsədyönlü tədbirlər reallaşdırılmışdır. İşğaldan azad edilən ərazilərin potensialına nəzər yetirdiyimiz zaman turizm sektorunun bu bölgədə qısa müddətdə tərəqqisi üçün geniş imkanların mövcudluğu diqqəti cəlb edir. Alternativ enerji mənbələrinin yaradılması üçün Qarabağ bölgəsində lazımı təbii şərait mövcuddur. Eyni zamanda da, həmin ərazilərin təbii resursları, mədəni abidələri, tarixi keçmişi özündə əks etdirən irsi nümunələrlə zəngin potensialı turizm sektorunun "yaşıl iqtisadiyyat"ın ekoloji mühitin qorunması və ətraf mühitin mühafizəsi istiqamətindəki amilləri nəzərə almaqla tərəqqiyə nail olması imkanlarının geniş olmasının göstəricisidir.

Yuxarıda qeyd edilənlərə nəzərə alaraq bildirmək olar ki, turizmin inkişafı və eyni zamanda dayanıqlı turizmin formalaşdırılması "yaşıl iqtisadiyyat"ı xarakterizə edən amillərin nəzərə alınmasını vacib edir. Bu baxımdan da, gələcək dövrlərdə turizm məhsullarına olan tələbatın artmasını, təbii resursların azalmasını, qlobal istiləşmə prosesinin sürətlənməsi kimi amilləri bir-birinə harmoniya etməklə genişmiqyaslı təhlillərin aparılması və yeni strateji istiqamətlərin müəyyənləşdirilməsi prioritet məsələlərdən birinə çevriləcəkdir. Hər bir vətəndaş da öz üzərinə düşən öhtəlikləri başa düşməli və istirahət zamanı ətraf mühitin mühafizəsinə diqqət etməlidir. Unutmayaq ki, ətraf mühiti mühafizə etməklə yanaşı eyni zamanda insanların uzunmüddətli yaşamınada imkan yaratmış oluruq.

# “YAŞIL” İQTİSADİYYAT VƏ DAVAMLI İNKİŞAFDA DÖVLƏTİN ROLU

**Fərid Xankişiyev**
**dosent**
**Tərlan Həsənzadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**ferid_khan@gmail.com**
**hesenzade108@gmail.com**

Yaşıl iqtisadiyyatın mövzusu eyni zamanda ekoloji dayanıqlığı və sosial bərabərliyi təşviq etməklə yanaşı, iqtisadi artımı təşviq etmək mənasını da verir. O, resurslardan səmərəli istifadəni, çirklənmənin və tullantıların azaldılmasını və bərpa olunan enerji mənbələrinə keçidi vurğulayır. Bu konsepsiyanın mərkəzində ənənəvi iqtisadi modellərin uzunmüddətli ekoloji deqradasiyaya və sosial bərabərsizliyə gətirib çıxaran ekoloji xərcləri çox vaxt laqeyd qoyduğunun qəbul edilməsi dayanır. Yaşıl iqtisadiyyat çərçivəsində davamlı inkişafda dövlətin rolu çox şaxəlidir. Hökumətlər müəssisələrin ekoloji cəhətdən məsuliyyətli şəkildə fəaliyyət göstərməsini təmin etmək üçün qaydaların müəyyən edilməsinə və həyata keçirilməsinə cavabdehdirlər. Bu, meşələrin qırılması və ya həddindən artıq karbon emissiyası kimi zərərli fəaliyyətlərin qarşısını alaraq, karbon qiymətləri və ya bərpa olunan enerji subsidiyaları kimi davamlı təcrübələri təşviq edən siyasətlərin həyata keçirilməsini əhatə edir.

Bundan əlavə, dövlət yaşıl infrastruktura, tədqiqata və inkişafa sərmayə qoyuluşunda, təmiz texnologiyalarda və davamlı təcrübələrdə innovasiyaların təşviqində mühüm rol oynayır. Eyni zamanda, dövlət vətəndaşları ətraf mühitə uyğun davranışlara cəlb etmək üçün maarifləndirmə kampaniyalarını təşviq edə bilər. Bütövlükdə, dövlət həm iqtisadi rifahın, həm də ətraf mühitin bütövlüyünün nəzarətçisi kimi çıxış edir, iqtisadi artımı ətraf mühitin mühafizəsi və sosial ədalətlə balanslaşdıran siyasət çərçivələri vasitəsilə davamlı gələcəyə keçidi istiqamətləndirir.

Yaşıl iqtisadiyyatın və davamlı inkişafın təşviqində dövlətin rolu uzunmüddətli iqtisadi rifah və sosial rifahı təmin etməklə yanaşı, aktual ekoloji problemlərin həllində mühüm əhəmiyyət kəsb edir. Hökumətlər davamlı təcrübələri təşviq edən, yaşıl texnologiyaları təşviq edən və iqtisadi fəaliyyətləri ekoloji məsuliyyətə yönəldən siyasətlərin, qaydaların və stimulların müəyyən edilməsində mühüm rol oynayır. Hökumətlər davamlılığa iqtisadi keçidi istiqamətləndirən siyasət çərçivələri yaradırlar. Buraya emissiyaların azaldılması hədəflərinin müəyyən edilməsi, bərpa olunan enerjinin mənimsənilməsinin təşviqi, tullantıların idarə edilməsi strategiyalarının həyata keçirilməsi və təbii ehtiyatların qorunması daxildir. Karbon qiymətləri, bərpa olunan enerji subsidiyaları və ekoloji tənzimləmələr kimi siyasət alətləri qeyri-davamlı təcrübələrlə bağlı xarici təsirləri daxililəşdirmək və daha yaşıl alternativləri stimullaşdırmaq üçün istifadə olunur.

Dövlətlər dövlət maliyyələşdirmə mexanizmləri və təşviqləri vasitəsilə yaşıl infrastruktura, tədqiqata investisiyaları asanlaşdırır. Bu, bərpa olunan enerji layihələri, dayanıqlı nəqliyyat sistemləri, yaşıl tikinti təşəbbüsləri və təmiz texnologiyalarda R&D(araşdırma və inkişaf etdirmə) üçün resursların ayrılmasını nəzərdə tutur. Hökumətlər həmçinin yaşıl iqtisadiyyatda özəl sektorun iştirakını stimullaşdıraraq davamlı təcrübələrlə məşğul olan biznes və fiziki şəxslərə qrantlar, vergi kreditləri və ya aşağı faizli kreditlər verə bilər. Qaydalar davamlılıq istiqamətində bazar davranışının formalaşdırılması üçün vacib alətlərdir. Hökumətlər çirklənməyə nəzarət, resursların idarə edilməsi, torpaqdan istifadənin planlaşdırılması və mühafizə səylərini tənzimləyən ətraf mühit qanunlarını qəbul edir və onları tətbiq edirlər. Tənzimləyici çərçivələr emissiyalar, suyun keyfiyyəti, enerji səmərəliliyi və tullantıların utilizasiyası üçün standartlar müəyyən edir, ekoloji bütövlüyü qoruyarkən sənayelər arasında uyğunluq və hesabatlılığı təmin edir. Dövlət davamlı istehlak və istehsal

modellərini təşviq etmək üçün bazar stimulları yarada bilər. Bura ekoloji etiketləmə sxemlərinin, yaşıl satınalma siyasətlərinin və ekoloji cəhətdən təmiz mal və xidmətləri təşviq edən məhsul standartlarının həyata keçirilməsi daxildir. Əlavə olaraq, bərpa olunan enerji, enerjiyə qənaət edən cihazlar və dayanıqlı kənd təsərrüfatı üçün subsidiyalar və ya vergi güzəştləri yaşıl məhsullara tələbi stimullaşdıra və davamlılığa doğru bazar transformasiyasını sürətləndirə bilər. Hökumətlər təhsil təşəbbüsləri, ictimai kampaniyalar və ictimaiyyətlə əlaqə proqramları vasitəsilə ictimaiyyətin məlumatlılığının artırılmasında və ekoloji savadlılığın artırılmasında mühüm rol oynayır. Məktəblərdə ekoloji maarifləndirməni təşviq etməklə, davamlı təcrübələr haqqında məlumat yaymaqla və vətəndaşları ətraf mühitə nəzarət fəaliyyətlərinə cəlb etməklə dövlət davamlılıq mədəniyyətini inkişaf etdirir və fərdlərə yaşıl iqtisadiyyata töhfə verən məlumatlı seçimlər etmək səlahiyyətini verir.

Davamlı inkişaf sərhədlər arasında əlaqələndirilmiş səylər tələb edən qlobal problemdir. Dövlətlər transsərhəd ekoloji problemlərin həllinə, davamlı ticarətin və investisiyanın təşviqinə, bilik və ən yaxşı təcrübələrin mübadiləsinə yönəlmiş sazişlər, müqavilələr və çoxtərəfli təşəbbüslər vasitəsilə beynəlxalq əməkdaşlıqda iştirak edirlər. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC) kimi forumlarda iştirak ümumi məqsədlərə doğru əməkdaşlığı asanlaşdırır və davamlılığa qlobal öhdəliyi gücləndirir. Hökumətlər məlumatların toplanması, ətraf mühit göstəriciləri və fəaliyyətin qiymətləndirilməsi vasitəsilə davamlılıq məqsədlərinə doğru irəliləyişə nəzarət edirlər. İstixana qazları emissiyaları, biomüxtəlifliyin itirilməsi və resurs istehlakı kimi əsas göstəriciləri izləməklə, siyasətçilər siyasətlərin və müdaxilələrin effektivliyini qiymətləndirə, inkişaf etdirilməsi üçün sahələri müəyyən edə və yaşıl iqtisadiyyata, davamlı inkişafa doğru davamlı tərəqqi təmin etmək üçün strategiyalara lazımi düzəlişlər edə bilərlər. Dövlət zəruri siyasət çərçivələri, investisiyalar, tənzimləmələr, bazar stimulları, təhsil, beynəlxalq əməkdaşlıq və monitorinq mexanizmlərini təmin etməklə yaşıl iqtisadiyyatın, davamlı inkişafın təşkilində çox şaxəli rol oynayır.

Ekoloji mülahizələri qərar qəbuletmə proseslərinə inteqrasiya etməklə, hökumətlər, biznes qurumları və vətəndaş cəmiyyəti arasında əməkdaşlığı inkişaf etdirməklə dövlət indiki və gələcək nəsillər üçün daha dayanıqlı və möhkəm gələcəyə doğru transformativ dəyişikliyi kataliz edə bilər.

## AZƏRBAYCANDA YAŞIL İQTİSADİYYATA KEÇİDİN NORMATİV HÜQUQİ BAZASI

**Firdovsi Şahbazov**
**iqtisad üzrə fəlsəfə doktoru**
**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu**
**firdovsi.shahbazov@gmail.com**

**Açar sözlər:** Azərbaycan, yaşıl iqtisadiyyat, yaşıl enerji, normativ hüquqi baza

Müasir dünyada yaşıl iqtisadiyyat gələcək nəsillərin tələbatlarının ödənilməsini təhlükə altına almamaqla, indiki nəslin tələbatlarının daha dolğun ödənilməsini ehtiva edən davamlı inkişafın təmin edilməsinin əsas paradiqması kimi çıxış edir. Təbii resursların effektiv istifadəsi, ətraf mühitin çirklənməsinin azaldılması, gəlirlərin və məşğulluğun artımı, inklüzivliyin və sosial ədalətin təmin edilməsi kimi cəhətlərlə xarakterizə olunan yaşıl iqtisadiyyat hidroenerji, bioenerji, geotermal enerji, günəş enerjisi və külək enerjisinin istehsalına əsaslanır. "Yaşıl iqtisadiyyat"ın artan əhəmiyyətini nəzərə alaraq, dövlətlər yaşıl fiskal fondlar vasitəsilə bu sahəyə böyük həcmlərdə investisiya yönəldirlər. Bununla həm ölkənin enerji təhlükəsizliyinə nail olunur, həm də ekoloji tarazlıq qorunub, saxlanılır.

Bütün dünyada olduğu kimi ölkəmizdə də yaşıl iqtisadiyyat quruculuğu dövlətin əsas sosial-iqtisadi hədəflərindən birinə çevrilib. Azərbaycan bu sahədə reallaşdırılan beynəlxalq tədbirlərdə aktiv iştirak etməklə, bu sahədə normativ hüquqi baza formalaşdırmaqla və bu sahəyə investisiyalar yönəltməklə yaşıl iqtisadiyyat quruculuğu və dayanıqlı inkişaf sahəsində inamla irəliyəyir. Təsadüfi deyil ki, Azərbaycan Yaşıl İnkişaf indeksində Asiya regionu üzrə 10-cu, BMT-nin "Dayanıqlı inkişaf -2022" hesabatında isə 163 ölkə arasında 50-ci yerdə qərarlaşıb. Ölkəmizin bu sahədə əldə etdiyi nailiyyətlər beynəlxalq təşkilatların da diqqətindən kənarda qalmamışdır. Azərbaycan digər sahələrdə olduğu kimi bu sahədə də beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edir. Bu ilin noyabr ayının 11-də ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı – COP29 növbəti belə tədbirlərdən olacaqdır.

Ölkə Prezidentinin sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ilə" elan olunub. Həmçinin işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur ölkə Prezidenti tərəfindən "yaşıl enerji" zonası elan edilib. Azərbaycan ötən dövr ərzində yaşıl iqtisadiyyat quruculuğu sahəsində bir sıra nailyyətlərə nail olub. 2019-cu illə müqaisədə 2023-cü ildə Azərbaycanda bərpa olunan enerji mənbələrinin ümumi istehsal gücü 31% artaraq, 1 700 MVt-a yaxınlaşıb. Su elektrik stansiyalarının imkanları son beş ildə 13,7% artaraq, 1 145 MV-dan 1 302 MVt-a yüksəlib.

"Yaşıl iqtisadiyyat"a dair tədqiqatlarda yaşıl iqtisadiyyat aşağı karbon emissiyasını, resurs səmərəliliyini və sosial-inklüziv inkişafın əsas götürüldüyü iqtisadiyyat kimi xarakterizə olnur. Vurgulanır ki, "Qəhvəyi iqtisadiyyat"dan fərqli olaraq "yaşıl iqtisadiyyat"da iqtisadi inkişafın təmin olunmasını nəzərdə bütün iqtisadi fəaliyyət növlərində aşağı karbon emissiyası və az tullantı yaradan texnologiyaların tətbiqi, təkmil enerji və resurs səmərəliliyi, biomüxtəlifliyin və ekosistemin qorunması təmin olunur. Qeyd olunanlara əsaslanaraq o qənaətə gəlinir ki, davamlı inkişaf konsepsiyası və onun həyata keçirilməsi ekoloji balansın təmin olunmasına imkan verən "yaşıl iqtisadiyyat" sayəsində mümkündür.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ətraf mühitin mühafizəsi ilə bağlı beynəlxalq konvensiyalara qoşulmuş, bu sahədə öz töhfəsini verməyə başlamışdır. "Azərbaycan Respublikası tərəfindən 1995-ci il yanvarın 10-da təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişmələri üzrə çərçivə konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 30 aprel tarixli 560 nömrəli Sərəncamı ilə İqlim Dəyişmələri üzrə Dövlət Komissiyası yaradılmışdır.

"Yaşıl iqtisadiyyat" quruculuğu sahəsində həyata keçirilən mühüm təbdirlərdən biri də ölkə Prezidentin 2020-ci il 22 sentyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin yaradılması olmuşdur. Bununla bu sahədə vahid dövlət siyasətinin həyata keçirilməsi təmin olunmuşdur.

Azərbaycanda "yaşıl iqtisadiyyat" quruculuğu sahəsində qarşıya qoyulan hədəflər formalaşdırılan normativ hüquqi bazada öz əksini tapmışdır. Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" strategiya sənədi ilə qəbul olunan beş Milli Prioritetdən biri təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi adlanır. Bu prioretetdə ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi nəzərdə tutulur. Həmçinin indiki və gələcək nəsillərin tələbatını dolğun ödəmək məqsədilə ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsi, elmi-texniki potensiala əsaslanmaqla iqtisadiyyatın bütün sahələrində alternativ və bərpa olunan enerji mənbələrinin ilkin istehlakda payının artırılması hədəflənir.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf

Strategiyası"nda da yaşıl iqtisadiyyat quruculuğu ilə bağlı bir sıra hədəflər öz əksini tapmışdır. Strategiyada elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2026-cı ilədək 24%-ə çatdırılması nəzərdə tutulur.

Ölkəmizdə həmçinin 2021-ci ildə "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası qanunu qəbul edilmiş, 2023-cü ildə "Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqram" təsdiqlənmişdir. Milli Proqramın məqsədi kimi Azərbaycan Respublikasında indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin, iqtisadi potensialın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2022-ci il 21 iyun tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının işğaldan azad olunan ərazilərdə 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə tədbirlər planı"nda yaşıl enerji sahəsində ən müxtəlif məsələləri əhatə edən 27 tədbirin reallaşdırılması nəzərdə tutulur Bütün bu tədbirlərin icrası sayəsində 2050-ci ilə qədər bu ərazilərin sıfır emissiya zonasına cevriləcəyi gözlənilir[5].

Qeyd edilən normativ hüquqi sənədlərlə yanaşı ölkəmiz tərəfindən bir sıra beynəlxalq şirkətlərlə "yaşıl enerji" istehsalı sahəsində müqavilələr imzalanmış, bu sahədə beynəlxalq əməkdaşlığın inkişafına nail olunmuşdur. Qarşıdakı dövrdə "yaşıl iqtisadiyyat" quruculuğunun sürətləndirilməsi sahəsində ölkəmizin qarşısında duran əsas vəzifələrdən biri bu sahəyə investisiyaların cəlbini stimullaşdırmaqdan ibarətdir. Bu vəzifənin reallaşdırılması ekosistem xidmətlərinə görə ödəniş, yaşıl bankçılıq, yaşıl səhm və istiqrazlar kimi maliyyə alətlərinin formalaşdırılması ilə "yaşıl investisiya"ların artımına nail olmağı tələb edir.

## AZAD EDİLƏN ƏRAZİLƏRDƏ "YAŞIL İQTİSADİYYATIN" FORMALAŞMASINA TURİZMİN TƏSİRİ

**Fizuli Zamanov**
**dosent**
**Hüseyn Hüseynzadə**
**magistrant**
**fizuliz@list.ru**
**huseyn20019@mail.ru**
**Lənkəran Dövlət Universiteti**

**Açar sözlər:** "Yaşıl turizm", "ağıllı şəhər", "ağıllı kənd"

2020-ci ildə 44-günlük müharibə nəticəsində 30 ilə yaxın davam edən işğal zülmündən şanlı Azərbaycan ordusu tərəfindən azad olmuş Qarabağ bu gün yenə də əvvəlki əzəmətini bərpa etdirir. Azad edilən ərazilər özünün flora və faunası, mətbəxi, tarixi mədəni abidələri, qədim qalaları, körpüləri, meşələri, bulaqları və s. görməli məkanları ilə turist cəlbediciliyində xüsusi əhəmiyyət daşıyır. Təbii ehtiyatlarla zəngin olan Qarabağ bölgəsi həm də müxtəlif növ ekstremal turizm, aqroturizm, yaşıl turizmin inkişafı üçün əlverişli təbii resurs potensialına sahibdir. Bütün bunlar turizmin inkişafı üçün geniş perspektivlər yaradır. Azad olunmuş ərazilərdə turizm infrastrukturunun qarşılıqlı əlaqə şəklində qurulması vacibdir. Yüksək texnoloji naliyyətlərin tətbiqi həyat fəaliyyətinin keyfiyyət və kəmiyyət tərəfdən yaxşılaşdırılmasına imkan verir. Beləki, həyat keyfiyyətlərinin yüksək olması turist cəlbediciliyinə təsir göstərir. Bu ərazilərdə quraşdırılan günəş batareyaları, külək enerjisi ucuz və davamlı enerji təminatını yaradır. Bu da turizm xidmətlərində qiymətə təsir göstərir.

Şuşa Azərbaycan turizminin simvol şəhərlərindən hesab edilir. Azərbaycan mədəniyyətinin incisi olan Şuşanın tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına geniş imkanlar verir. Kifayət qədər geniş rekreasiya imkanlarına malik olan Laçındakı İlıqsu müalicəvi əhəmiyyətli mineral bulağı, zəngin flora və faunaya sahibdir. Sahəsi 21 min hektardan çox olan Laçın yasaqlığı bu ərazilərin turizm imkanlarını genişləndirir. Hələ işğaldan əvvəl Kəlbəcərin İstisu qəsəbəsində Ümumittifaq əhəmiyyətli 2 böyük sanatoriya fəaliyyət göstərirdi. Hər il orada 50 min nəfər müalicə üçün müraciət edirdi. Buradakı "İstisu" mineral suları ilə insanın həm xarici, həm də daxili xəstəliklərini müalicə etmək mümkün idi. Hətta orada kurort və mineral sudoldurm zavodu da tikilmişdi. Bol sulu çayların olması su elektrik stansiyalarının qurulmasına imkan verir. Həmçinin yüksək dağlıq əraziyə sahib olması külək enerjisinin əldə edilməsinə də daim şərait yaradır. Mütəxəssislərin fikrincə, Kəlbəcərin relyefi dünyanın ən heyrətamiz kanatlarının inşasına, ən maraqlı turizm xidmətlərinin qurulmasına imkan verir. Burada gələcəkdə Qafqazın ən böyük turizm mərkəzini yaratmaq mümkündür. Araşdırmalarıma görə Qubadlının gözəl təbiətindən, oradakı Həkəri çayının imkanlarından turizmin inkişafı üçün istifadə etmək olar. Həmin ərazilərdə, istirahət mərkəzləri yaratmasına əlverişli imkanlar vardır ki, bu da yaşıl turizmi inkişaf etdirmək üçün şərait yardır. Qarabağ və ətraf ərazilərində bir sıra təbii qoruq və yasaqlıqların olması yaşıl turizmin inkişafını daha da əlverişli edir. Onlara misal olaraq **Qaragöl Dövlət Qoruğunu**, Bəşitçay Dövlət Qoruğu, Laçın **Dövlət Yasaqlığını**, **Qubadlı Yasaqlığını**, **Daşaltı Yasaqlığını** Arazboyu Dövlət Təbiət Yasaqlığını göstərmək olar.

Azad edilmiş ərazilərdə turizmin inkişaf etdirilməsi üçün dövlət tərəfindən böyük investisiya ayrılır və buraya özəl sektorun marağının artırılması üçün tədbirlər görülür. Dekabrın 14-də Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə Ağdamda "İşğaldan azad olunmuş ərazilərdə turizmin bərpası və inkişafı" mövzusunda I elmi-praktik konfransı keçirilib. Qarabağ və Şərqi Zəngəzur bölgəsində turizm potensialı və mövcud resurslardan səmərəli istifadə üsullarının, eləcə də sektorun sürətli inkişafı üçün təkliflərin müzakirə olunması məqsədilə təşkil olunan konfransda dövlət orqanlarının nümayəndələri, investorlar, turizm sənayesinin təmsilçiləri və turizm ixtisası üzrə təhsil alan tələbələr iştirak etmişdir.

Qarabağ və Şərqi Zəngəzurda 2021-ci ildən "ağıllı şəhər" və "ağıllı kənd layihələrinin icrasına başlanılıb. Bu layihələrə əsasən yüksək texnologiyalarla təchiz olunmuş kənd və şəhərlər qurulur. Bu texnologiyalar sayəsində təbiət əraziləri də genişləndirilir. Son nəticədə turistlərin bu ərazilərə marağı daha da artır.

## YAŞIL İQTİSADİYYATIN AZƏRBAYCANIN ENERJİ SƏNAYESİNİN İNKİŞAFINDA ROLU

**Fizuli Zamanov**
**dosent**
**Leyla Məmmədli**
**Lənkəran Dövlət Universiteti**
**fizuliz@list.ru**
**mammadli.leyla00@gmail.com**

**Açar sözlər:** yaşıl texnologiya, kapital, ekoloji infrastruktur, istehlakçı davranışı

Avropa üçün Ətraf Mühit prosesinin bir hissəsi olaraq, Azərbaycan 2017-ci ildə "Azərbaycanın Yaşıl İqtisadiyyat üzrə Batumi Təşəbbüsü (BIG-E) üzrə 2030-cu ilə qədər fəaliyyətləri" çərçivəsində yaşıl iqtisadiyyat tədbirləri şəklində könüllü öhdəlik götürüb:

- İnkişaf məqsədlərinin və Azərbaycanın milli dövlət proqramlarının həyata keçirilməsi;

- Xüsusilə, Azərbaycan təbii kapitalın ölçülməsi və qiymətləndirilməsini təkmilləşdirməyi öhdəsinə götürdü;

- Mənfi xarici təsirlərin daxililəşdirilməsini və təbii kapitaldan davamlı istifadəni təşviq etmək;

- Ekoloji infrastrukturun bir hissəsi kimi ekosistemləri və ekosistem xidmətlərini təkmilləşdirmək;

- İstehlakçı davranışını davamlı istehlak nümunələrinə doğru dəyişdirmək;

- Yaşıl və ədalətli ticarəti təşviq etmək;

- Zəruri insan kapitalını inkişaf etdirməklə yanaşı, yaşıl və layiqli iş yerlərinin artırılması;

- Xidmətlərə çıxış, sağlam həyat və rifahı yaxşılaşdırmaq;

- Davamlı inkişaf üçün ictimai iştirakçılığı və təhsili təşviq etmək.

İqlim dəyişiklikləri ilə mübarizə aparmaq üçün alternativ və bərpa olunan enerji növləri inkişaf etdirilməlidir. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin 5-ci bəndində ("Təmiz ətraf mühit" və "Yaşıl artım ölkəsi") iqlim dəyişikliyi və onunla mübarizə istiqamətində, eləcə də ölkəmizdə yaşıl enerji məkanı prinsiplərinə əsaslanan bərpa olunan enerjidən iqtisadiyyatın bütün sahələrində tətbiqi məsələləri öz əksini tapmışdır. Belə ki, ölkənin sosial-iqtisadi inkişafı üzrə prioritetlərə uyğun olaraq, cari və gələcək dövrdə bərpa olunan enerji mənbələrindən istifadəyə, "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsinə daha çox diqqət ayrılmaqdadır. Bu sahədə aparılan işlər çərçivəsində bərpa olunan enerji mənbələri potensialına malik ərazilərin müəyyənləşdirilməsi və prioritetləşdirilməsi istiqamətində ölkə üzrə kameral araşdırmalar davam etdirilmişdir. Milli Prioritetlər BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Belə ki, ölkəmizin bərpa olunan enerji mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dır. Bərpa olunan enerji mənbələrinin iqtisadi potensialı 27 QVt, o cümlədən, külək enerjisi üzrə 3 000 MVt, günəş enerjisi üzrə 23 000 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir.

Külək qurğularının və günəş batareyalarının quraşdırılması ətraf mühitdə hər hansı bir ekoloji pozuntu (çirklənmə) ilə müşayət olunmur. Aparılan meteroloji tədqiqatlar göstərir ki, Azərbaycan ərazisində, əsasən, Bakıda, Sumqayıtda, Abşeronda, Binədə, Maşdağada külək enerjisindən istifadə etmək məqsədəuyğundur. Külək enerjisindən istifadə olunmasının səmərəliliyini müəyyən etmək üçün ərazinin iqlim xüsusiyyətlərini öyrənmək lazımdır. Çünki külək maşınlarının səmərəliliyi bilavasitə quraşdırıldığı ərazinin külək rejimindən asılıdır. Ölkə ərazisinin 60%-nin dağlıq zonalardan ibarət olması ilə əlaqədar Azərbaycanın regionları mürəkkəb külək rejimlərinə malikdirlər. Belə ki, dağların ölkənin iqliminə və külək rejiminə təsiri böyükdür.

AMEA-nın Energetika İnstitutu Respublikanın Meteoroloji stansiyalarında toplanmış bütün flüger müşahidələri materiallarını qruplara ayırıb, rayonların landışaftlarına görə külək sürətlərinin paylanması rejimlərinin aşağıdakı tiplərini müəyyən etmişdir:

*A tipli rejim* - Abşeronda və Respublikanın şimal sərhədlərində Kürdilinə qədər Xəzərkənarı zonada olan yerlər üçün səciyyəvidir. Bu zonada küləyin orta illik sürəti 4m/san-dən böyük olur.

*B tipli rejim* - Kürkənarı düzənliyində olan yerlər üçün səciyyəvidir. Bu zonada küləyin orta illik sürəti 3m/san-dən 4m/san-dək olur.

*V tipli rejim* - Respublikanın dağ rayonları üçün səciyyəvidir. V zonasında küləyin orta illik sürəti 3m/san-dən kiçik olur. Ona görə də bu zona külək enerjisindən istifadə üçün

yararsız hesab edilir. Lakin burada onu da nəzərə almaq lazımdır ki, əsasən, V zonasını təşkil edən yüksək dağlıq ərazilərin iqlim xüsusiyyətləri hələ yaxşı öyrənilməmişdir.

Azərbaycanda böyük günəş enerjisi potensialı var. İl ərzində Azərbaycanda 260-280 günəşli gün olur, günəşli saatların miqdarı isə ildə 2400-3200 saat təşkil edir. Bu enerjidən tam istifadə hazırda istehsal olunan enerjinin 20%-nə qənaət etməyə imkan verər. Əsasən, Abşeron yarımadası, Xəzərin sahilyanı əraziləri və Naxçıvan Muxtar Respublikasında xüsusilə əlverişlidir.

## "YAŞIL" İQTİSADİYYATDA TURİZMİN İNKİŞAFI EKOLOJİ TƏHLÜKƏSİZLİYİN TƏMİNATI KİMİ

**Fizuli Zamanov**
**dosent**
**Səbuhi Mirzəyev**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**fizuliz@list.ru**
**sebuhimirzeyev071994@gamil.com**

**Açar sözlər:** "yaşıl" iqtisadiyyat, "dairəvi" iqtisadiyyat, tullantısız texnologiya

Dünya ölkələrin hasilat sahələrində yeraltı və yerüstü sərvətlərdən nizamsız istifadə, ətraf mühitin müvazinət vəziyyətinin pozulmasına və daha sonra özünün böhran, faciəli və kollaps mərhələlərinə gətirib çıxardır. "Yaşıl" iqtisadiyyat anlayışı, dövlətlərin davamlı inkişafını təmin etməklə yanaşı ətraf mühitə mənfi təsirləri azaltmaq hədəfi daşıyır.

Azərbaycanda "yaşıl" iqtisadiyyatla bağlı Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet "Təmiz ətraf mühit və "yaşıl artım ölkəsi" adlanır. Sənəddə ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsi ilə bağlı qarşıya konkret tapşırıqlar qoyulmuşdur. Ekoloji təhlükəsizliyin təmin edilməsi ətraf mühitin sağlamlaşdırılmasını tələb edir. Ətraf mühitin sağlamlaşdırılması isə məişət tullantılarının idarə edilməsi ilə bilavasitə bağlıdır. Bunun üçün dünya miqyasında tətbiq olunan "dairəvi" iqtisadiyyat formasından istifadə etmək daha əlverişlidir. Yəni məişət avadanlıqlarının təkrar istifadəsinin təmin edilməsi üçün təmirə yararlığının saxlanılması vacib şərtdir. Qəbul edilməlidir ki, sağlam ətraf mühit ekoloji turizmin inkişafının zəruri şərtidir. Bu məqsədlə tullantısız texnologiyaların yaradılması və tətbiqi ətraf mühitə atılan tullantıların həcminin azlamasına şərait yaradar. Stasionar mənbələrdən atılan tullantıların əsas hissəsi tikinti materialları 26,6%, neft-kimya sənayesi 16,9%, energetika 16,9%, qaz sənayesi 15,7%, neft sənayesi 7,3%, əlvan metallurgiya 4,7%, elektrotexnika sənayesi 1,8% müəssisələrinin payına düşür. Abşeron yarımadası, Sumqayıt, Gəncə, Şirvan, Mingəçevir şəhərləri ilə yanaşı, Kür – Araz ovalığı daha çox çirklənməyə məruz qalmışdır. Çirklənmə daha çox atmosfer, torpaq və su obyektləri əhatə edir.

Belə ki, Azərbaycan Respublikası Statistika Komitəsinin göstəricilərinə nəzər yetirsək görərik ki, 2022 – ci ildə respublikada yaranmış istehsal və istehlak tulantıların miqdarı 3 985 100 ton olmuşdur. Hər nəfərə düşən tullantı miqdarı 395 kq – dır. Təkrar emal edilmiş, zərəsizləşdirilmiş istehsal və istehlak tullantıların miqdarı 801 900 kq olmuşdur. Bu da ümumi tullantıların 20.1% - ni təşkil edir. Hərnəfərə düşən göstərici 79 k – dır. Tullantıların 337 100 tonu təhlükəli növə aiddir. Bu növün də 55 000 tonu zərəsizləşdirilmiş, 37 200 tonu isə təkrar emal edilmişdir.

Ümumilikdə, 2022-ci ildə respublikada ətraf mühitin mühafizəsinə çəkilən xərclər 231 193 600 manat təşkil etmişdir. Xərclərdən ətraf mühitin mühafizəsi tədbirlərinin keçirilməsi üçün 4.6 mln manat, qoruq və milli parkların saxlanmasına 7.6 mln manat, ətarf mühitin mühafizəsinə və təbii resurslardan səmərəli istifadə üçün əsas kapitala yönəldilmiş vəsait isə 160.5 mln manat təşkil etmişdir.
Qrafik: 1.




| İllər üzrə | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| Yaranmış istehsal və istehlak tullantıların miqdarı | 2896,1 | 3256,0 | 3452,3 | 3778,2 | 3985,1 |
| İstifadə edilmiş, zərərsizləşdirilmiş istehsal və istehlak tullantıların miqdarı | 848,3 | 713,4 | 792,1 | 1563,1 | 801,9 |

**Qeyd:** qrafik müəllif tərəfindən hazırlanmışdır.

“Yaşıl” iqtisaddiyyatda turizmin də əsas rolu, ekoloji çirklənmənin qarşısını almaq, təbii landşaft komplekslərini qorumaq və onların çoxalması üçün tədbirlər görmək, eyni zamanda ölkəyə turist cəlb etməklə həm ölkənin rəngarəngliyini tanıtdırmaq, həm də ölkəyə gəlir gətirmək məqsədi daşıyır. Gələcəkdə ölkə iqtisadiyyatında gəlir mənbəyində turizm payı çox olması, ölkənin sürətli inkişafına təsir edəcəkdir. Ölkənin davamlı inkişaf planlarında turizmin ön sıralarda durması 2023-cü ilin statistikasında özünü göstərmişdir. Belə ki, ötən il səyahət məqsədi ilə 2 086 443 nəfər turist ölkəmizə daxil olmuşdur. Əldə edilən gəlir 1.5 mlrd manat təşkil etmişdir.

# AZƏRBAYCANDA BANKLARIN KREDİT PORTFELİNİN TƏSNİFATI, DİVERSFİKASİYASI VƏ STRUKTURU

**Gülbəniz Əliyeva**
**dosent**
**Lalə Şahbazova**
**dissertant**
**Nübar Əhədova**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**gulbeniz_aliyeva@mail.ru**
**shahbazova1995@gmail.com**
**n.ahadova85@gmail.com**

**Açar sözlər:** bank, kredit, portfel, diversfikasiya

Kredit portfeli bankın fiziki və hüquqi şəxslərə verdiyi bütün kreditlər üzrə müəyyən tarixə hesablanmış borc qalığıdır. Kredit portfeli kredit təşkilatının aktivlərinin tərkib hissəsi olan hesabat göstəricilərindən biridir.

Bank hüquqi və fiziki şəxslərə kreditlər verməklə kredit portfelini formalaşdırır. Bankın kredit portfeli müəyyən bir tarix nəzərə alınmaqla aktiv kreditlər üzrə ödənilməmiş qalıqların məcmusudur.

Müştəri kredit portfeli onun tərkib hissəsidir və müəyyən tarixə bankın fiziki və hüquqi şəxslərlə apardığı kredit əməliyyatları üzrə borc qalığını təmsil edir. Ənənəvi bank fəaliyyəti növləri arasında kreditlərin verilməsi onların gəlirliliyini və mövcudluğunun sabitliyini təmin edən əsas əməliyyatdır. Bank fiziki və hüquqi şəxslərə kreditlər verməklə öz kredit portfelini formalaşdırır.

Kredit portfelinin müxtəlif təsnifatları mövcuddur ki, bunlar arasında portfelin ümumi və xalis bölünməsini misal göstərmək olar.

Kredit portfelinin aşağıdakı növləri vardır:

- Riskli neytral kredit portfeli. Bu növ nisbətən aşağı risk göstəriciləri ilə xarakterizə olunur, lakin eyni zamanda aşağı gəlirlilik göstəriciləri, riskli kredit portfeli isə artan gəlirlilik səviyyəsinə malikdir, eyni zamanda əhəmiyyətli risk səviyyəsinə malikdir.
- Optimal kredit portfeli. Optimal kredit portfeli bankın kredit və marketinq siyasətinin tərkibinə və strukturuna və onun strateji inkişaf planına ən çox uyğun gəlir.
- Balanslaşdırılmış kredit portfeli. Bu portfel növü isə öz strukturuna və maliyyə xüsusiyyətlərinə görə risk-gəlir dilemmasının ən effektiv həlli nöqtəsində dayanan bank kreditləri portfelidir. Optimal portfel heç də həmişə balanslaşdırılmış portfellə üst-üstə düşmür: bank öz fəaliyyətinin müəyyən mərhələlərində kredit portfelinin balansının zərərinə daha az gəlirli və daha böyük risklə kreditlər verə bilər. Bu, bir qayda olaraq, rəqabət mövqeyini gücləndirmək, bazarda yeni boşluqları fəth etmək, yeni müştəriləri cəlb etmək və s.

Yuxarıda qeyd edilən növlərdən başqa aşağıdakı növləri də qeyd etmək olar:

- baş bankın kredit portfeli və filialların kredit portfeli;
- hüquqi şəxslərə (biznes kredit portfeli) və fiziki şəxslərə verilən kreditlər portfeli (şəxsi kredit portfeli), habelə digər banklara verilmiş kreditlər portfeli (banklararası kredit portfeli);
- manat portfeli və xarici valyuta kreditləri portfeli və s.

Müştərinin kredit portfelinin faktiki vəziyyətinə bankın qəbul etdiyi idarəetmə sistemi təsir edir. Kredit portfelinin idarə edilməsi kredit riskinin qarşısının alınmasına və ya minimuma endirilməsinə yönəlmiş kreditləşmə prosesi zamanı bankın fəaliyyətinin təşkilidir. Kredit təşkilatının kredit portfelini idarə edərkən son məqsədləri, birincisi, aktiv

əməliyyatlardan mənfəət əldə etmək, ikincisi, bankın etibarlı və təhlükəsiz fəaliyyətini təmin etməkdir.

Kredit portfelinin idarə edilməsinin təşkilati strukturu səlahiyyətlərin məhdudlaşdırılması prinsipinə, yəni müxtəlif rütbəli menecerlərin kredit vermək səlahiyyətlərinin dəqiq bölüşdürülməsinə, kredit əməliyyatının şərtlərinin kreditin həcmindən asılı olaraq dəyişdirilməsinə, risk dərəcəsi və digər xüsusiyyətlər.

Bankın kredit portfelinin diversfikasiyası kreditləri müxtəlif kateqoriyalar üzrə borcalanlar, təminat şərtləri, girov növləri, kredit alətləri, risk dərəcəsi, regionlar, fəaliyyət növləri, habelə bir sıra digər amillər üzrə bölüşdürməklə kredit riskini minimuma endirmək üsuludur.

Diversifikasiya investorun heç bir aktivə pul qoymaması, lakin bir-biri ilə az əlaqəsi olan bir çox müxtəlif mübadilə alətlərindən portfel toplaması səbəbindən bu cür riskləri azaltmağa kömək edir.

Azərbaycanda bankların kredit portfelinin strukturu müxtəlif bankların iş strateji və prioritetlərinə, iqtisadiyyatın və maliyyə sektorunun müvafiq vəziyyətinə və digər bir çox məhdudiyyətlərə bağlı olaraq dəyişir. Azərbaycanda bankların kredit portfelinin strukturu bəzən məhdudiyyətlər, tərəfdaşların və müştərilərin iqtisadi və maliyyə vəziyyətinə və s. kimi bir çox xüsusiyyətlərə bağlı olur.

2019-2024-ci illər üzrə Azərbaycanda bankların kredit portfelinin strukturu aşağıdakı cədvəldə verilmişdir:

2019-2024-ci illər üzrə Azərbaycanda bankların kredit portfelinin strukturu

| Portfelin bölgüsü | 31.12.2019 | 31.12.2020 | 31.12.2021 | 31.12.2022 | 31.12.2023 | 31.01.2024 |
|---|---|---|---|---|---|---|
| Kredit portfeli, | 14 900,9 | 14 157,0 | 16 659,1 | 19 594,4 | 23183,0 | 23566,4 |
| *o cümlədən* | | | | | | |
| - biznes kreditləri | 9 031,6 | 8 478,3 | 9 740,0 | 10 855,1 | 12616,8 | 12912,9 |
| - istehlak kreditləri | 4 075,3 | 3 661,2 | 4 518,4 | 5 754,1 | 6937,0 | 7008,0 |
| - ipoteka kreditləri | 1 794,0 | 2 017,5 | 2 400,7 | 2 985,2 | 3629,2 | 3645,5 |

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı.

Kredit portfelinin bölgüsü prudensial metodologiyaya uyğun olaraq verilmişdir. Fiziki şəxs sahibkarlara verilmiş kreditlər təyinata uyğun olaraq biznes kreditləri kimi tənsifləşdirilir.

Bankların cəmi biznes kreditləri portfeli 2024-cü ilin yanvar ayında 2023-cü ilin dekabr ayı ilə müqayisədə 296,1 milyon manat artaraq 12 milyard 912,9 milyon manata çatıb.

2024-cü ilin yanvarında istehlak kreditləri portfeli isə 71 milyon manat artaraq 7 milyard 8 milyon manata, ipoteka kreditləri portfeli isə 16,3 milyon manat artaraq 3 milyard 645,5 milyon manata yüksəlib.

2024-cü ilin yanvarında bankların cəmi kredit portfeli 383,4 milyon manat artaraq 23 milyard 566,4 milyon manata çatıb.

Əhalinin banklara borcu olan istehlak və ipoteka kreditlərinin cəmi 10 milyard 653,5 milyon manata yüksəlib.

**Nəticə**

- Azərbaycan banklarının kredit portfelinin vəziyyəti, ölkədəki iqtisadi mühitə, maliyyə sektorunun durumuna, xarici və daxili iqtisadi proseslərə və digər bir çox faktora bağlı olaraq dəyişir.

- Müasir şəraitdə Azərbaycan banklarının kredit portfeli hədsiz dərəcədə böyükdür və kredit vermək üçün qayğıları yoxdur. Resursların həcmi istehlaka və iqtisadi sahələrə yetərincə kredit verməyə imkan yaradır.

- Bankların mövcud resursları ucuz kredit siyasətini həyata keçirməyə imkan verir, bahalı kreditlər üçün heç bir əsas yoxdur.

## YAŞIL İSTİQRAZLAR EKOSİSTEMİN DAVAMLI MALİYYƏLƏŞMƏSİNİN MƏNBƏYİ KİMİ

**Gülbəniz Əliyeva**
**dosent**
**Vasif Zamanov**
**Lənkəran Dövlət Universiteti**
**gulbeniz_aliyeva@mail.ru**
**vasifzamanov002@gmail.com**

**Açar sözlər:** Yaşıl istiqraz, vergi, investor, maliyyə

Son dövrlərdə ətraf mühitin qorunması, iqlim dəyişikliyinin azaldılması, davamlılığın təmini kimi məsələlər gündəmdədir. Bütün bu fayda və zərurətlərdən danışarkən bu prioritet məsələlərin təmin edilməsi üçün xərclərin lokal, faydaların isə qlobal xarakterli olduğu aşkardır. Bu səbəbdən xərc və fayda arasında düzgün balansın qurulması üçün ölkələr və beynəlxalq təşkilatlar həll yolları axtarışındadır.

Yaşıl istiqrazlar davamlılığı təşviq etmək, iqlimlə əlaqəli və ya digər növ xüsusi ekoloji layihələri dəstəkləmək və sosial və ətraf mühitin yaxşılaşdırılmasına yönəlmiş layihələri maliyyələşdirmək üçün nəzərdə tutulmuş istiqrazlardır. Başqa sözlə, yaşıl istiqraz ekoloji və iqlimlə bağlı layihələri dəstəkləmək üçün xüsusi olaraq hazırlanmış sabit gəlirli bir vasitədir. Yaşıl istiqrazlar enerji səmərəliliyi, ekoloji çirklənmə ilə mübarizə aparılması, davamlı kənd təsərrüfatı, ekosistemlərin qorunması, təmiz nəqliyyat, davamlı su idarəçiliyinə yönəlmiş layihələri maliyyələşdirir.

Bundan başqa, yaşıl istiqrazlar həmçinin ekoloji cəhətdən təmiz texnologiyaların genişləndirilməsi və iqlim dəyişikliyinin azaldılması istiqamətində emissiya edilir. Beynəlxalq Maliyyə Korporasiyasının "İnkişaf etməkdə olan yaşıl istiqrazlar bazarı Hesabatı"na görə, 2020-ci ilə qədər ümumilikdə 226 milyard dollar həcmində yaşıl istiqrazlar buraxılıb ki bu istiqrazların yarısı maliyyə institutları tərəfindən emissiya edilib. Dünya Bankı yaşıl istiqrazların əsas emitentidir. 2008-ci ildən bu yana 144 milyard dollar dəyərində 164 yaşıl istiqraz buraxmışdır. Bu istiqrazların təxminən üçdə biri bərpa olunan enerji mənbələri və enerji səmərəliliyi, 27 faizi təmiz nəqliyyat, 15 faiz kənd təsərrüfatı layihələrini dəstəkləmək üçün istifadə edilib.

İqlim Fondu Təşəbbüsünə görə, 2020-ci ildə yaşıl istiqrazların ümumi buraxılışı təxminən 270 milyard dollar dəyərində olub. 2015 -ci ildən bəri məcmu emissiya 1 trilyon dollardan çoxdur.

Həmçinin 2021-ci ildə Avropa Komissiyası "yaşıl" istiqrazların 12 milyard avroluq ilk emissiyasını həyata keçirib. Müddəti 2037-ci ilin 4 fevral tarixində başa çatacaq istiqrazlar üçün verilən ərizələrin məcmu həcmi 135 milyard avrodan artıqdır.

Yaşıl istiqrazlara investisiyalar sosial və ətraf mühitin qorunmasına yönəlmiş layihələri maliyyələşdirdiyi üçün şirkətlərin investorları, müştəriləri və ümumilikdə cəmiyyət üçün dəyər yaratmaq naminə bir vasitədir. Yaşıl istiqrazlar institusional investorların maliyyə gəlirlərindən imtina etmədən likvid alətlər vasitəsilə iqlim və ətraf mühitə uyğun sərmayələri dəstəkləmək potensialını artırır. O sabit gəlirli investisiyaların sosial dəyəri və şəffaflığınının artırılmasında da böyük əhəmiyyətə malikdir.

Lakin yaşıl istiqrazların faydaları tək bizneslər və bazar iştirakçıları ilə yekunlaşmır. Yaşıl istiqrazlar həmçinin ictimai sosial və ekoloji fayda gətirir. Belə ki, yaşıl istiqrazlar sayəsində maliyyələşməsi stimullaşan yaşıl layihələr ətraf mühitin qorunmasına da kömək edir. Dünya Bankının 2021-ci il üzrə yaşıl istiqrazların təsir hesabatına əsasən, Dünya Bankının yaşıl istiqrazlarına investisiyalar Meksikada istehlak edilən 1,5 milyon barel neft ekvivalentində karbon emissiyasının azalması üçün meşələrin bərpasını təmin edən, hər il 4,8 milyon ton təmizlənməmiş tullantı suyunun Çində çaylara tökülməsinin qarşısını alan layihələri və 2020-ci ildə Çilinin enerji istehlakına ekvivalent qlobal enerji qənaətini dəstəkləmişdir. Bütün aparılan tədqiqatlar yaşıl istiqrazların bazar iştirakçıları, cəmiyyət də daxil olmaqla geniş kütlələrə faydalarını vurğulayır. Bütün tərəflərin bu istiqrazlardan əldə etdiyi fayda və onun dərəcəsi müxtəlif olsa da bu maliyyə alətinin zəruri olduğu və ətraf mühitin qorunmasının dəstəklənməsində böyük potensiala malik olduğu aşkardır. Bu faydalar yaşıl iqtisadiyyatın təşviqində təşkilatdaxili davamlılıqdan ictimai faydaya qədər geniş fürsətlər dəhlizi yaradır. Bu

da sərmayə, əməkdaşlıq və innovasiya gücünü dərk etməklə yaşıl istiqrazların yenilikçi maliyyə aləti kimi ətraf mühitin qorunmasında istifadəsinin zəruriliyini ortaya qoyur.

Cədvəl 1.

Yaşıl istiqrazların Dünya ölkələri üzrə buraxılış həcmi (mlrd. dollar)




Qrafikə əsasən sözügedən dövr üçün ABŞ, Almaniya, Fransa və Çin yaşıl istiqraz buraxılışına görə ilk dördlükdə qərarlaşır.

Yaşıl istiqrazların fəaliyyət göstərmə prinsipinə gəldikdə, bu istiqrazlar hər hansı digər dövlət istiqrazları kimi işləyir. Borcalanlar bu qiymətli kağızları ekosistemin bərpası və ya çirklənmənin azaldılması kimi ətraf mühitə müsbət təsir göstərəcək layihələrin maliyyələşdirilməsini təmin etmək məqsədilə buraxırlar. Həmçinin istiqrazlara, əsasən, vergi güzəştləri və azadolmalarının tətbiq edilməsi bu maliyyə alətinin yaşıl layihələrin maliyyələşdirilməsində etibarlı maliyyələşdirmə mənbəyi olduğunu göstərir. Bu istiqrazlar adətən aktivlərlə əlaqələndirilir və emitent təşkilatın balans hesabatı ilə dəstəklənir, ona görə də onlar adətən emitentlərin digər borc öhdəlikləri ilə eyni kredit reytinqinə malik olurlar. Bu istiqrazların "yaşıl" olmasını şərtləndirən amillər müxtəlif cür tənzimlənsə də əsasən bu meyarlar Beynəlxalq Kapital Bazarları Assosiasiyasının müəyyən etdiyi "Yaşıl İstiqraz Prinsipləri"nə uyğunluq təşkil edir.

# AZƏRBAYCANDA "YAŞIL İNVESTİSİYA", ONUN ROLU VƏ ƏHƏMİYYƏTİ

**Gülbəniz Əliyeva**
**dosent**
**Zəka Mehrəliyev**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**Lənkəran Dövlət Universiteti nəzdində Sosial və Aqrar-Texnoloji kollec**
**gulbeniz_aliyeva@mail.ru**
**zekamehraliyev2@gmail.com**

**Açar sözlər:** "Yaşıl investisiya", "yaşıl iqtisadiyyat", ətraf mühit, yaşıl enerji

Yaşıl investisiya ekoloji davamlılıq prinsiplərinə əsaslanan investisiyalara aiddir. Bu cür investisiyalar ətraf mühitə təsirləri azaltmaq, təbii ehtiyatları qorumaq, təmiz enerjiyə keçidi təşviq etmək və ümumilikdə dayanıqlı gələcəyə səy göstərmək məqsədi daşıyır.

Yaşıl investisiyaların aşağıdakı mühüm rola malikdir:

- Ətraf mühitə təsirin azaldılması. Yaşıl investisiyalar istixana qazı emissiyalarının azaldılması və su və enerji istehlakının optimallaşdırılması kimi ətraf mühitə təsirlərin azaldılmasına yönəldilir. Bu, iqlim dəyişikliyi kimi böyük ekoloji problemlərin həllində mühüm rol oynayır.

- Təbii sərvətlərin mühafizəsi. Yaşıl investisiyalar təbii ehtiyatlardan davamlı istifadəni təşviq edir və təbii yaşayış mühitinin qorunmasına töhfə verir. Meşələrin mühafizəsi, su ehtiyatlarının idarə edilməsi və biomüxtəlifliyin qorunması kimi sahələrə investisiyalar qoyulur.

- Təmiz enerjiyə keçid. Yaşıl investisiyalar qalıq yanacağa əsaslanan enerji istehsalından uzaqlaşaraq bərpa olunan enerji mənbələrinə doğru irəliləməyi təşviq edir. Günəş, külək, hidroelektrik və geotermal kimi təmiz enerji mənbələrinə investisiyalar karbon izlərini azaltmağa və enerji keçidini sürətləndirməyə kömək edir.

- Davamlı inkişaf: Yaşıl investisiyalar cəmiyyətlərin sosial və iqtisadi inkişafını dəstəkləyərkən ekoloji davamlılığı təmin etmək məqsədi daşıyır. Buraya yaşıl infrastruktur layihələri, enerji səmərəliliyi təşəbbüsləri, tullantıların idarə edilməsi həlləri və s.

- Riskin azaldılması. Yaşıl investisiyalar ekoloji və sosial riskləri azaltmaqla maliyyə göstəricilərini yaxşılaşdıra bilər. İqlim dəyişikliyi, təbii ehtiyatların tükənməsi və sosial təzyiq kimi amillər ənənəvi investisiyalar üçün əhəmiyyətli risklər yarada bilər. Yaşıl investisiyalar bu cür riskləri azaltmaqla daha davamlı investisiya mühiti təmin edir.

Bu səbəblərdən yaşıl investisiyanın qlobal səviyyədə getdikcə daha çox əhəmiyyət kəsb etdiyi və investorlar, şirkətlər və dövlətlər arasında getdikcə geniş yayıldığı müşahidə edilir.

Azərbaycanda yaşıl investisiya son illərdə diqqət mərkəzindədir. Ölkənin enerji resurslarının şaxələndirilməsi, sürətli iqtisadi inkişafı dəstəkləmək və əslində çevik, dəyişən dünya iqtisadiyyatında iştirakın bir hissəsi kimi yaşıl enerjiyə ciddi maraq vardır.

Ölkəmizin bəzi regionları külək enerjisi potensialına malikdir. Bu və buna bənzər layihələr ölkədə yaşıl enerjidən istifadənin artırılmasına kömək edir.

Belə layihələr və sahələr təkcə yaşıl enerjidən istifadənin artırılması üçün deyil, həm də yeni iş yerlərinin yaradılması və texnologiyaların inkişafının təşviqi üçün zəmin yaradır. İqtisadi dəstək və təşviqlərlə həm ölkə daxilində, həm də xaricdə yaşıl investisiyaların həcmini artırmaq mümkündür. Bu layihələr və yataqlar sürətlə dəyişən dünya iqtisadiyyatının sürətli və müstəqil inkişafında mühüm rol oynayır.

Azərbaycan həm daxili, həm də beynəlxalq səviyyədə yaşıl enerjidən və yaşıl investisiyalardan istifadəni artırmaq üçün ciddi potensiala malikdir. Bu, ölkənin enerji səmərəliliyinin artırılması, sürətli iqtisadi inkişafının dəstəklənməsi və sürətlə dəyişən dünya iqtisadiyyatında mövqeyinin möhkəmləndirilməsi üçün mühüm addımdır.

Müasir dövrdə dünya əhalisinin sürətlə artması və onun qlobal istiləşməyə təsirləri yaşıl investisiyanı zəruri edir. Azərbaycanda da bu istiqamətdə bir sıra addımlar atılmağa başlamışdır. Yaşıl investisiyaları cəlb etmək üçün müxtəlif siyasətlər, təşviqlər və qaydalar tətbiq edilir. Əlavə tariflər, vergi güzəştləri və bərpa olunan enerji layihələri üçün subsidiyalar kimi təşəbbüslər hökumətin sektora dəstəyini nümayiş etdirir. Azərbaycanda "yaşıl iqtisadiyyat"a investisiya qoyuluşları aşağıda qeyd olunan sahələr üzrə həyata keçirilir.

- Alternativ enerji;
- Sənaye tullantılarının təkrar emalı;
- Nəqliyyat;
- Kənd təsərrüfatı.

Yaşıl investisiyaların dəstəklənməsi Azərbaycanın dünya miqyasında çevik dəyişən iqtisadiyyata uyğunlaşmasına kömək edir. Yenilənən enerji istifadəsi, sərfəli və müstəqil enerji təchizatını təmin edərək, ölkənin enerji təhlükəsizliyini də artırır. Bu, Azərbaycanın regional və beynəlxalq arenada daha aktiv rol oynamaq və sürətli dəyişən enerji mənzərəsində rəqabət qazanmaq üçün əhəmiyyətli bir imkan yaradır.

Nəticə olaraq qeyd etmək olar ki, Azərbaycanın yaşıl investisiyaları dəstəkləməsi, ölkənin sürətli iqtisadi inkişafını dəstəkləyərək, enerji təhlükəsizliyini artırmaq və dünya iqtisadiyyatında yerini möhkəmləndirmək üçün əhəmiyyətlidir. Bu sürətli dəyişən dünya iqtisadiyyatında mövqeyini qorumaq və inkişaf etdirmək istəyən Azərbaycan üçün müsbət bir addım olmaqdadır.

## "YAŞIL İQTİSADİYYAT" VƏ "DAYANIQLI ENERJİ" KONSEPSİYALARI İSTİQAMƏTİNDƏ AZƏRBAYCANIN BƏRPA OLUNAN ENERJİ RESURSLARININ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

**Könül Ağayeva**
**dosent**
**Həbib Həbibi**
**müəllim**
**Azərbaycan Memarlıq və İnşaat Universiteti**
**Lənkəran Dövlət Universitetinin nəzdində Sosial və Aqrar-Texnoloji Kollec**
**konul.aghayeva@mail.ru**
**habib130892@gmail.com**

**Açar sözlər:** Yaşıl iqtisadiyyat, yaşıl artım, dayanıqlı enerji, bərpa olunan enerji, təmiz ətraf mühit, Yaşıl Enerji Zonası

XVIII əsrdən etibarən avropda başlayan sənaye inqilabı kömür, neft və təbii qaz kimi enerji mənbələrinin istehlakını artırmışdır. Bütün bu enerji mənbələrinə olan ehtiyac XX əsrin ortalarından etibarən isə kəsgin sürətdə artaraq keçən 70 il ərzində qlobal istiləşməyə ən böyük təsir göstərən amil olmuşdur. Ümumilikdə 2023-cü ilin statistik məlumatlarına əsasən Yer kürəsinin qlobal orta səth temperaturu 1,18 °C qədər yüksəldiyi müşahidə olunmaqdadır ki, 2 °C - lik temperatur artışı Yer kürəsi əhalisinin yarısına qədərinin susuz qalması ilə nəticələnə bilər.

Qlobal iqlim dəyişikliyinin müşahidə olunduğu dövrümüzdə "yaşıl iqtisadiyyat" və "dayanıqlı enerji" konsepsiyaları daha ciddi müzakirə və tətbiq olunmağa başlanmışdır. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) müvafiq hesabatından görünür ki, son illərdə istismara verilmiş yeni elektrik enerjisi qoyuluş güclərinin böyük bir hissəsini bərpa olunan enerji təşkil edib və bunun 90 % - dən çoxu günəş və külək enerjisinin payına düşür. Enerji resursları ilə zəngin olmasına və dünyada enerji resurslarının ixracatçısı kimi tanınmasına baxmayaraq Azərbaycan Respublikası da özünün bərpa olunan enerji

mənbələrinin ümumi enerji istehsal payında artırılmasında maraqlıdır. Bu səbəbdən Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədinin 5-ci bəndində (“Təmiz ətraf mühit” və “Yaşıl artım ölkəsi”) iqlim dəyişikliyi və onunla mübarizə istiqamətində, eləcə də ölkəmizdə yaşıl enerji məkanı prinsiplərinə əsaslanan bərpa olunan enerjidən iqtisadiyyatın bütün sahələrində tətbiqi məsələləri öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin məlumatlarına əsasən Respublikamızın bərpaolunan enerji potensialı kifayət qədər böyükdür. Belə ki, Xəzərin Azərbaycan sektorunda təsdiq olunmuş potensial 157 qiqavata bərabərdir. Azərbaycanın 44 günlük Vətən müharibəsində işğaldan azad etdiyi ərazilərdə ilkin dəyərləndirmələrə əsasən külək, Günəş və hidroenerji stansiyalarının potensial 10 qiqavatdan çoxdur ki, bu da kifayət qədər yaxşı göstəricidir. Qarşıya qoyulan hədəf isə 2030-cu ilədək olan dövrü əhatə edən strateji mərhələdə ölkənin elektrik enerjisinin istehsal gücündə bərpaolunan enerji mənbələrinin payının 30 və yaxud 40%-ə çatdırılmasıdır. 2003-2022-ci illər ərzində ölkənin elektrik enerjisinin istehsal gücündə bərpa olunan enerji mənəblərinin payı aşağıdakı cədvəldəki kimi dəyişmişdir:

Elektrik stansiyalarının gücü, MVt

| **İllər** | İlin axırına elektrik stansiyalarının gücü | Bərpa olunan enerji stansiyalarının gücü | Bərpa olunan enerji istehsal gücünün elektrik stansiyalarının ümumi gücünə nisbəti |
|---|---|---|---|
| **2003** | 5.673,1 | 970,1 | 0,1710 |
| **2004** | 5.665,1 | 970,1 | 0,1712 |
| **2005** | 5.157,1 | 970,1 | 0,1881 |
| **2006** | 5.624,0 | 1025 | 0,1823 |
| **2007** | 5.728,0 | 1025 | 0,1789 |
| **2008** | 5.798,0 | 1025 | 0,1768 |
| **2009** | 6.389,7 | 988,7 | 0,1547 |
| **2010** | 6.397,7 | 996,7 | 0,1558 |
| **2011** | 6.350,0 | 998 | 0,1572 |
| **2012** | 6.420,0 | 1023 | 0,1593 |
| **2013** | 7.353,3 | 1123,2 | 0,1527 |
| **2014** | 7.353,4 | 1120 | 0,1523 |
| **2015** | 7.806,7 | 1153,9 | 0,1478 |
| **2016** | 7.910,4 | 1183,6 | 0,1496 |
| **2017** | 7.941,5 | 1193,5 | 0,1503 |
| **2018** | 7.828,9 | 1276,7 | 0,1631 |
| **2019** | 7.641,6 | 1291,3 | 0,1690 |
| **2020** | 7.621,6 | 1295,5 | 0,1700 |
| **2021** | 7.965,2 | 1315,8 | 0,1652 |
| **2022** | 7.976,9 | 1324,6 | 0,1661 |

Mənbə: https://www.stat.gov.az/source/balance_fuel/

Cədvəl məlumatlarından göründüyü kimi 2022-ci ilin statistik məlumatlarına əsasən bərpa olunan enerji mənbələri üzrə elektrik stansiyalarının gücü 1324,6 MVt təşkil edir və bu göstərici ümumi elektrik enerjisi istehsalı gücünün 16,61%-ni təşkil etməkdədir. 2022-ci məlumatlarına əsasən Azərbaycanda Elektrik stansiyalarının gücü 7976,9 MVt təşkil etmişdir. Bunun 83,39%-ni yanacaqla işləyən ES və İES-lər, 14,6%-ni SES, 0,8%-ni külək ES, 0,64%-ni Günəş ES-ı, 0,55%-ni bərk məişət tullantıları zavodu, 0,01%-ni bioqaz ES

təşkil etmişdir. Yanacaqla işləyən ES və İES-dən sonra ən böyük istehsal gücü olan SES-lər 2000-ci ildən 2022-ci ilə kimi 26,34%-ə qədər enerji istehsal gücünü artırmışdır. 2013-cü ildən 2022-ci ilə kimi külək ES-lərin istehsal gücü 23,7 dəfə, Günəş ES-lərin gücü 51,2 dəfə, bərk məişət tullantıları elektrik stansiyasının gücü isə 1,19 dəfə artmışdır.

Göründüyü kimi Azərbaycanda günəş, külək, bərk məişət tullantıları və bioqaz resurs mənbələri ilə işləyən elektrik stansiyaları kiçik istehsal gücünə malik olsalar da son illərdə günəş və külək resurs mənbələri ilə işləyən elektrik stansiyalarında daimi artım müşahidə olunur.

Dövlət tərəfindən işğaldan azad edilmiş ərazilərin bərpası prosesinin mühüm tərkib hissəsi kimi enerji infrastrukturunun qurulmasına və etibarlı enerji təhlükəsizliyinin təmin edilməsinə xüsusi əhəmiyyət verilir. Bu hədəfi reallaşdırmaq məqsədilə elektrik enerjisinin istehsal güclərinin bərpası çərçivəsində Laçında, Kəlbəcərdə və Suqovuşanda bərpa edilən 20.2 MVt gücündə 4 su elektrik stansiyası- “Güləbird” SES - 8 MVt, “Suqovuşan-1” KSES - 4,8 MVt, “Suqovuşan-2” KSES - 3,0 MVt, “Kəlbəcər-1” KSES - 4,4 MVt. inşa edilərək artıq istismara verilmişdir.

Apardığım tədqiqatdan belə bir nəticəyə gəlmək olar ki, Azərbaycanda bərpaolunan enerji istehsal gücündə əldə olunan artım müşahidə olunacaq qədər olsa da ölkə üzrə tələbin hələ ki, kiçik bir hissəsini ödəyir. 2000-2022-ci illər aralığında bərpa olunan enerjinin ümumi elektrik stansiyalarının enerji gücünə nisbətdə payı azca azalsa da 2015-ci ildən bəri bu göstərici artmaqdadır. Azərbaycan Respublikası Prezidentinin 3 may 2021-ci il tarixli 2620 nömrəli Sərəncamı ilə Yaponiyanın TEPSCO şirkəti ilə əməkdaşlığa başlanması və müvafiq Konsepsiya sənədinin hazırlanması və işğaldan azad edilmiş ərazilərdə Yaşıl Enerji Zonasının (YEZ) yaradılması bu istiqamətdə vacib addımlar kimi qəbul edilə bilər.

## MÜASİR DÖVRDƏ KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN MALİYYƏLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ

**Könül Ağayeva**
**dosent**
**Tural Vəliyev**
**magistrant**
**Azərbaycan Memarlıq və İnşaat Universiteti**
**Lənkəran Dövlət Universiteti**
**konul.aghayeva@mail.ru**
**tural.042aze@gmail.com**

**Açar sözlər:** Kiçik və orta sahibkarlıq, bank, kredit, kredit xətti, investisiya

Müasir dövrdə kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi iqtisadi inkişafın əsas istiqamətlərindən biri kimi qəbul edilir. Bu sahədə sahibkarlar üçün fəaliyyətlərinin genişlənməsi, yeni layihələrin həyata keçirilməsi, biznesin inkişaf etdirilməsi və s. kimi amillər üçün əlverişli maliyyələşmə təmin etmək mühüm rol oynayır. Müasir dövrdə kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi üçün bir neçə əsas aşağıdakı mexanizmlər mövcuddur:

- Bank kreditləri və kredit xətti. Kiçik və orta sahibkarlar üçün ən geniş yayılmış maliyyələşmə vasitələrindən biri bank kreditləri və kredit xətləridir. Banklar müştərilərinə iqtisadi fəaliyyətlərini genişləndirmək və ya yeni layihələrlə bağlı lazım olan məbləği təmin etmək üçün kredit və kredit xətləri təklif edir.
- Maliyyələşdirmə şirkətləri və sərmayə fondları. Müxtəlif maliyyələşdirmə şirkətləri və sərmayə fondları kiçik və orta sahibkarlara maliyyə dəstəyi təmin edir. Bu şirkətlər adətən risk kapitalı təmin edir və bu yeni və ya inkişaf etməkdə olan sahibkarlıq layihələri üçün ən uyğun ola bilir.

- Dövlət təminatları və dəstəkləri. Dövlət tərəfindən təqdim olunan kreditlər, qrantlar və vergi istisnaları kimi dəstək proqramları, kiçik və orta sahibkarların maliyyələşməsinə dəstək olur. Bu sahibkarların işlərinin genişləndirilməsinə və inkişaf etdirilməsinə yardım edə bilər.

- İcraat zəmanətləri və girovlar. Banklar və digər maliyyə institutları kiçik və orta sahibkarlara, ödənişlərini təmin etməkdə zərurət duyduqları halda kreditlərinin və ya digər borclarının ödənilməsinə dair icraat zəmanətləri və girovlar təklif edir.

- Müştəri təminatları və pulsuz depozitlər: Bəzən kiçik və orta sahibkarlar müştərilərinin ödənişlərini təmin etmək üçün bir neçə növ təminatı təklif edirlər. Bu kredit mütləqiyətləri, məhsulların girovları və s. kimi şəxsi və digər əmanətlər ola bilər.

- Alternativ maliyyələşdirmə platformaları. Son illərdə alternativ maliyyələşdirmə platformaları kiçik və orta sahibkarlara maliyyələşmə imkanları təmin etmək üçün inkişaf etmişdir. Bu platformalar adətən bir neçə insanın kiçik miqyaslı dəstəkləri ilə kiçik iş sahibkarlarına və ya layihələrinə maliyyə dəstəyi təklif edirlər.

- Mikromaliyyələşdirmə institutları: Kiçik və orta sahibkarlar üçün əlavə maliyyələşmə imkanları təmin etmək üçün mikromaliyyələşdirmə institutları da mövcuddur. Bu institutlar kiçik kreditlər, maraqlar və digər maliyyələşmə xidmətləri təklif edərək, ən məhdud maliyyə resurslarına sahib olan sahibkarlara kömək edirlər.

- İnvestiyalaşma. Kiçik və orta sahibkarlar işlərinin maliyyələşdirilməsi üçün investisiyalaşma yolu ilə də dəstək ala bilərlər. Bu, potensial investorlarla müqavilələr bağlamaq, layihə kapitalını artırmaq və ya səhmlərin satışı yolu ilə maliyyələşməni təmin etmək kimi formalar ala bilər.

Bu mexanizmlər kiçik və orta sahibkarların maliyyələşməsinə dəstək olmaq üçün mövcud olan sadəcə bəzi nümunələrdir.

Fikrimizcə hər bir sahibkarlıq təcrübəsinə görə ən uyğun maliyyələşmə yolunu seçmək məqsədəuyğun olardı.

Kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi problemləri aşağıdakı müxtəlif amillərdən yarana bilər:

- Kredit əldə etmək. Kiçik və orta bizneslər çox vaxt iri korporativ şirkətlər kimi asanlıqla kredit əldə edə bilmirlər. Kredit müraciətlərini qiymətləndirərkən banklar və maliyyə institutları çox vaxt kiçik biznesi riskli hesab edir və buna görə də kredit verməkdən çəkinirlər.

- Zəmanətin olmaması. Banklar kredit verərkən çox vaxt girov tələb edirlər. Lakin kiçik bizneslər çox vaxt kifayət qədər aktiv və ya zəmanət verə bilmirlər. Bu da kredit götürməyi çətinləşdirir.

- Yüksək faiz dərəcələri. Kiçik bizneslər kredit ala bilsələr belə, tez-tez daha yüksək faiz dərəcələri ilə üzləşirlər. Bu biznesin mənfəət marjasını azalda bilər və ödənişdə çətinliklər yarada bilər.

- Pul vəsaitlərinin hərəkəti problemləri. Kiçik müəssisələr tez-tez pul vəsaitlərinin hərəkəti ilə bağlı problemlərlə qarşılaşa bilərlər. Xüsusilə biznesin inkişafı və ya mövsümi tərəddüdlər kimi vəziyyətlərdə pul vəsaitlərinin hərəkətinin idarə edilməsi çətinləşə bilər və maliyyələşdirmə tələb oluna bilər.

- Maliyyə planlaşdırmasının olmaması. Bir çox kiçik biznes sahiblərinin maliyyə planlaşdırması və idarə edilməsi ilə bağlı kifayət qədər təcrübəsi yoxdur. Bu, effektiv maliyyə strategiyasının yaradılmasını çətinləşdirir.

- Alternativ maliyyələşdirmə mənbələrinin olmaması. Ənənəvi bank kreditlərindən başqa kiçik biznes üçün uyğun maliyyə mənbələrinin olmaması da problemdir. Buna görə də, sahibkarlar alternativ maliyyə mənbələri axtarmalı ola bilər, lakin bu mənbələr çox vaxt daha baha başa gəlir.

Fikrimizcə bu problemlərin öhdəsindən gəlmək üçün kiçik və orta sahibkarlar öz maliyyə idarəçiliyinə daha çox diqqət yetirməli, pul vəsaitlərinin hərəkətini effektiv idarə etməli, kredit əldə etmək üçün kreativ həll yolları axtarmalı və müvafiq maliyyə

planlaşdırma strategiyaları hazırlamalıdırlar. Müəssisələrin maliyyə sağlamlığını yaxşılaşdırmaq üçün məsləhət almaq və ya biznes maliyyəsi sahəsində ixtisaslaşmış mütəxəssislərə müraciət etmək də faydalı ola bilər.

## YAŞIL MARKETİNQLƏ BAĞLI REKLAMLARIN BREND İMİCİNƏ TƏSİRİ

**Leyla Yusubzadə**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**leylayusubzada@gmail.com**

İnsan fəaliyyətinin ətraf mühitə mənfi təsirləri hər keçən gün narahatlıq doğurur. Dünyanın əksər dövlətləri bəşəriyyətin ətraf mühitə mənfi təsirlərini minimuma endirməyə çalışır. İndiki vaxtda müəssisələr təbii mühitlə yaxından maraqlanan cəmiyyətin yeni qayğılarını anlamağa, ona uyğun davranmağa və ekoloji problemləri təşkilati fəaliyyətə inteqrasiya etməyə çalışırlar. Buna görə də, onlar yaşıl marketinqlə bağlı tədqiqatlar aparırlar və tədris proqramlarına "yaşıl marketinq" və "ekoloji marketinq" kimi terminləri daxil edirlər. Yaşıl marketinqin tam tərifinin əsası ondan ibarətdir ki, yaşıl marketinq yaşıl məhsulun hazırlanmasından tutmuş reklam kampaniyalarına qədər bütün prosesi əhatə edir. Yaşıl marketinqin sosial marketinq sahəsinin tərkib hissəsidir. Əsas hədəf sahəsi cəmiyyətin ehtiyaclarını prioritetləşdirmək və müştəri məmnuniyyətini yaratmağı hədəfləməkdir.

Yaşıl marketinqin niyə vacib olması son dərəcə sadədir və iqtisadiyyatın əsas tərifinə əsaslanır. İqtisadiyyat insanların qeyri-məhdud istəklərini yerinə yetirmək üçün məhdud resurslarından necə istifadə etdiyini öyrənir. Müəssisələr məhdud təbii sərvətlərlə üzləşdikləri üçün qeyri-məhdud tələbləri ödəmək üçün alternativ və yeni üsullar istehsal etməlidirlər.

Bu vəziyyətin nəticəsi olaraq, sosial məsuliyyət və davamlılıq anlayışı ilə istehsal olunan xidmətlər və məhsullar üçün artan bazarı təmsil edən yaşıl marketinq anlayışı yaranmışdır.
Yaşıl marketinq anlayışı 3 mərhələdən ibarətdir.

- *Ekoloji marketinq:* 1970-ci illərin əvvəllərində geniş yayılmış ekoloji və sosial narahatlıqlar ekoloji marketinqin yaranması üçün əsas olmuşdur. Marketinq baxımından sözügedən dövrün ən ciddi məsələsi ətraf mühitlə bağlı hüquqi tənzimləmələrin tətbiqidir.
- *Ətraf mühit marketinqi:* Yaşıl marketinqin ikinci mərhələsi kimi ekoloji yaşıl marketinq 1980-ci illərin ikinci yarısında ortaya çıxdı. 1985-ci ildə ozon təbəqəsinin inceldiyinin anlaşılması, 1986-cı ildə Çernobıl partlayışı və digər ekoloji fəlakətlərin mediada yer almağa başlaması cəmiyyətin ətraf mühitlə bağlı məlumatlılığını artırmış, ətraf mühitin qorunması müvafiq dövrdə istehlakçılar üçün tendensiyaya çevrilmişdir.
- *Davamlı marketinq:* 1990-cı illərdə ilk dəfə olaraq davamlı yaşıl marketinq anlayışı ortaya çıxdı və davamlılığa iqtisadi səmərəlilikdən daha çox əhəmiyyət verilməyə başladı. Marketinq müştərilərin istək və ehtiyaclarına uyğun olaraq daha yüksək dəyər və qiymət verən məhsullar inkişaf etdirərək və onları müəyyən qruplara effektiv şəkildə paylayaraq müştərilərlə sərfəli və davamlı əlaqələr qurmağa təşviq edir. Buna görə də, əgər marketinq müştəri ehtiyaclarına cavab vermək və müştərilərlə qazanclı əlaqələr yaratmaqdan ibarətdirsə, davamlı marketinq müştərilərlə davamlı əlaqələr yaratmaq, təbii və sosial mühitdə müvafiq əlaqəni saxlamaqdan ibarətdir

Yaşıl marketinq anlayışının inkişafı ilə birlikdə müəssisələr üçün brend imicinin formalaşdırılmasına təsir edəcək "yaşıl reklam" konsepsiyasıda yaranmağa başlamışdır. Yaşıl reklam anlayışının tərifi: Məhsulları, xidmətləri və ya biznesləri ətraf mühitə vurduğu ziyanı minumuma endirməyə və ya azaltmağa kömək etməyə çalışan reklam təşviqləri yaşıl reklamlar adlandırılır.

Yaşıl reklam yaşıl məhsulların alınmasını təşviq edir və müştərilərə məhsulların ekoloji faydalarını təqdim edir. Başqa sözlə, yaşıl reklamlar istehlakçılara təsir etmək üçün onları ekoloji cəhətdən təmiz məhsullar almağa təşviq etmək və davranışlarını ətraf mühitə müsbət təsirlərə yönəltmək üçün hazırlanır.

Yaşıl brend konsepsiyası ətraf mühitə mənfi təsirləri azaltmaq və istehlakçılara ətraf mühitlə bağlı müsbət təsir göstərməklə onların narahatlıqlarını aradan qaldırmaqda brend atributlarından istifadə etməkdir.

Ekoloji cəhətdən təmiz bir yanaşmanı mənimsəyən, təbii ehtiyatların davamlılığı ilə bağlı hər cür fəaliyyətə dəstək verən və təbiətin tarazlığının qorunmasına əhəmiyyət verən müəsissələr yaşıl brendlər hesab olunur. Yaşıl brend anlayışı brend imici anlayışı ilə əlaqələndirilmişdir. Bir markanın rəqiblərindən fərqlənməsi üçün keyfiyyətin əsas olduğu vurğulanır. "Brend imici" istehlakçılara brendin zehni mənzərəsini inkişaf etdirməyə və onun təklif etdiyi dəyərlərlə əlaqə yaratmağa kömək edən müəyyən xüsusiyyətlərə malik simvolik mənalar daşıyır.

Son illərdə yaşıl marketinqin brend imicinə təsirini nəzərə alaraq bir çox dünya brendləri yaşıl reklamlardan istifadə edərək rəqabətdə irəli keçməyə və istehlakçı loyallığı əldə etməyə çalışır.

Bu brendlərə nümunə olaraq aşağıdakıları göstərə bilərik. Türkiyədə fəaliyyət göstərən "Qaranti Bank"-ının "Çevreci bonus" kartını nümunə göstərmək mümkündür. İstehlakçılar məhsuldan istifadə etdikləri bank əməliyyatlarında bonusların kiçik bir hissəsi təbiəti qorumaqla bağlı fonda köçürülmüşdür və eyni zamanda məhsul istifadəçilərinin bütün sənəd proresində təkrar emal edilə bilən kağızlardan istifadə edilmişdir. "Selpak" markasının təbiətdə "bioloji parçalana bilən qablaşdırma"-dan istifadə edərək hazırladığı salfet məhsulunuda nümunə göstərə bilərik. Bu məhsulun hazırlanmasında məqsəd standart plastik qablaşdırmanın materialın xüsusiyyətlərindən asılı olaraq təbiətdə tamamilə yox olması üçün 100 ilə 1000 il arasında vaxt lazım olduğu halda; Selpak Dəsmal və Selpak Tualet Kağızı paketlərindəki materialların təbiətdə tamamilə yox olması üçün cəmi 1 ildən 5 ilə qədər vaxt lazım olduğu bildirilmişdir.

## YAŞIL LOGİSTİKA VƏ YAŞIL TƏCHİZAT ZƏNCİRİNİN İDARƏ EDİLMƏSİNİN İQTİSADİ FAYDASI VƏ TƏTBİQİ İSTİQAMƏTLƏRİ

**Murad Məmmədov**
**Müəllim**
**Lənkəran Dövlət Universiteti**
**muradmemmedov817@mail.ru**

**Açar sözlər:** yaşıl logistika, yaşıl təchizat zənciri, yaşıl nəqliyyat, yaşıl qablaşdırma

Yaşıl logistika ətraf mühitə zərər vermədən göstərilən logistik xidmətləri özündə əks etdirir. Ənənəvi logistika davamlılığa və ya ekoloji cəhətdən təmiz tədbirlərə o qədər də diqqət yetirmir, çoxlu enerji istifadə edir, tullantılar istehsal edir və böyük karbon emissiyası həyata keçirir. Bu gün yaşıl logistika, hər bir müəssisə tərəfindən həyata keçirilməli olan çox vacib bir anlayışdır. Yaşıl logistika müəssisənin Korporativ Sosial Məsuliyyət təşəbbüsü kimi çıxış edə və onu rəqiblərindən fərqləndirə bilər. Dünyadakı müəssisələr indi yaşıl

logistikanın təkcə ətraf mühit üçün deyil, həm də bizneslərinin inkişafı üçün əhəmiyyətini dərk edirlər.

Ətraf mühitimiz iqlim dəyişikliyi və resursların tükənməsi kimi problemlərə qarşı həssas olduğundan, yaşıl logistika və yaşıl təchizat zəncirinin idarə edilməsi təcrübələrinin həyata keçirilməsi çox vacibdir. Yaşıl logistikanın mənimsənilməsi planetimizin təhlükəsizliyini qoruyarkən gündəlik əməliyyatların da minimum tullantı və səmərəli həyata keçməsini təmin edir. Yaşıl logistika və təchizat zəncirinin idarə edilməsi istehsal nöqtəsindən istehlak nöqtəsinə qədər bütün proseslərdə ekoloji cəhətdən təmiz fəaliyyətin həyata keçirilməsini əhatə edir.

Yaşıl logistikanın iqtisadi faydalarına nəzər yetirdikdə:

• yaşıl logistika vasitəsilə resurslardan optimal istifadə olunur, resurslardan həddindən artıq istifadənin və ətraf mühitə dəyən zərərin qarşısını almaqla təbii ehtiyatların qorunması təmin edilir;

• səmərəliliyi artıraraq enerji istifadəsini və tullantı istehsalını azaltmaqla xərclərə qənaət etməyə kömək edir;

• ekoloji siyasətə riayət etməklə cərimələrlə və hüquqi problemlərlə üzləşmənin qarşısını alır;

• ətraf mühitə qarşı şüurlu və ekoloji cəhətdən təmiz fəaliyyəti sevən istehlakçıları cəlb etməyə kömək edərək loyallığı təmin edir və müəsisənin nüfuzunu artırır;

• resursların tükənməsi və təchizat zəncirinin idarə edilməsində fasilələri aradan qaldırmağa və riskləri azaltmağa yardımçı olur;

• yaşıl logistika yeni ideya və texnologiyalara yol açdığı üçün şirkətin bazarda rəqabət qabiliyyətini artırır;

• ətraf mühitlə bağlı problemlər artdıqca, bizneslərin uzunmüddətli perspektivdə daimi və uğurlu olma ehtimalını daha da yüksəldir;

• Yaşıl logistika zərərli karbon emissiyalarını azaltmağa kömək edir, bu da nəqliyyatın ətraf mühitə mənfi təsirini azaldır.

Beləliklə yaşıl logistika bütün müəssisələr, o cümlədən logistika və təchizat idarəçiliyi üçün çox vacib rol oynayır, çünki yaşıl logistika təkcə ətraf mühitin qorunmasını təmin etmir, həm də bizneslərə iqtisadi fayda verir. Yaşıl logistikaya, logistika sənayesində ekoloji cəhətdən təmiz yaşıl nəqliyyat, yaşıl təchizat zəncirinin idarə edilməsi, yaşıl qablaşdırma və yaşıl anbar mexanizmlərini kompleks tətbiq etməklə nail olmaq olar.

- Yaşıl nəqliyyatın tətbiqi məsafə və vaxta qənaət etməklə daşıma marşrutunun qısaldılmasına, GPS və marşrutun optimallaşdırılması proqramlarından istifadə etməklə sürətli və səmərəli yanacaq sərf edən marşrutları tapmağa imkan verir. Yanacağa qənaət edən, karbon emissiyalarını azaldacaq elektrik və ya hibrid avtomobillərdən istifadə, eyni zamanda nəqliyyat vasitələrinə müntəzəm texniki qulluq olunması daha az yanacaq sərf etməyə kömək edir və tullantıları azaldır.

- Yaşıl təchizat zəncirinin idarə edilməsi tullantıları azaltmaqla resursların həddindən artıq istifadəsinin azaldılmasını, təkrar istifadəsini və təkrar emalını təşviq edib tullantısız bir prosesə çevirir. Enerji istehlakını optimallaşdırmaqla daha az enerji sərf edən maşın, nəqliyyat vasitələri və texnologiyalardan istifadə edilməsini təmin edir. Günəş, külək və ya su elektrik enerjisi kimi bərpa olunan mənbələrdən istifadə edilməsi, ətraf mühitə mənfi təsir edən resursların istifadəsini azaldır.

- Yaşıl qablaşdırma texnologiyası bitki əsaslı, təkrar emal edilən və bioloji parçalana bilən ekoloji cəhətdən təmiz qablaşdırma materiallarından istifadə etməyi eyni zamanda qablaşdırma üçün bioloji parçalanmayan plastik və digər materiallardan istifadə etməməyi tələb edir. Ekoloji cəhətdən təmiz qablaşdırma ümumi tullantıları azaldır və resursları qoruyur. Yaşıl qablaşdırma ətraf mühitin çirklənməsinin qarşısını alır və təkrar emal proseslərini dəstəkləyir.

- Yaşıl anbar texnologiyası lazımsız əməliyyatları və karbon emissiyalarını azaldan anbar saxlama sahəsi yaratmağa imkan yaradır. Yaşıl anbar sahəsi LED işıqlandırma, enerjiyə qənaət edən sistemlərin istifadəsi və istifadə edilmədikdə işıqların və mexanizmlərin söndürülməsi ilə enerji səmərəliliyinə töhfə verir və iqtisadi faydanı artırır.

Yaşıl logistikanın qarşılaşdığı əsas problemlər logistika əməliyyatlarında ənənəvi yanacaqların geniş istifadəsidir. Bu, təkcə ekoloji təhdidlər deyil, həm də yanacağın qiymətlərinin dəyişməsi səbəbindən iqtisadi təhlükələr yaradır. Problemin həlli üçün biodizel, sıxılmış təbii qaz və s. kimi alternativ yanacaqlardan və elektrikli nəqliyyat vasitələrindən istifadə olunması məqsədəuyğundur. Anbarlarda və doldurma məntəqələrində isə günəş, külək enerjisi və s. kimi bərpa olunan enerji mənbələrindən istifadə edilməsi iqtisadi faydalı hesab edilir.

## CƏNUBİ QAFQAZ REGİONUNUN YAŞIL İQTİSADİYYATDA ƏHƏMİYYƏTİNİN ARTIRILMASI STRATEGİYASI

**Natiq Qarayev**
**dosent**
**Fuad Bayramov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**Odlar Yurdu Universiteti**
**natiq_qarayev@rambler.ru**
**fuadbayramovcbc@gmail.com**

İqtisadi sistemlərin yaxınlaşması nəzəriyyəsi 1950-ci illərin ortalarında - 1960-cı illərin əvvəllərində formalaşmışdır. Bir tərəfdən SSRİ-nin planlı iqtisadiyyatının elm, texnika, təhsil, hərbi güc və sosial təminatlar sahəsində əldə etdiyi nailiyyətlərdən, ABŞ-da, Qərbi Avropada və Yaponiya rifah dövləti çərçivəsində sinfi ziddiyyətləri hamarlaşdırmağa imkan verən müxtəlif qarışıq iqtisadiyyat modelləri ilə - digəri ilə. XXI əsrin iqtisadiyyatında "konvergensiya" termininin özü bir-birinə nüfuz etmə prosesini, müxtəlif iqtisadi sistemlərin, onların ayrı-ayrı institut və mexanizmlərinin, müxtəlif ölkələrin əsas makroiqtisadi göstəricilərinin yaxınlaşmasını ifadə edir.

Cənubi Qafqaz ölkələri əlverişli tarixi şəraitə, coğrafi mövqeyə, geosiyasi və iqtisadi maraqların üst-üstə düşməsinə və əsasən oxşar sosial-iqtisadi problemlərə baxmayaraq, bölünür. Regional inteqrasiya prosesləri ləng, çoxistiqamətli və təbii xarakter daşıyır. Regiondaxili siyasi və sosial fikir ayrılıqları, eləcə də qeyri-regional oyunçuların Cənubi Qafqazın ictimai-siyasi vəziyyətinə müdaxiləsi səbəbindən regional inteqrasiyanın tempi səngiyir. Xüsusilə Azərbaycan və Ermənistan arasında imzalanmamış sülh müqaviləsi ilə bağlı regionda qeyri-sabitlik Cənubi Qafqazın iqtisadi inkişafına mane olan əsas amildir. Azərbaycan və Ermənistan arasında iqtisadi və sosial əlaqələrin olmaması səbəbindən regional əməkdaşlıq iki formata malikdir: Bakı-Tbilisi; İrəvan-Tbilisi.

Azərbaycan iqtisadiyyatının həcmi qonşularının milli iqtisadiyyatını xeyli üstələyir. 2023-cü ildə Azərbaycanın ÜDM-i Gürcüstan və Ermənistanın ÜDM-dən 3 dəfə çox olub və 78,72 milyard ABŞ dollarına bərabər olub. Onu da anlamaq lazımdır ki, Ermənistan və Gürcüstandan fərqli olaraq Azərbaycanda müsbət ticarət saldosu var. Eyni zamanda, anlamaq lazımdır ki, enerji resursları Azərbaycanın ÜDM-in strukturunda mühüm yer tutur. Digər mühüm fərq Azərbaycanın beynəlxalq valyuta ehtiyatlarıdır ki, bu da Gürcüstanı 13 dəfə, Ermənistanı isə 16 dəfə üstələyir və 66 milyard ABŞ dollarına bərabərdir.

İqtisadi sistemlərin yaxınlaşması nəzəriyyəsi nöqteyi-nəzərindən, ilk növbədə, əsas makroiqtisadi göstəriciləri bir araya gətirmək lazımdır ki, bunlardan da ən mühümü ÜDM-in adambaşına AQP-yə nisbətidir. Yaxınlaşma strategiyası iqtisadiyyatın təkrar sektorunda

istehsal potensialının artırılması, relyef və yerli təbii sərvətlərdən istifadə etməklə, region ölkələrinin özəl sektorlarının nümayəndələri arasında əlaqələrin məqsədyönlü şəkildə artırılması yolu ilə regional səviyyədə idxalı əvəz etmək istəyidir. Bununla belə, Cənubi Qafqaz regionu ənənəvi təşviq mexanizmləri ilə yanaşı, həm də strateji kəsişmə kimi öz rolunu artırmaq potensialına malikdir.

İlk növbədə, Azərbaycan, Gürcüstan və Ermənistan regionun ötürmə qabiliyyətini daha da artırmaq üçün səylərini birləşdirməlidir. Cənubi Qafqazda bir sıra nəqliyyat və logistika layihələri gündəmdədir. Onları iki şərti qrupa bölmək olar: şaquli olaraq uzanan meridian və üfüqi istiqamətdə uzanan enlik. Birinci kateqoriyaya Şimal-Cənub və Fars körfəzi-Qara dəniz kimi beynəlxalq nəqliyyat marşrutlarının yaradılması planları daxildir. Məsələn, "Şimal-Cənub" layihəsi Azərbaycan, Xəzər dənizi və Mərkəzi Asiya dövlətlərinin ərazisindən keçməklə Rusiyanı İran vasitəsilə Hindistanla birləşdirmək məqsədi daşıyır. Lakin İran və Rusiya ilə dəmir yolu əlaqəsinin olmaması, eləcə də yol hissəsinin hazır olmaması səbəbindən Ermənistan bu layihədən kənarda qalıb. İkinci kateqoriyaya "Orta Dəhliz" və "Zəngəzur Dəhlizi" layihələri daxildir. Onlardan birincisi, həmçinin TRASEKA kimi tanınan Avropa ilə Asiyanı Türkiyə, Gürcüstan və Azərbaycan vasitəsilə birləşdirməyi nəzərdə tutur, "Zəngəzur dəhlizi" isə Türkiyə və Azərbaycan üçün vacibdir və Ermənistan ərazisindən yalnız Zəngəzurun bir hissəsindən keçidi nəzərdə tutur.

İkinci istiqamət enerji resurslarının Avropa İttifaqı ölkələrinə nəqlidir. Bu gün Aİ-nin daha böyük həcmdə mavi yanacağa ehtiyacı var. 2023-cü ildə Azərbaycan Avropaya 11,8 milyard kubmetr təbii qaz tədarük edib və Aİ ilə razılaşmaya əsasən, Bakı 2027-ci ilə qədər tədarükü 20 milyard kubmetrə çatdırmalıdır. Aİ iqtisadi səmərəliliyini artırmaq üçün Cənub Dəhlizinin genişləndirilməsini də nəzərdən keçirir. Bu planların həyata keçirilməsinə Transxəzər qaz kəmərinin tikintisi daxildir ki, bu da Türkmənistana öz qaz ehtiyatlarını Avropa bazarına çıxarmağa imkan verəcək. Hazırda türkmən qazının əsas istehlakçısı Çindir, lakin bu layihə Aşqabadın Avropaya ixracı üçün yeni perspektivlər açır. Bu, həm də Cənubi Qafqazın enerji infrastrukturunun potensialının artırılmasını tələb edəcək. Nəqliyyat dəhlizlərində olduğu kimi, enerji resurslarının nəqli üçün də ən səmərəli marşrut Zəngəzur dəhlizi, daha sonra Türkiyə sərhədlərinə çatdırılması ola bilər.

Və sonuncu, lakin heç də az olmayan irimiqyaslı layihə Qara dənizin sualtı elektrik kabelinin tikintisidir. Bu kabelin Qara dənizin dibi ilə Azərbaycan, Gürcüstan və Avropa arasında çəkilməsi planlaşdırılır ki, bu da Cənubi Qafqazdan Avropaya "yaşıl enerji" ixrac etmək imkanı yaradacaq. Qara Dəniz İnternet Kabel Layihəsi 17 dekabr 2022-ci ildə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan liderləri tərəfindən imzalanıb. Genişzolaqlı fiber-optik kabelə paralel olaraq 1500-3000 MVt gücündə 450-500 kV DC kabelinin çəkiləcəyi. Beləliklə, layihə mürəkkəb xarakter daşıyır və həm sırf elektrik enerjisi komponentindən, həm də informasiya və telekommunikasiya texnologiyalarının infrastruktur komponentindən ibarətdir. Layihənin ilkin büdcəsi 2,3 milyard avro təşkil edir, yeni Avropa strategiyası "Qlobal Gateway" çərçivəsində həyata keçirilməsi planlaşdırılır.

Yeni layihələrin birgə həyata keçirilməsi və Ermənistanın mövcud layihələrə inteqrasiyası regionun inkişaf tempini sürətləndirəcək, hər bir ölkənin ÜDM-nin həcmini və nəticədə ÜDM-in PPP-də artmasına səbəb olacaq və əsas makroiqtisadi göstəricilərin bərabərləşdirilməsi prosesini asanlaşdıracaq. göstəricilər. Bu baxımdan regionda gedən inteqrasiya proseslərini tənzimləməyə və izləməyə qadir olan dövlətlərüstü qurumun yaradılması zəruridir. Bu qurum regional inkişaf maraqlarını güdməli və nəticədə hər üç tərəf - Azərbaycan, Gürcüstan və Ermənistan orada təmsil olunmalıdır.

Elmi tədqiqatların nəticələrini ümumiləşdirərək qeyd etmək lazımdır ki, konvergensiyadan Cənubi Qafqazın iqtisadi inkişafının əsas istiqaməti kimi istifadə edilməsi bu zəncirin hər bir halqasına sürətlənmiş iqtisadi artıma nail olmağa imkan verəcək. Belə regional arxitektura Cənubi Qafqaz ölkələrinin qlobal iqtisadiyyatda əhəmiyyətini artırmaq üçün sabit iqtisadi əsasa malikdir və təkcə Azərbaycan, Gürcüstan və Ermənistanın deyil,

Avrasiya iqtisadi məkanının bütün ölkələrinin milli maraqlarına cavab verir - şərqdən qərbə, şimaldan cənuba.

## AZƏRBAYCANDA DÖVLƏTİN DAVAMLI İNKİŞAF STRATEGİYALARI

**Natiq Qarayev**
**dosent**
**Təhmasib Zamanlı**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**natiq_qarayev@rambler.ru**
**zamanli.tahmasib20@icloud.com**

Azərbaycanın davamlı inkişaf strategiyaları enerji səmərəliliyi və bərpa olunan resurslara diqqət yetirməklə iqtisadiyyatın diversifikasiyasına üstünlük verir. Hökumət insan kapitalını artırmaq üçün təhsil və səhiyyəyə sərmayə yatırmaqla yanaşı, meşələrin bərpası və biomüxtəlifliyin qorunması kimi ətraf mühitin mühafizəsi siyasətini həyata keçirir. Xüsusilə kənd yerlərində sosial inklüziv iqtisadi imkanlar yaradılır ki, bu da ölkə üzrə tarazlı inkişafı hədəfləyir. İnfrastruktur layihələri uzunmüddətli davamlılığı təmin edərək, iqlim dəyişikliyinin təsirlərinə qarşı dayanıqlılıqla hazırlanmışdır. Bundan əlavə, Azərbaycan davamlı inkişaf təşəbbüsləri üçün regional mərkəzə çevrilmək üçün strateji mövqeyindən və təbii ehtiyatlarından istifadə etməyə çalışır. Beynəlxalq tərəfdaşlıqlar və əməkdaşlıqlar vasitəsilə ölkə qlobal davamlılıq səylərinə töhfə verməklə bilik və ən yaxşı təcrübə mübadiləsini hədəfləyir. Azərbaycan ekoloji, sosial və iqtisadi mülahizələri öz inkişaf planlarına inteqrasiya etməklə, zəngin mədəni irsini və təbii ehtiyatlarını qoruyub saxlamaqla həm indiki, həm də gələcək nəsillərə fayda verən davamlı inkişafa nail olmağa çalışır.

Azərbaycanın növbəti onillikdə sosial-iqtisadi inkişafın Milli Prioriteti dayanıqlı artımın təşviqinə və vətəndaşların ümumi rifahının yüksəldilməsinə yönəlmiş hərtərəfli baxışı əhatə edir. Bu prioritetin mərkəzində cəmiyyətin bütün təbəqələri üçün imkanlara bərabər çıxışı təmin etməklə qlobal arenada inkişaf edə bilən davamlı və rəqabətədavamlı iqtisadiyyat qurmaq istəyi dayanır. Azərbaycan nəinki davamlı inkişaf edən, həm də qlobal çağırışlar qarşısında rəqabətqabiliyyətli qalan iqtisadiyyat yaratmağa çalışır. Bu, resursların idarə edilməsində və iqtisadi siyasətdə davamlılığı təmin etməklə, sektorlar üzrə diversifikasiyanı, sahibkarlığın təşviqini və xarici investisiyaların cəlb edilməsini nəzərdə tutur. Millət dinamizm, inklüzivlik və sosial ədalətlə səciyyələnən cəmiyyət yetişdirməyi hədəfləyir. Bu, innovasiya və sahibkarlıq mədəniyyətinin təşviqini, müxtəlifliyi və bərabərliyi təşviq etməyi və mənşəyindən asılı olmayaraq hər bir şəxsin əsas xidmət və imkanlara çıxışını təmin etməyi əhatə edir. Azərbaycan iqtisadi artım və inkişafa təkan verməkdə insan kapitalı və innovasiyaların həlledici rolunu qəbul edir. Prioritetə təhsilə və bacarıqların inkişafına sərmayə qoyuluşu, tədqiqat və inkişaf üçün əlverişli mühitin təşviqi, innovasiya və yaradıcılıq mədəniyyətinin təşviqi daxildir. Əvvəllər işğal olunmuş ərazilərin bu yaxınlarda azad edilməsi ilə Azərbaycan onların yenidən qurulması və inkişafına sadiqdir. Bu, infrastruktura sərmayə qoyuluşunu, məşğulluq imkanlarının yaradılmasını və köçkünlərin öz evlərinə qayıtmasının asanlaşdırılmasını nəzərdə tutur. Ekoloji davamlılıq Azərbaycanın inkişaf gündəliyinin təməl daşıdır. Ölkə təmiz enerjini təşviq etməyi, çirklənməni azaltmağı, təbii ehtiyatları qorumağı və bütün sektorlarda davamlı təcrübələri təşviq etməyi, bununla da "yaşıl inkişafı" təşviq etməyi və gələcək nəsillər üçün sağlam ətraf mühiti təmin etməyi hədəfləyir.

Bu sahələrə üstünlük verməklə Azərbaycan regional və qlobal inkişaf səylərinə fəal töhfə verməklə öz vətəndaşları üçün firavan, əhatəli və davamlı gələcəyin əsasını qoymağa çalışır.

Azərbaycanda davamlı inkişaf iqtisadi, sosial və ekoloji mülahizələri özündə birləşdirən çoxşaxəli bir cəhddir. Sürətlə inkişaf edən ölkə kimi Azərbaycan iqtisadi artımın ətraf mühitin mühafizəsi və sosial tərəqqi ilə tarazlaşdırılmasının vacibliyini dərk edir. Azərbaycan böyük ölçüdə neft və qaz gəlirlərinə arxalanır, lakin o, uzunmüddətli davamlılığı təmin etmək üçün iqtisadiyyatını şaxələndirmənin vacibliyini dərk edir. Hökumət kənd təsərrüfatı, turizm və texnologiya kimi qeyri-neft sektorlarına sərmayə qoyur. Müxtəlif sənaye sahələrini inkişaf etdirməklə Azərbaycan daha davamlı iqtisadi artım yaratmağı və mədən yanacaqlarından asılılığını azaltmağı hədəfləyir. Azərbaycan öz təbii sərvətlərini və biomüxtəlifliyini qorumağa sadiqdir. Hökumət ətraf mühitin mühafizəsi üzrə müxtəlif tədbirlər, o cümlədən qorunan ərazilərin və milli parkların yaradılmasını həyata keçirmişdir. Bundan əlavə, Azərbaycan iqlim dəyişikliyi ilə mübarizə və istixana qazlarının emissiyalarının azaldılmasına yönəlmiş beynəlxalq təşəbbüslərdə fəal iştirak edir. Azərbaycan ətraf mühitin mühafizəsini prioritetləşdirməklə gələcək nəsillər üçün sağlam ətraf mühiti təmin etməyi qarşısına məqsəd qoyub. Fosil yanacaqların məhdud təbiətini və karbon emissiyalarının azaldılmasının vacibliyini dərk edərək, Azərbaycan külək, günəş və su elektrik enerjisi kimi bərpa olunan enerji mənbələrinə sərmayə qoyur. Ölkə, xüsusilə bol günəş işığına görə günəş enerjisi kimi ərazilərdə bərpa olunan enerji istehsalı üçün əhəmiyyətli potensiala malikdir. Bərpa olunan enerjiyə keçidlə Azərbaycan qalıq yanacaqlardan asılılığını azaltmağı və iqlim dəyişikliyinin təsirini azaltmağı hədəfləyir. Azərbaycanın şəhər mərkəzlərində əhalinin sürətli artımı və urbanizasiya prosesi gedir. Bu artımı davamlı şəkildə təmin etmək üçün hökumət torpaqdan səmərəli istifadəyə, ictimai nəqliyyata və yaşıl sahələrə üstünlük verən şəhərsalma və inkişaf strategiyalarına diqqət yetirir. Azərbaycan daha yaşana bilən və ekoloji cəhətdən təmiz şəhərlər yaratmaqla öz vətəndaşlarının həyat keyfiyyətini yaxşılaşdırmaq, eyni zamanda ətraf mühitin deqradasiyasını minimuma endirmək məqsədi daşıyır. Əhalinin davamlı inkişafın əhəmiyyəti haqqında maarifləndirilməsi ətraf mühitə mühafizə mədəniyyətinin inkişaf etdirilməsi üçün çox vacibdir. Azərbaycan təbiətin mühafizəsi, iqlim dəyişikliyi və davamlı təcrübələr haqqında məlumatlılığı artırmaq üçün məktəblərdə və icmalarda ekoloji təhsil təşəbbüslərinə sərmayə qoyur. Azərbaycan öz vətəndaşlarını bilik və bacarıqlarla gücləndirməklə ekoloji cəhətdən daha şüurlu cəmiyyət qurmağı hədəfləyir. Kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatında mühüm rol oynayır, lakin qeyri-davamlı kənd təsərrüfatı təcrübələri torpağın deqradasiyasına, suyun çirklənməsinə və biomüxtəlifliyin itirilməsinə səbəb ola bilər. Hökumət üzvi əkinçilik, növbəli əkinçilik və suya qənaət edən suvarma üsulları kimi davamlı kənd təsərrüfatı texnikalarını təşviq edir. Dayanıqlı kənd təsərrüfatına dəstək verməklə Azərbaycan ərzaq təhlükəsizliyini təmin etmək, təbii sərvətləri qorumaq və kənd yerlərinin dolanışıq vasitələrini qorumaq məqsədi daşıyır. Davamlı inkişaf xalqlar arasında əməkdaşlığı tələb edən qlobal problemdir. Azərbaycan Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri (DİM) daxil olmaqla davamlı inkişafa yönəlmiş beynəlxalq forumlarda və tərəfdaşlıqlarda fəal iştirak edir. Beynəlxalq ictimaiyyətlə əlaqə yaratmaqla Azərbaycan ümumi davamlılıq məqsədlərinə nail olmaq üçün bilik, resurslar və ən yaxşı təcrübələri bölüşməyə çalışır.

# TƏSƏRRÜFAT SUBYEKTLƏRİNİN "YAŞILİQTİSADİYYAT" İSTİQAMƏTİNDƏ MALİYYƏ MƏSRƏFLƏRİNİN VƏZİYYƏTİ

**Natiq Mirzəyev**
**dosent**
**Əli Səmədov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mirzoev.n@mail.ru**
**eli.semedov2@icloud.com**

**Açar sözlər:** təkrar emal, alternativ enerji, maliyyə məsrəfləri

Təsərrüfat subyektləri istehsal sferasında müəyyən maliyyə məsrəfləri edərək əmtəələr istehsal edir. Təsərrüfat subyektlərinin əmtəə istehsalı zamanı başlıca məqsədi məsrəfləri minimuma endirmək və səmərəliliyi artırmaqdır. Bunun üçün yeridilən siyasətlərdən biridə büdcə siyasətidir. Büdcənin optimal vəzyətinin saxlanılması və istehsal tsiklinin təmin edilməsi effektivlik baxımından vacibdir. Maliyyə məsrəflərinin azaldılması və büdcə siyasəti üçün müxtəlif istiqamətlər var. Bunlardan biridə "Yaşıl iqtisadiyyat" məfhumudur.

Yaşıl iqtisadiyyat anlayışı aşağı karbonlu,resusrlardan səmərəli istifadə edən və sosial cəhətdən inkluziv yanaşmaya sahibdir.Yaşıl iqtisadiyyatda gəlir artımı və məşğulluq, karbon emissiyalarının və çirklənmənin azaldılmasına, enerji və resurs səmərələliliyinin artırılmasına, biomüxtəlifliyin və ekosistem xidmətlərinin itirilməsinin qarşısının alınmasına imkan verən iqtisadi fəaliyyətlərə,infrastruktura və aktivlərə dövlət və özəl sərmayələr vasitəsilə idarə olunur.

Respublikamızdada Yaşıl iqtisadiyyata verilən önəm yüksəkdir. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030:sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"sənədində təmiz ətraf muhit və "yaşıl artım" beş əsas prioritetdən biri olaraq müəyyən edilmiş və priroitet daxilində yüksək keyfiyyətli ekoloji muhitin və "Yaşıl enerji" məkanının təmin edilməsi kimi iki strateji məqsədin effektiv reallaşdırılması nəzərdə tutulmuşdur. Eyni zamanda Yaşıl Maliyyə sahəsində də yeridilən siyasət nəzərə çarpandır. Azərbaycan Mərkəzi Bankı "Yaşıl inkişaf" proqramını dəstəkləmək baxımından mühüm addım hesab olunan Dayanıqlı Maliyyə Yol Xəritəsi üzrə Fəaliyyət planının tətbiqinə başlayıb. Həmin məqsədlərin həyata keçirilməsi,iqlim dəyişiklikləri ilə mubarizə və "Yaşıl İqtisadiyyat"a keçid üçün böyük məbləğdə maliyyə resursu tələb olunur ki,bu resursların cəlb olunması və səmərələi mobilizasiyası üçün büdcə siyasətinin milli ətraf muhit və iqlim prioritetləri və məqsədləri ilə əlaqələndirilməsi və iqlim dəyişiklikləri ilə bağlı maliyyələşməni büdcə sisteminə sıx inteqrasiya etməklə effektiv monitorinq,qiymətləndirmə və hesabatlılıq sisteminin qurulması vacibdir.

Təsərrüfat subyetklərinin Yaşıl iqtisadiyyat vasitəsilə maliyyə məsrəflərinin azaldılmasında 4 istiqamət ön plana çıxır. Bunlara aiddir:

1. Enerjinin səmərəli istifadəsi;
2. Material və xammalın səmərəliliyi;
3. Təkrar emal və texnologiya;
4. İş proseslərinin təkmilləşdirilməsi.

Enerjidən səmərəli istifadə enerji tələbini azaldaraq bu yönümlü xərclərin azaldılmasına təsir edir. Materialların səmərələliyi, tullantı və atıqların minimalizasiyası nəticəsində əlavə xərclərin qarşısını alır. Təkrar emal isə yaşıl iqtisadiyyat tədbirləri çərçivəsində geri dönüşüm prosesinə yatırım edərək materialları yenidən istifadə etməyə və məsrəfləri azaltmağa səbəb olur. İş proseslərinin təkmilləşdirilməsi həyata keçirilən

proseslərin və hesabatlıq sisteminin düzgün fəaliyyətin təmin edilməsi nəticəsində səmərəliliyi artırır.

Yaşıl İqtisadiyyat həm sosial məsuliyyət baxımından həm də istehsal sferasında müəssisələrin səmərəliliyinin artırılması baxımından ikili aspektdə çıxış edir.

Dünya ölkələrində Yaşıl iqtisadiyyata keçidin örnəkləri müxtəlifdir. Burada Almaniya timsalında nümunə vermək yerinə düşər. Almaniyanın 1991-2012-ci illər aralığında Yaşıl iqtisadiyyata və qlobal çirklənməyə verdiyi önəmin nəticəsində 20 il ərzində ÜDM-in səviyyəsi 28% artmaqla bərabər çirkli qazların emisiyası 22% azalmışdır.

Araşdırmalar göstərir ki, təbiətə ziyan vurmadan enerji istehsalı isə nisbətən baha başa gəlir. Misal üçün külək enerjisindən istifadə hər bir volt üçün 1.66 dollar olduğu halda günəş enerjisində bu rəqəm 1.65 dollardır. Digər bir yanaşmada bizə göstərir ki, iqlim dəyişiklikləri baxımından hərəkətə keçən şirkətlər hərəkətə keçməyən şirkətlərə görə 18% daha çox investisiya qoyuluşuna malikdir (CDP). Bu göstərici karbon qazlarının emissiyasını azaltmayan şirkətlərə görə isə 68% daha azdır. Burdan belə nəticəyə gəlmək olarki təsərrüfat subyektlərinin Yaşıl iqtisadiyyat istiqamətlərindən istifadə etməsi məsrəflərin azaldılmasına gətirib çıxarır. Lakin bu enerji sahesində ənənəvi sektorun daha ucuz başa gəlməsini inkar etmir. Təbiəti çirkləndirmədən enerji istehsalı nisbətən baha başa gəlir. Lakin tullantıların azaldılması və təkrar emal prosesi məsrəflərin birbaşa azalması ilə nəticələnir. Bu vəziyyətdə təsərrüfat subyektlərinin təbiəti muhafizə xərcləri də azalmanı göstərir.

## MİLLİ İQTİSADİYYATIN İNKİŞAFINDA “YAŞIL İQTİSADİYYATIN” TƏŞKİL OLUNMASINA RİSK AMİLLƏRİNİN TƏSİRİ

**Natiq Mirzəyev**
**dosent**
**İzzət Məmmədov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**izzet.memmedov1@icloud.com**
**mirzoev.n@mail.ru**

**Açar sözlər:** milli iqtisadiyyat, risk, rəqabət qabiliyyəti

Milli iqtisadiyyatın formalaşdırılmasında bazar mexanizmi və dövlətin müdaxiləsi siyasətinin tədqinin iqtisadi həyatın aktual probleminə çevirmişdir. Milli iqtisadiyyatı inkişaf etdirmək üçün müəyyən bir keçid və inkişaf konsepsiyaların hazırlanması zəruridir. Milli iqtisadiyyat dedikdə heç də bir millətə mənsub iqtisadiyyatdan söhbət getmir. Bu bütöv cəmiyyət, ümumdövlət səviyyəsində fəaliyyət göstərən və həmin cəmiyyətdə yaşayan bütün xalqa məxsus və onun mənafelərini əks etdirən iqtisadiyyatdır. Hazırda müharibə yolu keçmiş və qalib dövlətə çevrilən, yaxın dövrə qədər ərazi təcavüzünə məruz qalan Azərbaycanda makroiqtisadi milli məqsədlər, milli mənafelər iqtisadi inkişafın xarakterinə güclü təsir göstərmişdir. Bu dövrdə ölkəmizin qarşısında duran ən başlıca məqsəd hər şeydən əvvəl birincisi, sosial-iqtisadi inkişafın vəhdətinin təmin edilməsi və respublika ərazisində vahid iqtisadi məkanın bərpa edilməsi, ikincisi, milli iqtisadiyyatın təhlükəsizliyin təmin edilməsidir. Son dövrlərdə texnologiyaların inkişafı planetimizdə iqtisadiyyatı müxtəlif risklərlə yanaşı ekoloji risklərlə üz-üzə qoyur. Hamıya məlumdur ki, ekoloji risklər iqtisadiyyata böyük təsir gücünə malikdir və bu səbəblərdə yenə konsepsiya meydana çıxmışdır. Bu “Yaşıl maliyyə” konsepti idi. Bu konsepsiya özündə dayanıqlı investisiyanı ekoloji faydalı çevirməyə xeyirli layihələrin maliyyələşdirilməsini nəzərdə tutur. Bunun məqsədi məhz kapital axınını təbii resurslardan səmərəli istifadəyə yönəldən təşəbbüsləri

dəstəkləməkdir. Ənənəvi maliyyə sisteminin ətraf mühit üzərində böyük təsiri mövcuddur və buna görədə gələcəkdə ekoloji və iqtisadi sabitliyin təmini üçün maliyyələşmə qərarların verilməsində həmin qərarların dayanıqlı inkişaf prinsipi ilə uzlaşması məcburiyyət xarakteri daşıyacaqdır. Maliyyə institutları özüdə yaşıl maliyyə keçiddə maraqlıdır. Buna səbəb və ondan ibarətdirki ekoloji hadisələr,ekoloji fəlakətlər maliyyə institutlarının özünə də birbaşa təsir edir. Bu risklər nəticəsində aktivlərin dəyəri aşağı düşürr.

22 fevral 2021- ci il tarixində Energetika Nazirliyi ilə BP şirkəti arasında iri miqyasda karbonsuzlaşdırılmış, inteqrasiya edilmiş enerji və nəqliyyat səstemləri, o cümlədən, Azərbaycanın şəhər və rayonlarında bərpa olunan enerji layihələri üçün tələb edilən potensialın və şəraitin qiymətləndirilməsi üzrə əməkdaşlıq etmək məqsədilə Anlaşma Memorondumu imzalanmışdır. Bundan əlavə, 2021- ci ilin iyun ayının 3-də Cəbrayıl və Zəngilan ərzisində 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisi üzrə bp ilə icra müqaviləsi imzalanmışdır. Həmin icra müqaviləsi çərçivəsində bp tərəfindən tikilməsi müəyyənləşdirilən elektrik stansiyası lahiyəsi ətrafında müvafiq təhlillər aparılacaq və yekun qərar qəbul ediləcəkdir. Qeyd edilənlər Azərbaycanda gələcək iqtisadi inkişafın ekoloji təmiz texnologiyaların tətbiqi,təmiz enerji mənbələrindən istifadə,tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası sahəsində işlərin artırılması ilə sıx baglı olacağını dəməyə əsas verir.

Azərbaycanda "Yaşıl iqtisadiyyat"ını inkişafı istiqamətində bir sıra təşəbbüslər uğurla reallaşdırılmışdır.Hazırda da dayanıqlı inkişafın mühüm bir konponenti olaraq "Yaşıl iqtisadiyyat"ın formalaşdırılması istiqamətində siyasət həyata keçirilir.Məhz "Azərbaycan 2030 :sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı sənəddə də ölkəmizdə "Yaşıl iqtisadiyyat"ın inkişafı mühüm məsələ kəsb edir.Milli Prioritetlərdə növbəti onilllikdə ölkənin sosial-iqtisadi inkişafının beş Millli Prioritet üzə reallaşdırılması hədəflənir:

1. Dayanıqlı artan rəqabət qabiliyyətli iqtisadiyyat;
2. Dinamik,inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. Rəqabətli insan kapitalı və müasir inovasiya məkanı;
4. İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. Təmiz ətraf mühit və "Yaşıl artım"ölkəsi.

İnkluziv "Yaşıl iqtisadiyyat"insaların rifahını yaxşılaşdıran və ekoloji riskləri azaldaraq sosial bərabərliyin qurulmasına xidmət edən bir iqtisadiyyatır. "Yaşıl iqtisadiyyat" əmtəələrin və xidmətlərin istehsalı, bölgüsü və istehlakı ilə bağlı olan iqtisadi fəaliyyətlərin elə bir sistemdir ki, burada gələcək nəsilləri ciddi ətraf mühit riskləri və ekoloji çatışmazlıqlarla qarşı-qarşıya qoymadan uzunmüddətli rifah artımına və davamlı inkişafa nail olunur. "Yaşıl iqtsiadiyyat"həm də davamlı inkişafa və ekoloji iqtisadiyyat biliklərinə əsaslanan bir iqtisadi inkişaf modelidir. Ekoloji risklər dedikdə hər hansı bir obyektə və ətraf mühitə mənfi təsir göstərən faktorlar nəzərdə tutulur. Ekoloji risklərin qarşısını alınması üçün bir sra tədbirlər və iqtisadi konsepsiyalar hazırlanır.

Ekoloji risklərə bir çox kəmiyyət göstəriciləri aid etmək olar:

- itginin miqdarı;
- təhlükəli amillərin yaranması ehtimalı;
- ziyanın miqdarı və onun yaranma ehtimalının qeyri-müəyyənliyi.

Yekun olaraq qeyd etmək olar ki, qarşıdakı illərdə Azərbaycanda iqtisdi inkişafın əsas konponenti olaraq -"Yaşıl əmək fəaliyyəti", "Yaşıl təfəkkür" və "Yaşıl həyat tərzi", "Yaşıl maliyyə" təşviq olunmalıdır. Belə qənatə gəlmək olar ki, iqtisadiyyatın əsas problemlərinin həllinin əhəmiyyətinin qabardılması "Yaşıl inkişaf" perspektivlərini müəyyənləşdirir.

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ "YAŞIL İQTİSADİYYAT"IN TƏŞKİL OLUNMASINDA İNVESTİSİYA QOYULUŞLARI

**Natiq Mirzəyev**
**dosent**
**Nurxan Mehtiyev**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mirzoev.n@mail.ru**
**nurxan.hidayetoglu1998@gmail.com**

**Açar sözlər:** infrastruktur, investisiya, layihə

"Yaşıl iqtisadiyyat" termini XX əsrin sonlarında yaranmışdir ki, əsas məqsədi dünyada insanın fəaliyyəti zamanı yaranan ətraf mühitin çirklənməsi və yaşıllaşmaya vurduğu ziyanın aradan qaldırılmasıdır. Azərbaycan ərazisində meşə zolaqlarının qırılması və yandırılması, flora və faunanın məhv edilməsi halları baş verir. Belə halların aradan qaldırılması üçün bir sıra tədbirlər həyata keçirilir. Ümumi olaraq istehsal və idarəetmə sahəsində yeni texnologiyanın inkişafı yaşıl iqtisadiyyat mexanizminin inkişaf etməsinə daha çox təkan verir və ondan istifadəni zəruriləşdirir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsi zamanı rəşadətli Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnmiş və torpaqlarımız düşmən tapdaqlarından azad edilmişdir. İşğaldan azad olunmuş ərazilərdə mövcud olan bütün infrastruktur düşmənlər tərəfindən dağıdılmışdır və həmin ərazilərdə bərpa və quruculuq həmçinin yaşıl enerji zonası yaradılmışdır. Bu da təbii ki, "Yaşıl iqtisadiyyat" prinsipinə əsasən həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının potensialının  tam reallaşdırılması ölkəmizdə ümumi iqtisadi artıma təsir göstərəcək. Ölkəmizdə yaşıl enerji zonalarının inkişaf etməsi günəş və külək enerji imkanlarının artmasına, həmçinin əhalinin yaşayış mühitinin yaxşılaşdırılmasına şərait yaradır.

Azərbaycan Respublikası işğaldan azad olunan ərazilərdə "Yaşıl enerji" zonasına çevirməyi hədəfləyir. Bunun üçün də həmin ərazilərdə "Ağıllı şəhər", "Ağıllı kənd" konsepsiyası əsasında şəhərlərin və kəndlərin inşasına başlanılır. Prezident İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə "Qarabağ Dirçəliş Fondu" yaradılıb. Bu fond Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyatın təmin edilməsi üçün bir vasitədir.

İşğaldan azad olunmuş ərazilərin "Yaşıl enerji" zonası kimi yaradılıb və inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsindən nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Energetika Nazirliyinə 1 milyon 391 min ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılmışdır. 2021-ci ildə işğaldan azad edilmiş ərazilərdə 20 meqavat gücündə 4 su elektrik stansiyası inşa edilmişdir. Həmin sözügedən stansiyalar 8 Mvt gücü olan "Güləbird", 7.8 Mvt gücə malik olan "Suqovuşan-1" və "Suqovuşan-2" aiddir. Hal-hazırda azad olunmuş ərazilərdə ümumi gücü 140 Mvt-a qədər olan və dağıdılan 33 KSES-in bərpası istiqamətində işlər aparılır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 iyun 2022-ci il 357s nömrəli Sərəncamına əsasən "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində 2022-2026-cı illərdə "Yaşıl enerji" zonasının yaradılması üzrə tədbirlər planı" təsdiq olunmuşdur. Laçın rayonunda enerji səmərəliliyinin tələblərini yüksəltmək məqsədilə həmin ərazidən keçən Həkəri çayı üzərində 100 Mvt-dək gücə malik külək elektrik stansiyası tikilir. Həmçinin 2024-cü ilin sonunadək

tamamlanması planlaşdırılan 200 Mvt-dək gücə malik "Xudafərin" və 80 Mvt gücündə "Qız Qalası" su elektrik stansiyalarının inşası davam edir.

Qeyd etmək lazımdır ki, 2022-ci ildə ölkə iqtisadiyyatına ümumilikdə 18.3 milyard manat vəsait yatırılmışdır. Bakı şəhərini çıxmaqla ölkənin digər ərazilərinə yatırılan vəsaitin təqribən yarısı işğaldan azad olunmuş ərazilərə yatırılıb. 2022-ci ildə bu ərazilərə ən çox yatırım Zəngilan rayonu olmuşdur və ümumi məbləğ olaraq 730 milyon manat təşkil edir. İnvestisiya həcminə görə ikinci yeri Şuşa şəhəri təşkil edir ki, buraya 682 milyon manat məbləğində kapital qoyuluşu olmuşdur. Həmçinin, Fizuli rayonuna 550 milyon manat, Kəlbəcər rayonuna 365 milyon manat, Ağdam rayonuna 330 milyon manat, Laçın rayonuna 277 milyon manat, Qubadlı rayonuna 172 milyon manat vəsait yatırılmışdır. 2022-ci ildə Səudiyyə Ərəbistanı Krallığının "ACWA POWER" şirkəti ilə 240 meqavat gücündə külək elektrik stansiyasının tikintisi ilə bağlı müqavilə imzalanmışdır. Layihənin reallaşdırılmasına ümumilikdə 300 milyon ABŞ dolları həcmində investisiya qoyuluşu, il ərzində isə 1 milyard kilovat saata yaxın enerjinin istehsalı nəzərdə tutulmuşdur. İqtisadiyyat və Energetika Nazirliyinin birgə məlumatında bildirilib ki, bu layihənin icrası nəticəsində il ərzində 200 milyon kubmetr qaza qənaət ediləcək, habelə ətraf mühitə atılan tullantıların həcmi ildə 400 min tona qədər azaldılacaqdır.

Ümumiyyətlə, Prezident İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncamında qeyd edilir ki, əldə edilən iqtisadi üstünlük, hər şeydən əvvəl, işğaldan azad edilmiş ərazilərin mövcud iqtisadi potensialından xalqımızın rifahı üçün tam istifadə olunmasına geniş şərait yaradacaq və iqtisadiyyatın dayanıqlı inkişafına öz müsbət təsirini göstərəcəkdir.

## YAŞIL İQTİSADİYYAT ŞƏRAİTİNDƏ TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Nigar Namiq**
**kiçik elmi işçisi**
**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun**
**"Post-konflikt ərazilərin bərpası Elmi Mərkəzi"**
**teymurzade_n@mail.ru**

Yaşıl iqtisadiyyat ekoloji riskləri və ekoloji çatışmazlıqları əhəmiyyətli dərəcədə azaldaraq insanların rifahının yaxşılaşdırılması və sosial ədalətlə nəticələnən bir iqtisadiyyat kimi müəyyən edilir. Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramına (UNEP) görə, yaşıl iqtisadiyyat çirklənməsiz və ya tullantısız, enerji, su və materialların istifadəsində son dərəcə səmərəli olan bir iqtisadiyyatdır. Bu isə o deməkdir ki, belə iqtisadiyyatı qurmaq üçün "yaşıl" iş yerlərinin olması zərurəti də artmaqdadır. Çünki "yaşıl" iş yerləri ətraf mühitin keyfiyyətinin saxlanmasına və ya bərpasına və yer kürəsinin ekosistemlərinə gələcək zərərin qarşısının alınmasına əhəmiyyətli töhfə verənlər olacaq.

İqtisadi inkişafın "yaşıl" modelinə keçid iqtisadiyyatın bütün sahələrinə, o cümlədən də insan həyatına keyfiyyətcə yeni təsir göstərəcək. Yaşıl iqtisadiyyat təbii ekosistemlərin qorunmasına daha çox diqqət yetirdiyindən onun inkişaf etdirilməsinin müsbət təsirlərindən biri də məhz turizm sahəsinə olacaqdır.

Yaşıl inkişaf istiqamətində irəliləyiş qiymətləndirilərkən ekoturizmin ÜDM-də payı və ekoturistlərin sayı ilə bağlı göstəricilərdən istifadə olunur. Azərbaycan ekoturizmin inkişaf etdirilməsi üçün böyük potensiala malikdir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əraziləri ekoturizmin inkişafına əlavə təkan verəcək. Belə ki, bu istiqamətdə aparılan tədqiqatlar göstərir ki, Kəlbəcər, Laçın və Şuşa iqlim-balneoloji kurortunun yaradılması üçün böyük potensiala malikdirlər. Bununla belə, ölkəmizdə olan 623 kəhrizdən 332-si Qarabağda yerləşir. Məlum olduğu kimi, belə ərazilərin ətrafında geniş

meşə və dağ-çəmən landşaftlarının və təbiət abidələrinin mövcudluğu bu yerlərin sağlamlıq turizmi məqsədilə istifadə olunması üçün xüsusi əhəmiyyət kəsb edir.

Bu onu deməyə əsas verir ki, "yaşıl iqtisadiyyat" şəraitində turizmin inkişaf istiqamətlərindən birini məhz ekoturizm təşkil edir. Qeyd edək ki, ölkəmizdə ekoloji turizmin inkişaf etdirilməsi və milli parklarda müxtəlif turizm fəaliyyətlərinin təşkili ilə bağlı tədbirlər "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə də öz əksini tapmışdır. Hazırkı dövrdə Azərbaycanda milli parkların ərazisində turizm və rekreasiya zonalarının fəaliyyəti aşağıdakı cədvəldə təqdim olunmuşdur.

**Cədvəl**

**Azərbaycanda milli parkların ərazisində turizm və rekreasiya zonalarının fəaliyyəti**

| | 2010 | 2015 | 2019 | 2020 | 2022 |
|---|---|---|---|---|---|
| Turizm və rekreasiya zonalarının sayı, ədəd | 19 | 43 | 101 | 92 | 93 |
| Gələnlərin sayı, nəfər | 2062 | 74771 | 92367 | 40009 | 218775 |
| Onlardan xarici ölkə vətəndaşları | 108 | 733 | 10039 | 1038 | 1123 |

Cədvəlin məlumatlarından göründüyü kimi, turizm və rekreasiya zonalarının sayında 2010-cu illə müqayisədə 4,8 dəfə artım olsa da 2019-cu illə isə 8% yaxın azalma müşahidə olunur. Bununla belə, bu turizm növündən istifadə edənlərin sayında da gözəçarpacaq müsbət dinamika vardır. Belə ki, 2020-ci illə müqayisədə 2022-ci ildə gələnlərin sayı 5,5 dəfə artmışdır. Lakin gələnlərin çox az hissəsini (0,51%) xarici vətəndaşlar təşkil edir.

Təhlillər onu deməyə əsas verir ki, ölkəmiz üçün ekoloji turizm sektorunda mövcud olan turizm və rekreasiya zonalarının fəaliyyətinin təşviqi və onlara üz tutan turistlərin sayının (xüsusilə xarici ölkə vətəndaşlarının) artırılması aktuallıq təşkil edir. Buna isə əsasən dayanıqlı inkişafın prinsiplərini nəzərdə tutan "yaşıl iqtisadiyyat"a diqqət yetirməklə, resurslardan daha səmərəli istifadə etməklə və innovasiyaların tətbiqinin genişlənməsiylə nail olmaq mümkün olacaqdır.

"Yaşıl iqtisadiyyata" keçid yerli icmaların turizmin inkişafına cəlb olunmasını təşviq edir. Buraya yerli biznesin dəstəklənməsi, ədalətli əmək haqqının təmin edilməsi və turizm layihələri hazırlanarkən yerli əhalinin maraqlarının nəzərə alınması daxildir. Eyni zamanda "yaşıl iqtisadiyyat" turistləri ətraf mühitin mühafizəsinin əhəmiyyəti və davamlı inkişaf prinsipləri haqqında özlərini maarifləndirməyə həvəsləndirir. Bütün bunları nəzərə alaraq, öz növbəsində turizm şirkətləri ekoloji problemlər və onların həlli yolları haqqında məlumatlılığın artırılmasına yönəlmiş təhsil proqramları və ekskursiyaların təşkil edilməsinə cəlb oluna bilərlər.

Ümumilikdə bütün maraqlı tərəflər, o cümlədən dövlət qurumları, biznes və ictimai təşkilatlar arasında qarşılıqlı fəaliyyət prinsipi ekoturizmin inkişafı üçün əlverişli şəraitin yaradılmasına öz töhfəsini verir və turizm resurslarının səmərəli idarə olunmasını təmin edir.

# AZƏRBAYCAN YAŞIL İQTİSADİYYAT KONSEPSİYASINDA TURİZMİN PERSPEKTİVLƏRİ

**Nuran Hüseynli**
**baş müəllim**
**Lənkəran Dövlət Universiteti**
**nurangaga@yahoo.com**

Dünyada ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar və artan tələbat fonunda dayanıqlı inkişafa nail olmaq üçün "yaşıl" iqtisadiyyatın genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlanır. Sənəddə ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsi ilə bağlı qarşıya konkret tapşırıqlar qoyulub. "Yaşıl iqtisadiyyat" termini insan rifahını və sosial ədaləti təmin edən və eyni zamanda, ətraf mühit risklərini kəskin azaldan iqtisadiyyat kimi müəyyən edilir. Onun əsas komponentlərindən olan "Yaşıl biznes müəssisələri" qlobal və yerli səviyyədə ətraf mühitə, cəmiyyətə, icmalara və iqtisadiyyata zərərli təsir etməyən, iqtisadi inkişafı, sosial tərəqqini və ətraf mühitin mühafizəsini təmin edən müəssisələrdir.

Turizm sferasında yaşıl turizm deyərkən biz ekoturizm, kənd turizmi, aqro turizm və bəzi digər turizm növlərini qeyd edirik ki, burada yaddan çıxarılan çox vaxt az qeyd edilən məsələ turizm müəssisələrində istifadə edilən məhsulların (burada turizm müəssisəsinin tikilməsi prosesində istifadə edilən tikinti materiallarının ekoloji keyfiyyətidə nəzərdə tutulur) əmtəə və xidmətlərin ekologiya ilə dostluğu və uyğunlaşması mexanizmi də əhatə edilməlidir. Ümumi tədbirlər planı ümümdövlət səyləri və ümümdünya səyləri ilə buna nail olmaq mümkündür. Burada dövlət proqramlarının yazılması və tətbiqi, tənzimlənmənin və nəzarətin yüksək səviyyəsi vacibdir.

Belarus respublikasında 2025-ci ildə məhsulların 80 faizi ekoloji təmiz və yerli məhsul olacaq kimi hədəfləri var və böyük ehtimalla onlar bu hədəflərinə çatacaqlar. Türkiyə "all inclusive" sistemini bir çox yerdə ləğv edib və ya müəyyən limitləndirmələr gətirib ki, bütün mənalarda israfın qarşısı alınsın. Bu da ekologiyaya vurula bilinəcək mümkün zərərlərin azaldılması tədbiri kimi qiymətləndirilə bilər.

Yaşıl turizm anlayışı böyük bir spektrı əhatə edir və onun ölkələr üzrə bölünməsinə diqqət yetirilməsi çox vacibdir. Torpağın degradasiyası, ətraf mühitin zibillənməsi turizmin ekologiyaya vurduğu əsas ziyanlar kimi qeyd edilməlidir.

Azərbaycanda turizmin inkişafı üçün əlverişli iqtisadi-coğrafi şərait mövcuddur. Lakin bu sahə hələ də özünün lazımı inkişaf səviyyəsinə çatmamışdır. Belə ki, turizm və səyahət sferasında formalaşan gəlirlər dövlətin, əhalinin və sahibkarların gəlirlərinin tərkib hissəsi olduğundan ölkənin istər iqtisadi, istər sosial, istərsə də idarə edilməsi prosesinə müsbət təsir göstərir. Bununla əlaqədar olaraq dövlətimiz tərəfindən aparılan siyasət, qəbul edilən proqramlar məhz bu sahənin inkişafına, milli iqtisadiyyatda turizmin payının yüksəldilməsinə istiqamətlənmişdir. Burada Lənkəran- Astara iqtisadi rayonunun perspektivlərinə xüsusi indeksləşmə aparsaq (potensialların təhlili baxımından) ölkəmizdə öncüllərdən olacağı və hələdə potensialının heç 20 faizinin istifadə edilmədiyi və edilən hissələrdə təəsüflər olsun ki, ekologiyaya ziyan vurulmaqda davam etdiyinin şahidi oluruq. Hazırda ölkəmizin qarşısında duran əsas strateji məqsədlərdən biri də işğaldan azad edilmiş ərazilərin bərpası və inkişaf etdirilməsidir. Bu məqsədə nail olmanın istiqamətlərindən biri də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin inkişafıdır.

Nəticə olaraq qeyd edilə bilərəm ki, ölkəmizdə yaşıl iqtisadiyyatın bütün sahələri kimi yaşıl turizmində də potensial vardır. Post pandemiya dövründəki qapanmalara

baxmayaraq ölkəmizə gələn turistlərin dövriyyəsi 3 milyard olmuşdur. Bu göstəricini nəzərə alsaq potensialın nə qədər böyük olduğun anlamaq mümkündür.Təklif olaraq ölkədə ki böyük potensialın istifadəsinə istiqamətlənmiş tədbirlər planının dövlət proqramının hazırlanıb tətbiq edilməsinə və büdcə vəsaitlərinin qeyri neft sektorunun əsas elementlərindən olan turizmə tərəfə istiqamətləndirilməsini qeyd etmək olar. Dövlət proqramının çox elastik olmağı və gələcəkdə turizmin davamlı və dayanıqlı inkişafına öz töfhəsin verməyi 21 ci əsrin taktiki və dəyişkən konyukturasına daha uyğun ola bilər.

## QIZILAĞAC MİLLİ PARKI FLORASINDA BİTƏN BİR SIRA DƏRMAN BİTKİLƏRİNİN DAVAMLI İSTİFADƏ OLUNMA İMKANLARI

**Ramiz Şəmmədov**
**dosent**
**Tural Cəfərzadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**rshammadli@gmail.com**
**ceferzadetural20011@gmail.com**

Milli Park coğrafi baxımdan Azərbaycan Respblikasının Xəzər dənizinin cənubi qərbində yerləşir və 3 inzbatı rayonun - Lənkəran, Masallı və Neftçala rayon ərazilərinin bir hissəsini özündə birləşdirir. 99060.60 ha ərazini əhatə edən Milli Parkın iki körfəzdən- Böyük Qızılağac körfəzi və Kiçik Qızılağac körfəzindən ibarətdir. Eyni zamanda bura Ağ quşa, Xəzər daşmaları, Kalinovka limanı ilə birlikdə körfəzlərə qovuşan quru ərazilərdə daxildir.

Azərbaycan Respublikası flora və faunaya aid olan növlər baxımından dünyanın zəngin regionlarından biri hesab olunur. Müasir dövrdə isə zəngin bioloji müxtəlifliyə malik olan regionlar təbii amillərlə bərabər kəskin atropogen faktorlarının təsirinə məruz qalırlar. Bu faktorlar təbii faktorlarla eksponensial asılılıqda bioloji müxtəlifliyə kəskin təsir göstərərək, qiymətli əlamətlərə amalik bitki və heyvan növlərinin məhv olmasına və təbii mühitdən birdəfəlik itirilməsinə gətirib çıxarır. Nəticə də isə həmin bitkilərin davamlı istifadə olunma imkanlarıda tükənir. Ona görə də müxtəlif ölkələrdə olduğu kimi, respublikamızda qiymətli əlamətlərə malik növlərin mühafizə edilməsi üçün görülən tədbirlər sirasında yasaqlıqların, qoruqların və milli parkların yaradılmasına xüsusi əhəmiyyət verilir. Məhz bu zərurətdən irəli gələrək Respublikamızın ərazisində 10 Milli Park, 10 qoruq və 24 yasaqlıq yaradılmışdır. Qızılağac Milli Parkının yaradılmasında əsas məqsəd flora və fauna növlərinin qorunub saxanılması, bərpası, təbii komplekslərin mühafizəsinin gücləndirilməsi, ekoloji monitorinqin həyata keçirilməsi, eləcə də elmi tədqiqatlar, turizm və istirahət (rekreasiya) üçün şəraitin yaradılması və əhalinin ekoloji cəhətdən marifləndirilməsinin təşkilidir.

Aparılan elmi tədqiqatlar nəticəsində Milli parkın ərazisində 24 növ məməlilər, 270 növə yaxın quş, 12 növ sürünənlər və 47 növ balıq müşahidə olunmuşdur. Flora tərkibinə 310-a yaxın bitki növü daxil edlimişdir. İrəli gedərək qeyd etməliyik, Milli Park da flora növlərinin öyrənilməsi və elmi cəhətdən tədqiq edilməsi istiqamətində kifayət qədər az iş görülmüşdür. Elmi araşdırmaçıların böyük əksəriyyəti fauna növlərinin öyrənilməsi istiqamətində elmi araşdırmalar aparmışlar və flora növləri bu tip tədqiqatlardan demək olar ki, kənarda qalmışdır. Bu ərazidə müxtəlif areallara aid olan bitkilərin əksəriyyəti bu prosesdən kənarda qalmışdır. Qeyd etmək lazımdır ki, Milli Park bitki örtüyünə görə də zəngindir və bir çox bitkilərin geniş həcm də ehtiyyatı movcuddur. Ona görə də həmin bitkilərin öyrənilməsi, onların davamlı istifadə olunması baxımından da əhəmiyyətlidir. Amma bu amil də bitki biomüxtəlifliuyinin tədqiq olunmasında səmərəli fəaliyyətin genişlənməsinə səbəb olmamışdır.

Qızılağac Milli Parkının florasını öyrənərkən məlum olur ki, burada floranın formalaşmasında dəniz sahilində yerləşməsi və əsas körfəzin dənizlə birbaşa əlaqəsəsinin olması xüsusi əhəmiyyətə malikdir və birbaşa təsiredici faktordur. Xüsusilə Xəzər dənizinə aid olan suyun qabarması və çəkilməsi bitkilər aləminin formalaşmasına birbaşa təsir göstə rir. Belə ki, qabarma zamanı əmələ gəlmiş bitkilər, müəyyən müddətdən sonra çəkilmə zamanı quraqlığa davamlı bitkilərlə əvəz olunur.

Milli Park ərazisinə müxtəlif vaxtalarda təşkil edilmiş ekspedisiyalar nəticəsində bir sıra dərman bitkiləri toplanılmış və Lənkəran Dövlət Universitetinin "Biologiya və ekologiya" kafedrasının laboratoriyasında sistematik təyin olunmuşdur. Sistematik təyin olunmuş dərman bitkilərindən Dərman qulançarı (Mələçüyüd), Acı - şirin qaragilə - *Solanum dulcamara L.*, Çəmən güləvəri - *Centaurea jacéa* L.,Yalançı dəvətikanı - *Alhagi pseudalhagı.* Adi zirə- Carium carvi L. Bitkilərinin ehtiyatlarıda öyrənilmişdir. Məlum olmuşdur ki, adları yuxarıda göstərilən bitkilərin Qızılağac Milli Parkında geniş ehtiyatları vardır. Bu isə onların səmərəli və davamlı istifadə olunmasını şərtləndirən əsas amillərdən biridir. Məhz geniş ehtiyatları malik olması həmin bitkilərin istər xalq təbabətində, istərsə də tibbi bəbabətdə davamlı istifadə olunmasına şərait yaradılr.

## YAŞIL İQTİSADİYYATDA DAVAMLI İNKİŞAFIN STİMULLAŞDIRILMASI


**Rövşən Ələkbərov**
**dosent**
**Xəzər İsmayılov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**rovsen1234@bk.ru**
**xezer.ismayilov418@gmail.com**


Müasir sənayeləşmə müstəqil Azərbaycanın gələcək inkişafı üçün xüsusi proqramlardan biridir. Son illərdə yeni dövrün tələblərinə uyğun olaraq həyata keçirilən uğurlu sənayeləşmə siyasəti davamlı iqtisadiyyatın sənayeləşməsini daha da sürətləndirmişdir. Bu gün ölkə iqtisadiyyatının neft amilindən asılılığının azaldılmasına, qeyri-neft sektorunun inkişafının mürəkkəbliyinin çoxaldılmasına, onun dünya iqtisadiyyatına inteqrasiyasına diqqət yetirilir. Qeyd edilənlər, eləcə də sənaye sektorunda əldə edilmiş göstəricilər Azərbaycanın regionun güclü sənaye mərkəzi olduğunu bir daha sübut edir.

Yaşıl iqtisadiyyat təbii mühitin bir hissəsi olan, eyni zamanda ondan asılı olan iqtisadiyyatdır. "Yaşıl iqtisadiyyat" anlayışı iqtisad elmində resurslara əsaslanan iqtisadiyyat, ekoloji iqtisadiyyat, ekoloji iqtisadiyyat, yaşıl siyasət və s. bir çox istiqamətlərin ideyalarını əks etdirir. "Yaşıl" iqtisadiyyatın formalaşdırılması həm ətraf mühitin mühafizəsinin, həm də mövcud təbii ehtiyatlara və müasir biliklərə əsaslanan davamlı inkişafın təmin edilməsi üçün mühüm şərtdir.

Hal-hazırda yaşıl iqtisadiyyat anlayışının nələri ehtiva etdiyinin dəqiq müəyyən edilmiş və ümumi qəbul olunmuş tərifi yoxdur. Bu səbəbdən müxtəlif ölkələr öz spesifik kontekstində fərqli təriflərlə çıxış edirlər. Əslində müasir şəraitdə yaşıl iqtisadiyyat anlayışı, onun elmi tərifi və sosial-fəlsəfi tədqiqi müxtəlif ölkələrdə fərqli yanaşmalarla fərqlənir ki, bu da normal qarşılanmalıdır. Çünki müxtəlif ölkələrin sosial-iqtisadi inkişaf dərəcəsi müxtəlifdir. Məsələn, inkişaf etmiş ölkələr, inkişaf etməkdə olan ölkələr və yeni sənayeləşmiş ölkələr arasında davamlı inkişafda əhəmiyyətli fərqlər var. Bu fərqlər müvafiq ölkələrin yaşıl iqtisadiyyatın səviyyəsində və bu istiqamətdə atılan addımlarda da özünü göstərir. Beləliklə, yuxarıda qeyd olunanları fəlsəfi və sosioloji cəhətdən ümumiləşdirdikdə

aydın olur ki, davamlı inkişafın əsasını sosial-iqtisadi və ekoloji sahələrin əsas bünövrəsi olan yaşıl iqtisadiyyat təşkil edir.

Azərbaycanda davamlı inkişafın tərkib hissəsi kimi ölkə Prezidenti İlham Əliyev yaşıl iqtisadiyyatın inkişafı istiqamətində davamlı və uğurlu siyasət həyata keçirir. Münaqişədən sonrakı dövrdə regionun iqtisadi potensialının reallaşdırılması məqsədilə yenidənqurmada metodoloji yanaşmalara və qabaqcıl beynəlxalq təcrübəyə əsaslanaraq "Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinin bərpası və inkişafı Konsepsiyası" sənədi hazırlanmışdır. Bu sənəd ərazinin bərpası prosesini ön planda saxlamaq üçün prinsipləri müəyyən edir. Bu prinsiplər aşağıdakılardır:

1. Bərpa olunmuş ərazilərə qayıdış vaxtı yüksək əhali sıxlığına nail olması;
2. İnfrastrukturun təminatının həmin bölgənin logistik imkanlarına uyğunlaşdırılması;
3. İnsanların repartasiyası vaxtı sosial ədalət prinsipinə riayət edilməsi və mülkiyyət hüquqlarının bərpa olunması;
4. İqtisadi inkişafın davamlılığının təmin edilməsi;
5. Tələb edilən investisiyaların həcminin optimallaşdırılması;
6. Dövlət xərclərinin azaldılması üçün bərpa prosesinə dövlət və özəl, həm də xarici və yerli investisiyaların cəlb olunması, xüsusilə, özəl və dövlət sektor tərafdaşlığından geniş formada istifadə edilməsi;
7. Ərazilərin bərpa edilməsi prosesinin yeni istehsala tələb yaratması və ölkə iqtisadiyyatının artımının stimullaşdırılmasından ibarətdir.

Məqsəd işğaldan azad edilmiş ərazilərimizi "yaşıl enerji" zonasına çevirməkdir və bu istiqamətdə konkret addımlar atılır. Bildiyimiz kimi, "yaşıl enerji zonası" termini təkcə bərpa olunan enerji mənbələrindən enerji istehsal edən yerlər üçün istifadə edilmir. Bu bəyanatın əhatə dairəsi genişdir və ekoloji cəhətdən təmiz nəqliyyat növlərinin təşviqi, yaşıl məşğulluğun təmin edilməsi və resurslardan səmərəli istifadə kimi çoxşaxəli məsələləri əhatə edir. Bu məqsədlə işğaldan azad edilmiş ərazilərin "yaşıl enerji" zonalarına çevrilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Sənaye müəssisələrinin "yaşıl iqtisadiyyat"a töhfəsinə xüsusi diqqət yetirilir, günəş və külək enerjisindən istifadə imkanları araşdırılır. İşğaldan azad edilmiş ərazilərimizin "yaşıl enerji" zonasına çevrilməsi ölkəmizdə "yaşıl iqtisadiyyat"ın formalaşmasına böyük töhfə verəcək. Nəzərə alaq ki, işğaldan azad edilmiş ərazilərdə mövcud olan bütün infrastruktur düşmən tərəfindən dağıdılıb. Hazırda bu ərazilərdə infrastrukturun bərpası da "yaşıl iqtisadiyyat" prinsipləri əsasında həyata keçirilir, yeni salınmış şəhər və kəndlərdə, sənaye zonalarında ekoloji standartlara riayət olunması prioritetdir. İşğaldan azad edilmiş ərazilərdə "xalis sıfır emissiya" zonasının yaradılması ilə bağlı rəsmi bəyanat bunu sübut edir. Bir sözlə, növbəti illərdə işğaldan azad edilmiş ərazilərimiz "yaşıl iqtisadiyyat" prinsipləri əsasında inkişaf edən dünyada nümunəvi yerlərdən birinə çevriləcəkdir.

## YAŞIL İQTİSADİYYATDA EKOLOJİ RİSKLƏRİN İDARƏ EDİLMƏSİ PROBLEMLƏRİ

**Rövşən Ələkbərov**
**dosent**
**Məmmədəli Məmmədov**
**magistrant**
**Lənkəran Dövlət Univerisiteti**
**fizuli@list.ru**
**m.memmedeli@icloud.com**

Qlobal miqyasda ekoloji risklər ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərdiyi üçün ən böyük problemlərdən birinə çevrilib. Ekoloji fəlakətlər canlı

orqanizmlərin ölümünə, həyat keyfiyyətinin pisləşməsinə və əhəmiyyətli iqtisadi itkilərə, təbii ehtiyatların tükənməsinə, havanın, suyun və torpağın çirklənməsinə, əhəmiyyətli iqlim dəyişikliyinə səbəb olmuşdur. Bu baxımdan, ekoloji risklərin, onların nəticələrinin və onların minimuma endirilməsi yollarının təhlili müasir iqtisad elminin aktual problemlərindən birinə çevrilmişdir.

"Yaşıl" iqtisadiyyatın inkişafı prinsiplərinin sistemləşdirilməsi əsasında ekoloji risklərin qiymətləndirilməsi, qarşısının alınması və minimuma endirilməsi üzrə tədbirlər işlənib hazırlanmış və buna uyğun olaraq bir sıra vəzifələrin həllinə nail olunmuşdur:

- "yaşıl" iqtisadiyyatın qurulması prinsiplərinin təhlil olunub öyrənilməsi;
- ekoloji risklərin baş verməsi nəzəriyyəsi və praktikasının sistemləşdirilib öyrənilməsi;
- ekoloji risklərin qarşısının alınması və minimuma endirilməsi üsullarının tədqiqi;
- ekoloji risklərin azaldılması üçün tövsiyələrin hazırlanması və həyata keçirilməsi;
- "Yaşıl" iqtisadiyyata keçid təcrübəsinin ümumiləşdirilib reallaşdırılması;
- " ekoloji risk" nəzəriyyəsinin konseptual və kateqoriyalı çərçivəsinin işlənib hazırlanması;
- ekoloji və iqtisadi zərərin hesablanması metodunun işlənməsi;

Qeyd edə bilərik ki, xarici təcrübədə ekoloji risklərin qarşısının alınması və ekoloji rifahın yaxşılaşdırılması, təbiətin və insan həyatının keyfiyyətinin qorunması məqsədilə "yaşıl" iqtisadiyyatın qurulması strategiyası həyata keçirilir . Ətraf mühitə dəyən ziyanın və əlaqəli risklərin qiymətləndirilməsi daşınmaz əmlakın dəyərinin, investisiya layihələrinin səmərəliliyinin, habelə şirkətlərin kredit qabiliyyətinin qiymətləndirilməsinin məcburi mərhələlərindən biri kimi reallaşdırılır. Ekoloji risklərin qarşısının alınması və minimuma endirilməsi üzrə yerli təcrübə ətraf mühitə mənfi təsirləri əhəmiyyətli dərəcədə azalda bilir ki, bu da mühüm əhəmiyyət kəsb edir. Bundan başqa "yaşıl" iqtisadiyyat quraqlıq və iqlim dəyişikliyinin təsirlərini yumşaltmaq üçün layihələr həyata keçirə biləcək bir sıra perspektivli və geniş sahələri əhatə edir.

"Yaşıl" iqtisadiyyatın əsas xüsusiyyətlərinə aşağıdakıları daxil edə bilərik:

- təbii resurslardan efektiv istifadə olunması;
- təbii kapitalın qorunub saxlanması və artırılması;
- çirklənmənin azalması və aşağı karbon tullantıları, ekosistem xidmətlərinin və biomüxtəlifliyin itirilməsinin qarşısının alınması;
- gəlirlərin və məşğulluğun səviyyəsinin yüksəldilməsi;
- əhalinin maarifləndirilməsi;
- elm və texnikanın nəaliyyətləri hesabına alternativ resurs ehtiyyatlarının əldə olunması

Yaşıl" iqtisadiyyat iqtisadi, sosial və ekoloji problemlərə eyni anda həll yolunu tapmaq məqsədiylə yaradılmış konsepsiyadır. "Yaşıl" iqtisadiyyat mövcud resurslardan səmərəli istifadəsi ilə ətraf mütin qorunması və uzunmüddətli inkişafı təmin edən əsas istiqamətdir. Lakin ekoloji siyasət həyata keçirərək bu hədəfi təhlükəyə atmadan və xarici sərmayəni ölkədən uzaqlaşdırmadan bunu həyata keçirmək vacibdir. Bu vəziyyət çirkli sənayenin inkişaf etmiş ölkələrdən inkişaf etməkdə olan ölkələrə köçməsinə səbəb olur. Xüsusilə də sənayeləşmə və texnologiyanın inkişaf ilə birlikdə istehsal və istehlakın sürətlə artması nəticəsində atmosfer, su və torpaq sürətlə çirklənməyə, təbii resuruslar tükənməyə başlamış, təbiətin özünü bərpa etmə qabiliyyəti zərər görmüşdür.

Dünyada ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar və artan tələbat fonunda dayanıqlı inkişafa nail olmaq üçün "yaşıl" iqtisadiyyatın genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır. Belə ki, ölkəmizdə bu sahədə önəmli addımlar atılır. Buna misal kimi Prezident Cənab İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlanır. Sənəddə ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının

təşviqi, ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsi ilə bağlı qarşıya konkret tapşırıqlar qoyulub.

Azərbaycanda qurulmuş təkrar emal prosesi "yaşıl iqtisadiyyat"ın inkişafına, rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsinə, ekoloji vəziyyətin yaxşılaşdırılmasına xidmət edir.

Ölkəmizdə ətraf mühit siyasətinin müəyyən edilmiş istiqamətləri yaşıl iqtisadiyyatın prinsiplərinə uyğundur:

- Ətraf mühitin qorunması və çirklənmənin azaldılması üçün davamlı inkişaf prinsipləri əsasında yeni metodların tətbiq edilməsi;
- İndiki və gələcək nəsillərin ehtiyaclarının qarşılamaq məqsədi ilə təbii resurslardan effektiv istifadə etmək, qeyri-ənənəvi və alternativ üsullardan istifadə etməklə tükənməz enerji mənbələrindən yararlanmaqla enerji effektivliyinə çatmaq;
- Qlobal ekoloji problemlərin milli səviyyədə dəyərləndirilməsi və beynəlxalq təşkilatlarla əlaqələrin yaradılması.

Bütün bu qeud olunanlardan belə nəticəyə gələ bilərik ki, yaşıl iqtisadiyyatda ekoloji risklərin idarə olunması problemləri müəyyən hədəflərin reallaşdırılmasını özündə əks etdirir ki, bu da vacib əhəmiyyət daşıyır.

## YAŞIL İQTİSADİYYATIN İNKİŞAFINDA YAŞIL TEXNOLOGİYALARIN ROLU

**Rövşən Ələkbərov**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**rovsen1234@bk.ru**

Yaşıl iqtisadiyyatın inkişafına yaşıl texnologiyanın düzgün tətbiqi ilə nail ola bilərik və davamlı texnologiyaya doğru atılan hər bir addım ətraf mühitin qorunmasına töhfə verəcək. Demək olar ki, hər bir sektor yaşıl texnologiyalardan faydalanmaq potensialına malikdir. Yer kürəsinin rifahı naminə davamlılığa doğru atılan hər bir addım vacibdir. Təmiz texnologiyadan istifadə etməklə təbii ehtiyatların qorunmasına töhfə verə bilərik. “Yaşıl iqtisadiyyat” Azərbaycan iqtisadiyyatında mühüm əhəmiyyəti baxımından ölkənin sosial və ekoloji ehtiyaclarının qorunması üçün uzunmüddətli həyat qabiliyyətinin təmin edilməsi əhəmiyyətinə görə seçilir. Azərbaycan uzunmüddətli inkişaf strategiyasını yenidən müəyyən etmək mərhələsindədir. Ölkəmizdə yaşıl iqtisadiyyatın inkişafına ehtiyac var, çünki əhalinin sayının sürətli artımın davam etməsi, yeni texnologiyaların tədbiqi ekoloji risklər artmasına və təbii resurların tükənməsinə səbəb olur. Habelə enerji istifadəsi də iqlim dəyişikliyinə əhəmiyyətli dərəcədə təsir göstərir. Ümümdünya təbili kimi qeyd etsək dünyanın 33%- 2025-ci ilə qədər əhali su qıtlığından təsirlənə bilər. “Yaşıl iqtisadiyyatı digər rejimlərdən fərqləndirən xüsusiyyəti təbii kapitalın hərəkətliliyindən əlavə, ekoloji xidmətlərin iqtisadi dəyər kimi birbaşa qiymətləndirilməsidir. “Yaşıl etiket” praktikaları istehlakçıların ətraf mühitə dostluq və davamlı inkişaf göstəriciləri kimi ortaya çıxmaqla, bir çox qloballaşan sənaye iqtisadiyyatında yaşıllaşdırma təcrübələrini təşviq etmək üçün standartları qəbul etməyə başladı. Davamlılıq standartları kimi də tanınan bu normativlər satın alınan məhsulun ətraf mühit və istehlakçılara zərər verməməsinə zəmanət verən aktlar sistemidir. Son vaxtlar sayı kəskin artan bu standartlar indi daha çevik təsərrüfartın qurulmasında önəmli rol oynamaqdadır. Bu standartlara aşağıdakıları aid etmək olar: -Meşəçilik, mədənçilik, kənd təsərrüfatı və ya balıqçılıq kimi iqtisadi sektorlara diqqətin artırılması; - Su mənbələri və biomüxtəlifliyin qorunması; - İstixana qazı emissiyalarının azaldılması; - İşçilərin sosial müdafiəsi və hüquqlarını dəstəkləmək; - İstehsal proseslərinin xüsusi hissələrinə diqqəti artırmaq. Günümüzün ən böyük gözləntilərindən biri də bəşəriyyətin qarşıdakı onilliklərdə ciddi problemlərlə üzləşəcəyi ilə bağlıdır. Hansı ki, bu problemlərə xüsusilə artan gəlir

bərabərsizliyi və iqlim dəyişikliyi aiddir. Lakin dünyanın hazırki sisteminə görə etiraf etmək lazımdır ki, ekoloji və iqtisadi məqsədlər arasında yaxşı balansı təmin etməyə onun potensialı tam kifayət etmir. “Azərbaycan Respublikası “yaşıl iqtisadiyyat”ın inkişafı ilə bağlı mövcud olan potensialın reallaşdırılması istiqamətində dövlətin dəstəyi də yeni imkanlar açır. Ölkəyə yaşıl investisiyaların cəlb edilməsi, “yaşıl maliyyələşdirmə” təşəbbüslərinin dəstəklənməsi də bu baxımdan əhəmiyyət kəsb edir.Təsadüfi deyildir ki, Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlanır. Burada ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsi ilə bağlı qarşıya konkret tapşırıqlar qoyulub”.Azərbaycanda iqtisadiyyatın modernləşdirilməsi, innovativ inkişafı, rəqabət qabiliyyətinin artırılması, enerji səmərəliliyinin təmini ilk növbədə iqtisadi artıma istiqamətləndirilsə də, əslində əsas məqsəd hər bir insanın həyat şəraitinin yaxşılaşdırılması və gələcək nəsillərin normal rifah şəraitinin təmin edilməsidir. Bu məsələ hazırda formalaşdırılmaqda olan informasiya cəmiyyəti iqtisadiyyatının prinsipləri əsasında davamlı inkişafın təmini kimi müəyyənləşdirilmişdir. Bu isə dünya və ölkə miqyasında istehsalın və istehlakın ekolojiləşdirilməsini zəruri edir.

# ABŞERON YARIMADASI PARK VƏ BAĞLARINDA *PİNUS ELDARİCA* MEDW. NÖVÜNƏ ƏTRAF MÜHİT DƏYİŞKƏNLİKLƏRİNİN TƏSİRİ

**Samirə Bağırova**
**Dosent**
**Leyla Atayeva**
**mütəxəssis**
**Lalə Nəsirli**
**mütəxəssis**
**Səriyyə Əhmədova**
**mütəxəssis**
**Cəmalə Ağayeva**
**mütəxəssis**
**Mirhüseyin Səfərov**
**mütəxəssis**
**Bakı Şəhər İcra Hakimiyyəti Başçısının tabeliyində**
**“Dendrologiya Bağı” Publik Hüquqi Şəxs**
**samira.baqirova.2013@mail.ru**
**lalenesirli280@gmail.com**

**Açar sözlər:** *Pinus eldarica Medw.*, iqlim, introduksiya

Buzovna, Mərdəkan, Albalı qəsəbələrində, Bayıl yamacının şimal-cənub hissəsində, Şəhidlər Xiyabanının ətrafında, Nərimanov rayonunun Aşıq Molla Cümə küçəsində, o cümlədən Nizami rayonundakı park və bağlarda “Qırmızı Kitab”a düşən Eldar şamı ağaclarında quruma hallarının genişlənməsi mühüm problemlərdən biridir. İqlim dəyişkənliyi, avtomobil nəqiliyyatından atılan zəhərli qazlar, göbələk və həşərat xəstəlikləri (qabıq böcəkləri və adi şam yastıcası) Eldar şamlarında kütləvi quruma səbəbləri kimi qiymətləndirilmişdir.

Müasir dövrümüzdə iqlim dəyişkənlikləri, antropogen təsirlər və təbii ehtiyyatlardan qeyri-səmərəli istifadə ətraf mühit şəraitinin dəyişməsinə səbəb olmuşdur. Qısa dövr ərzində canlı orqanizmə göstərilən təsir dərin mahiyyət daşımır və onu canlı sadə yolla rədd edir. Uzun müddətli stresslər isə bilavasitə canlıya ciddi təsir göstərir, ya orqanizmin maddələr mübadiləsinə qoşulur, ya da bu təsirə qarşı əks təsir göstərərək stressi neytrallaşdırır. Müxtəlif növlər eyni dərəcədə mühit amillərinə uyğunlaşa bilmirlər. Abşeron yarımadasının quru subtropik iqlim şəraitində ən çox introduksiya edilən çılpaqtoxumlu bitkilərdir və onlar ekoloji şəraitə uyğunlaşa bilmiş, boy və inkişafını təmin edə bilmişlər.

Azərbaycan meşələrində təbii halda qarmaqvari şam (*Pinus hamata* Sosn.) və Eldar şamı (*Pinus eldarica* Medw.) yayılmışdır. Eldar şamı Azərbaycan florasının endem bitkisi olub, "Qırmızı Kitab"a daxil edilmişdir. Əsasən, Gəncə şəhərindən 60 km aralı Elləroyuğunda (Eldar oyuğu), dəniz səviyyəsindən 400-600 m yüksəkliklərdə 416 ha sahədə Cənubi Qafqazın mərkəzində, Qabırrı çayının sağ sahilində təbii halda yayılmışıdr. İ.S.Səfərova (1962) görə, Eldar şamı keçmişdə mərkəzi Zaqafqaziyada geniş sahə tutmuş, lakin müxtəlif səbəblərdən sayı azalmışdır. *Pinus eldarica* Medw. yaşıllıq sahələrin genişləndirilməsi üçün istifadə edilir, beləliklə həm də mühafizə olunaraq azalmasının qarşısı alınır. Şam ağaclarının arasında quraqlığa və çirklənməyə ən davamlı bitki olan *Pinus eldarica* Medw. Abşeronun iqlim şəraitinə uyğun gəlir və vegetativ, generativ inkişaf tsiklinini tamamlaya bilir. *Pinus eldarica* Medw.-in kök sistemini öyrənərkən məlum olmuşdur ki, birillik bitkinin hündürlüyü 20 sm, əsas kökünün uzunluğu 15 sm, birinci dərəcəli köklərin sayı çox olub, uzunluğu 25 sm-dir. İkinci dərəcəli yan köklər çoxlu miqdardadır, uzunluğu 15 sm-ə çatır. Yan köklərin torpaqda yayılma diametri 40 sm-dir. Abşeronun isti iqlimi və su qıtlığı şəraitində bitkilərin anatomik quruluşu xeyli fərqlidir. Belə ki, *Pinus eldarica*-nın birillik iynələrində, vegetasiyanın orta dövründə (iyun-iyul aylarında), iynələrin anatomik quruluşu mikroskopla müşahidə edildikdə bəlli olmuşdur ki, ağızcıqlar iynələrin hər iki tərəfində ellips şəklində və kiçik həcmli olub, sıra ilə düzülmüşdür. Onların hərəkətləri NİKON mikroskopunda anatomik görünüşü toluol və ksilol məhlulları ilə işləndikdə belə, qapanma sürətinin zəif olduğu təsdiqləndi. Onu da qeyd etməliyik ki, vahid yarpaq səthində, *Pinus eldarica*-nın transpirasiya tezliyi xeyli zəifləyir və guman edilir ki, bu proses fotosintezin zəifləməsi və su qıtlığı nəticəsində yarana bilir.

Şam və digər iynəyarpaqlıların əksəriyyəti həmişəyaşıl adlansa da, onların iynələri əbədi olaraq canlı və yaşıl qalmır. Ümumiyyətlə, yeni iynələr hər yaz və yay aylarında əmələ gəlir. Ağac ildən-ilə böyüdükcə, yeni iynələr həmişə budaqların uclarında, köhnə iynələr isə tacdan daha uzaqda yerləşir. İynələr yaşlandıqca, ağac üçün qida istehsal etməkdə səmərəliliyi azalır, həmçinin yeni iynələr tərəfindən daha çox kölgələnirlər. Bu səbəblərə görə köhnə iynələr qəhvəyi rəngə çevrilir və budaqdan düşür. Əgər daxili hissələrindəki iynələrin üçdə biri ilə dörddə biri tökülürsə, bu, iynələrin qocalmasının əlamətidir. Əgər budaqların ucunda iynələri itirirsə, bu zaman bitki üçün narahatlıq doğurur, çünki bu iynələr cavandır və faydalılığı ötməmişdir. Ağacın bir tərəfindəki iynələr sarı və ya qəhvəyi rəngdədirdə, lakin ağacın digər tərəfi hələ də sağlam görünürsə, günəş yanığının əlamətidir. Həmçinin, qışda qeyri-adi quru hava və aşağı torpaq rütubəti iynələrin qurumasına səbəb ola bilir.

Eldar şamında quruma halları iki cür görünə bilər: yuxarıdan aşağı və aşağıdan yuxarı. Şam ağaclarının yuxarıdan aşağı quruması geri çəkilmə adlanır. Buna göbələk xəstəliyi, həşərat infestasiyası və ya sərt hava şəraiti də daxil olmaqla bir sıra səbəblərdən ola bilər (çox isti və ya uzun yay). Yüksək temperatur, havanın çirklənməsi və quru iqlim ağaclara əlamətlərini dərhal göstərməsələr də təsir edir. Aşağıdan yuxarı doğru quruma kifayət qədər günəş işığına məruz qalmayan budaqlarda və su stressi zamanı, *Sphaeropsis* zərərvericisi, göbələk xəstəliyi və ya başqa növ zərərverici il yoluxma zamanı görülə bilər. Şam ağaclarında su stressi iynələrin aşağıdan yuxarıya doğru məhv olmasına səbəb ola bilər. Təbii reaksiya olaraq ağac digər hissələrindən stressi aradan qaldırmaq üçün aşağı budaqları

quruyur. Eldar şamlarında iynələr qəhvəyi rəngə çevrilirsə, bu zəif suvarma və ya qida çatışmazlığının əlamətidir.

İynəyarpaqların yüksək temperatura davamlılığı iynələrin anatomik quruluşunda kutikula təbəqəsinin olması, ağızcıqların sayı çox, həcmi isə kiçik olması ilə əlaqədardır. Teperaturun təsirindən iynəyarpaqlı növlər daha çox su sərf edir, su qıtlığı şəraitində sitoplazmada plazmoliz yaranır, iynələr quruyur və erkən tökülməyə başlayır. Sahil zonalarında Buzovna, Bilgəh, Şüvəlan və Mərdəkanda iynəyarpaqlılardan ən çox *Pinus eldarica* Medw. növü introduksiya olunmuş və onlar qrup halında park və xiyabanlarda yerləşmişdir. Şam cinsinin müxtəlif növləri mənşəy etibarı ilə duzadavamlı olduqlarından, Abşeronun bozqır torpaqlarındakı zəif və orta şoranlaşmaya davamlı olurlar. Lakin düzgün aqrotexniki qulluq edilməməsi və zəif suvarma, az gübrələmə səbəbindən iynələrin tökülməsinə və ya bitkinin qurumasına səbəb olur.

## ABŞERONDA *PSIDIUM GUAJAVA* L. NÖVÜNÜN İNTRODUKSİYASI VƏ YAŞILLAŞDIRMADA İSTİFADƏ PERSPEKTİVLİYİ

**Samirə Bağırova**
**dosent**
**Şəbnəm Əşrəfova**
**mütəxəssis**
**Fəridə Hüseynova**
**mütəxəssis**
**Sevinc Yusifova**
**mütəxəssis**
**Bakı Şəhər İcra Hakimiyyəti Başçısının tabeliyində**
**Dendrologiya Bağı “Publik Hüquqi Şəxs”**
**samira.baqirova.2013@mail.ru**
**shabnam_ashrafova@mail.ru**
**fada25@rambler.ru**
**Sevincrehimova9@gmail.com**

**Açar sözlər:** *Psidium guajava* L., Abşeron yarımadası, introduksiya, yaşıllaşdırma

Abşeron yarımadasında ətraf mühitin, ekoloji tarazlığın qorunmasını təmin etmək məqsədilə yaşıllaşdırmada yerli torpaq-iqlim şəraitinə davamlı ağac və kol bitkilərinin seçilməsi, introduksiyası, bioekoloji xüsusiyyətlərinin öyrənilməsi və becərilməsinin yeni aqrotexniki üsullarının işlənib hazırlanması dövrümüzün aktual problemləri sırasına daxildir. Xüsusilə relikt və endemik bitki növlərinin, yabanı, habelə mədəni subtropik meyvə və texniki bitkilərin sort, forma, növ müxtəlifliklərinin toplanılması, onların qonşu xarici subtropik məntəqələrdən introduksiya olunması, seçilməsi, tətbiqi tədqiqat işinin prioritet istiqamətlərindəndir.

Tədqiqat işinin başlıca məqsədi Yarımadada bitki örtüyünün zənginləşdirilməsi sahəsində elmi tədqiqatları daha geniş məcrada, müasir tələblər səviyyəsində, bu və digər subtropik meyvə, texniki bitkilərin genefondunu toplamaq, öyrənmək, qorumaq və zənginləşdirmək kimi mühüm məsələlərdir. Təbii bitki örtüyü ilə zəngin olmayan, sənaye müəssisələrinin çox yerləşdiyi, quru subtropik iqlimə malik Abşeronun yaşıllaşdırılmasında bu vacib məsələlərdən biri kimi qarşıda durur. Yarımadanın bioekoloji xarakterini nəzərə alaraq, yüksək davamlılıq əlamətləri ilə seçilən ağac və kol bitkilərindən istifadə edilməsi məqsədəuyğundur. Bu bitkilərdən dekorativ əlamətləri ilə fərqlənən quayava (*Psidium guajava* L.) yaşıllaşdırılmada mühüm əhəmiyyət kəsb edir. Dekorativ məqsədlər üçün istifadə edilə bilər.

Quayava həmişəyaşıl bəzək ağacıdır. Quayavalar soyuğa yaxşı reaksiya verməyən, isti hava bitkiləridir. Bu bitki nisbətən rütubətli şəraiti sevir. Bitki böyümə şəraitindən asılı olaraq 5-8 ildən sonra tam məhsuldarlığa çatır. Sarı-yaşıl quayava meyvələri şirin və turşdur, dadına görə çiyələyə bənzəyir. Onların tərkibi C vitamini və dəmir ilə zəngindir. Yarpaqları çay kimi dəmlənə bilər. Quayava uzunömürlü bir ağac deyil (təxminən 40 il). Tropik şəraitdə bitki 6 metr hündürlüyə çata bilər, lakin ev və ya dibçək bitkisi kimi, daha kiçik olaraq qalır. Yaxşı inkişaf etməsi və meyvə verməsi üçün quayava ağacları tam günəşdə əkilməlidir. İldə 2 dəfə - yaz və payız aylarında əkilir. Bitkini mütəmadi olaraq suvarmaq lazımdır. Bu bitki suya tələbkardır, ancaq köklərin zədələnməməsi üçün suvarma tezliyinə diqqət edilməlidir. Yenidən suvarmadan əvvəl torpağın səthinin qurumasını gözləmək lazımdır. *Psidium guajava* L. bitkisi üçün 22-28ºC temperatur və az nəmli torpaq əlverişlidir. Yetkin ağaclar soyuğa kifayət qədər davamlıdırlar və 5 dərəcədən aşağı temperatura dözə bilirlər, lakin gənc bitkilər belə soyuğa tab gətirə bilmirlər. Xüsusilə, qırmızı quayava növləri digər növlərə nisbətən soyuğa daha davamlıdır. Həddindən artıq nəmlik və yanlış torpaq növü ağacın xəstələnməsinə səbəb ola bilər. Yaxşı nəticə üçün 1-2 aydan bir bitkini gübrələmək lazımdır (yüksək fosforlu gübrələrdən istifadə əlverişlidir.). Bitki yetkinləşdikcə ildə 3-4 dəfə gübrələmək lazımdır.

Növün Abşeron yarımadasında inkişaf xüsusiyyətlərini müəyyən etmək məqsədilə "Dendrologiya Bağı" Publik hüquqi şəxsin "Landşaft memarlığı və sistematika" laboratoriyasının əməkdaşları tərəfindən, bitkinin müxtəlif ölçülü yeniyetmələri təcrübə sahəsinə introduksiya edilmişdir. İlk dəfə Azərbaycanın subtropik bölgəsinə gətirilmiş ekzotik, qırmızı və sarı Quayava bitki növü üzərində tərəfimizdən fizioloji, ekoloji və morfoloji təyinatlar aparılmışdır. Növün fotosintez prosesinin fəallığı, $CO_2$ qazının udulması, transprasiya sürəti və yarpağın temperaturu müasir cihaz - Plant Photosynthesis meter-3051 C vasitəsilə öyrənilmiş, tədqiqat bitkilərinin yarpaqlarını bitkidən ayırmadan xlorofilin miqdarı SPAD-502 Plus Chlorophyll meterlə avtomatik olaraq hesablanmışdır. Quayava bitki növündə səhər saatlarında 3051C bitkinin fotosintez ölçmə cihazı vasitəsilə havanın temperaturu, sudan istifadənin səmərəliliyi, karbon qazının miqdarı, fotosintetik aktiv şüalanma, nisbi rütubət təyin edilmişdir. Bağın təcrübə sahəsinə introduksiya edilmiş *Psidium guajava* L. növünün fotosintez parametrlərinin dinamikası açıq (Open C.) və qapalı (Close C.) şəraitdə elmi əsaslarla təhlil edilmişdir. Alınmış nəticələr qrafik, diaqram və riyazi ədədlərin məlumatı cədvəllərdə verilmişdir. Tədqiqat işində, qapalı şəraitə nisbətən açıq şəraitdə növün fotosintez parametrlərinin göstəriciləri daha yaxşı müşahidə edilmişdir.

Eyni zamanda, *Psidium guajava* L. növünün yaşıllaşdırmada istifadəsi üzrə elmi araşdırmalar aparılmışdır. Aparılan elmi-tədqiqat işləri nəticəsində müəyyən edilmişdir ki, bitki fenoloji inkişaf mərhələlərini normal keçirir, Abşeronun torpaq-iqlim şəraitinə uyğunlaşır, perspektivlidir, landşaft memarlığı əsasında şəhər yaşıllaşdırılmasında və müxtəlif formalı kompozisiyaların tərtibatında geniş istifadə oluna bilər.

# YAŞIL İQTİSADİYYATDA EFİR YAĞLI BİTKİLƏRİN TƏTBİQİ

**Samirə Bağırova**
**dosent**
**Şənay Albalıyeva**
**elmi işçi**
**Aydan Ağamalıyeva**
**elmi işçi**
**Bakı Şəhər İcra Hakimiyyəti Başçısının tabeliyində**
**Dendrologiya bağı Publik hüquqi şəxs**
**samira.baqirova.2013@mail.ru**
**Senayalbalıyeva@gmail.com**

**Açar sözlər:** yaşıl iqtisadiyyat, efir yağlı, Eldar şamı

"Yaşıl iqtisadiyyat "təbii mühitin bir hissəsi olan , eyni zamanda ,ondan asılı olan bir iqtisadiyyatdır."Yaşıl iqtisadiyyat"ın konsepsiyası iqtisad elmində və fəlsəfədə mövcud olan postmodernizm ,resursyönümlü iqtisadiyyat ,ekoloji iqtisadiyyat , ətraf mühitin iqtisadiyyatı , yaşıl siyasət və s. kimi bir çox istiqamətlərini ideyalarını özündə əks etdirir. Yaşıl iqtisadiyyat (green *economy*) iqtisad elmində son onilliklərdə meydana gəlmiş yeni istiqamətdir.Bu təbii mühitin bir hissəsi olan ,həmçinin ondan asılı olan bir istiqamətdir. Yaşıl iqtisadiyyatın konsepsiyası iqtisad elmində mövcud olan resursyönümlü iqtisadiyyat,ekoloji iqtisadiyyat, ətraf mühitin iqtisadiyyatı, yaşıl iqtisadiyyat və s. kimi bir çox istiqamətlərinideyalarını özündə birləşdirir. " Yaşıllaşdırma" prossesi cəmiyyətin və iqtisadi inkişafın yeni mərhələsi kimi təqdim olunmuşdur. Bunun formalaşmasında ilk növbədə təbii ehtiyyatlardan səmərəli istifadə məsələlərinə diqqət yetirilmişdir. Müasir dövrdə formalaşmaqda olan informasiya iqtisadiyyatının " yaşıllaşdırması istiqamətində yeni İKT texnologiyalarının tədqiqi təklif olunmuşdur.

Dünyada ətraf mühitin çirklənməsi ,azalan təbii ehtiyyatlar ,iqlim dəyişmələri və artan tələbat fonunda dayanıqlı inkişafa nail olmaq üçün "yaşıl iqtisadiyyat" ın genişləndirilməsi onun müasir tələblər səviyyəsində inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlər böyük əhəmiyyətə malikdir.

Həmçinin müasir dünyada ekoloji problemlər arasında baş verən fəlakətlər cəmiyyət üçün nüvə müharibəsi qədər təhlükəli olmuşdur. Məhz bu təhlükələrin aradan qaldırılması istiqamətində ekologiyanın müxtəlif bölmələrində geniş axtarışlar aparılır. Məlumdur ki, iqlimin dəyişilməsi biomüxtəlifliyin itirilməsinin başlıca səbəbidir. Bir sözlə, iqlimin dəyişməsinə biomüxtəlifliyə təhlükə törədir. Nə qədər acınacaqlı olsa da, XXI əsrin başlanğıcında bəşəriyyət iqlim dəyisiklikləri ilə üzbəüz qalıblar. Abşeron yarımadasının əsas ekoloji problemləri sırasında biomüxtəlifliyin seyrəkləşməsi, xüsusən də floranın azalması mühüm yer tutur. Azərbaycan Respublikasının, xüsusən də Abşeron yarımadasının nadir, nəsli kəsilmək təhlükəsi ilə üzləşən ağac-kol bitkilərinin çoxaldılmasıdır. Buna əsasən tədqiqat obyekti kimi Dendrologiya bağı ərazində olan Şam (*Pinus* L.) cinsinə aid olan Eldar şamı (*Pinus eldarica* Medw.) növü götürülmüşdür. Eldar şamı da nəsli kəsilməkdə olan nadir və həmisəyaşıl ağacdır. Torpağa tələbkar deyil, quraqlığa, istiyə, soyuğa, şoranlığa davamlıdır. Azərbaycanın Qırmızı kitabına daxil edilmişdir. Eldar şamı əlverişli şəraitdə hündürlüyü 20 m-ə qədər çatır. İynəyarpaqlarının uzunluğu 12-15sm -ə qədər olub, kənarları narın dişli, ucları azca sivriləşmiş rəngi göy rəngdədir.

Efir yağı istehsal etmək üçün müxtəlif bitkilərdən istifadə edilir. Efir yağlarının tərkibində olan bioloji fəal maddələr insanlara fizioloji, psixoloji, müalicəvi və s. cəhətdən unikal təsir göstərir. Ölkəyə xaricdən gətirilən dərman preparatlarının yerli fitopreparatlarla

əvəz edilməsi və xalq təsərrüfatının müxtəlif sahələrində efir yağlı bitkilərdən daha çox istifadə olunması - bu qrup bitkilərin öyrənilməsini tələb edir. Bu məqsədlə Şamkimilər fəsiləsinə aid olan Eldar şamı növündən efir yağı alınmış və onların çıxım faizi hesablanmışdır. Eldar şamı (*Pinus eldarica* Medw.) üçün çıxım faizi 0.3% təşkil etdi. Alınmış efir yağının iyi spesifik xoşa gələn qoxuya, malikdir. Məqalədə *Pinus eldarica* Medw. növündən alınan efir yağının qaz-xromotoqrafiya üsulu ilə analizinin nəticələri, efir yağının komponent tərkibi verilmişdir. Xromotoqrafik analizin nəticəsindən məlum oldu ki, efir yağında Sabinen (41.103) və Citeonelly butyrate (19.130) maddələri daha yüksək konsentrasiyaya malikdir. Ylangenal (0.081) və beta pinen (0.092) maddələri isə ən az konsentrasiya göstərmişdir.

Bitkilərdən alınan efir yağlarının kəmiyyət və keyfiyyət dinamiki inkisaf fazalarından asılı olaraq dəyişə bilər. Şam yağından alınan efir yağı qidalandırıcı və müalicəvi təsirə malikdir. Bu yağ orqanizmdən asanlıqla sorulur, orqanizmi vitamin və minerallarla zəngin qidalandırır. Onun tərkibində olan vitamin və minerallar isə orqanizm tərəfindən qısa müddət ərzində sorulur. Tərkibində olan linaool qanda xolesterinin miqdarını aşağı salmaq qabiliyyətinə malikdir. Bu maddələrin orqanizmdə olması qan-damar xəstəliklərinin və respirator xəstəliklərinin qarşısını alır. Eldar şamının iynəyarpaqlarının tərkibində olan efir yağından müxtəlif ölkələrdə xalq təbabətində geniş istifadə edilə bilir. Bu da "Yaşıl iqtisadiyyat"da tətbiq oluna bilər. Xalq təbabətində şam qozası yağından mədə-bağırsaq sisteminin xəstəliklərində, xroniki pankreatitdə, mədə yarasında geniş istifadə edilir. Şam ağacının tərkibində olan efir yağı aşağıdakı müalicəvi xüsusiyyətlərə malikdir: ümumi müqavimət artırıcıdır, xronilki yorğunluğu aradan qaldırmaq xüsusiyyətinə malikdir, fiziki və zehni yorğunluğu aradan qaldırır, dəri xəstəliklərini sağaldır, keçəlləşmənin qarşısını alır, saçlardakı quruluğu aradan qaldırır, klimakterik əlamətləri azaldır, psixoemosional gərginliyi aradan qaldırır, orqanizmin sağlamlaşmasını sürətləndirir, orqanizmdən ağır metal duzlarının xaric olmasına səbəb olur. Bu və bu kimi bitkilərin efir yağlarının alınması, tərkibinin öyrənilməsi və kommersiyalaşdırılması "Yaşıl iqtisadiyyat"da öz töhfəsini verəcəkdir. Bunun üçün bitkilərin sadəcə dekorativ məqsədli istifadəsi yox, iri plantasiyaları salınmalı və mövcud olan bitkilər də qorunub saxlanılmalıdır.

## YAŞIL İQTISADİYYATIN İNKİŞAFI NAMİNƏ AQRAR SEKTORUN RƏQƏMSALLAŞDIRILMASI

**Səbinə Əsədova**
**böyük elmi işçi**
**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun "Post-konflikt ərazilərin bərpası Elmi Mərkəzi"**
**sabina_esedova@mail.ru**

Sosial-iqtisadi fəaliyyətin bütün sahələrində informasiya və telekommunikasiya texnologiyalarından (İKT) istifadənin keyfiyyətcə yeni səviyyəsinə keçidlə səciyyələnən "yaşıl" və rəqəmsal iqtisadiyyatın inkişafı sinergik şəkildə bağlıdır. Müasir dövrdə "yaşıl iqtisadiyyat"ın yaranması iqtisadi inkişafın prioritetlərindən biridir. Rəqəmsal texnologiyalardan istifadə isə yaşıl iqtisadiyyata keçidi daha az xərctutumlu edir, eyni zamanda bu texnologiyalardan istifadə edən müəssisələrin mənfəəti və bununla da fəaliyyətlərinin səmərəliliyi artır. İqtisadiyyatın aqrar sektoru təbii ehtiyatlardan çox asılı olduğundan yaşıl iqtisadiyyata keçiddə də mühüm rol oynayır.

Müasir dövrdə dünyada gedən tendensiyalara nəzər salsaq görərik ki, aqrar sektorda rəqəmsal texnologiyaların təbiqi genişlənməkdədir. Kənd təsərrüfatı istehsalçıları ətraf mühitin daha da yaşıllaşdırılması – rəqəmsal texnologiyaların aqrar sektorda iqtisadi-ekoloji effektlərinin artırılması və bununla da kənd təsərrüfatının dayanıqlığının təmin edilməsi

istiqamətində müvafiq tədbirlər həyata keçirirlər. Beynəlxalq təcrübənin öyrənilməsi göstərir ki, belə tədbirlərdən biri də aqrar sektorda mühüm əhəmiyyət kəsb edən kənd təsərrüfatı müəssisələrində İKT-nin tətbiqinin genişləndirilməsidir. İKT-dən istifadə etməklə ətraf mühit və torpaq şəraitinin monitorinqi təsərrüfatların rentabelliyini və davamlılığını yüksəltməyə təsir edə bilər. Belə ki, sensorlar və monitorinq sistemlərinin köməyi ilə fermerlər bitkilərin suya və gübrəyə olan tələbatını dəqiq müəyyən edə, bununla da lazımsız istehlakı azalda və tullantıları minimuma endirə bilərlər. Bu, təbii ehtiyatlardan daha səmərəli istifadəyə və ətraf mühitə mənfi təsirlərin azaldılmasına kömək edir.

Beləliklə İKT-nin aqrar sektorda geniş tətbiqi nəticəsində artan kənd təsərrüfatı mənfəəti bu sahədə yeni iş yerlərinin yaradılmasına, kənd yerlərində gəlirlərin artmasına və şəhərlərə miqrasiyanın azalmasına səbəb ola bilər ki, bu da öz növbəsində şəhər infrastrukturu və resurslarına təzyiqi azaltmaqla yaşıl iqtisadiyyatın inkişafına töhfə verə bilər. Bütün deyilənlər tədqiqat işində aşağıdakı sualın yaranmasına səbəb olur:

İKT-nin kənd təsərrüfatı müəssisələrində tətbiqi hansı göstəricilərə təsir edə bilər?

Qarşıya qoyulan suala cavabın tapılması üçün ilk əvvəl aqrar sektorun rəqəmsallaşmasının qiymətləndirilməsi üzrə mövcud metodoloji yanaşmaların öyrənilməsi zərurəti yaranmışdır. Sözügedən istiqamətdə araşdırmaların əsasında aqrar sektroun rəqəmsallaşmasında iştirak edən göstəricilər müəyyən olunmuş və bu göstəricilər içində, zənnimizcə, kənd təsərrüfatı sahəsinin kompüter, internet avadanlıqları, proqarm təminatı və s. üzrə lazımi texnologiyalarla təchizatı üzrə əsas göstərici sayılan - İKT-ə çəkilən xərclər və kənd təsərrüfatının iqtisadi göstəriciləri ilə arasında sıx əlaqənin olması hipotezi irəli sürülmüşdür.

Tədqiqat obyekti kimi Azərbaycanın 14 iqtisadi rayonlarındakı kənd təsərrüfatı müəssisələri seçilmişdir. Bu müəssisələrdə İKT-nin tətbiqi üzrə statistik məlumatlardan istifadə üçün AR DSK-ya rəsmi müraciət edilmiş və nəticədə müvafiq göstəricilər əldə edilmişdir.

Beləliklə, tətqiqat işində Azərbaycanın 14 iqtisadi rayonunda mövcud olan kənd təsərrüfatı müəssisələrində 2021-ci ildə İKT-yə yönəldilən xərclər (göstəricilər DSK-nın 26.07.2023-cü il tarixli 3-34/2-369/02-2/2023 nömrəli məktubuna qoşmadan götürülmüşdür) sərbəst dəyişən, həmin müəssisələrin ümumi mənfəəti isə asılı dəyişən olaraq müəyyən edilərək reqressiya təhlili aparılmışdır. Bu asılılıqda korrelyasiya əmsalının vahidə yaxın olması ($R^2$ = 0,9484) onu göstərdi ki, tədqiq olunan göstəricilər arasında sıx asılılıq vardır, hansı ki, funksional asılılığa daha çox yaxındır. Bütün deyilənləri aşağıda təqdim olunmuş Qrafik 1-də daha aydın görə bilərik. Alınmış Y= 252,66x + 1205,1 reqressiya tənliyi üçün sərbəst dəyişənin 1% dəyişməsi nəticəsində asılı dəyişənin neçə faiz dəyişməsini ifadə edən elastiklik əmsalının ($E = a_1\bar{x}/\bar{y}_1$) hesablanması nəticəsində müəyyən olunmuşdur ki, kənd təsərrüfatı müəssisələrində İKT-ə çəkilən xərclərinin 1% artması həmin müəssisələrin ümumi mənfəətinin 0,94% artmasına səbəb olur.

**Qrafik 1.**

**Kənd təsərrüfatı müəssisələrində İKT-ə çəkilən xərclərlə ümumi mənfəətin arasındakı asıllıq**



Göründüyü kimi, hazırkı tədqiqatda irəli sürülmüş hipotez öz təsdiqini tapmışdır.

Ölkəmizin bölgələrində kənd təsərrüfatı müəssisələrində İKT-nin tətbiqinin genişləndirilməsinə yönəldilən vəsaitlərin artırılması ümumilikdə sahənin iqtisadi nəticələrinin yüksəldilməsinə səbəb ola bilər. Bununla belə, aparılmış reqressiya təhlilinin müsbət nəticələrinə baxmayaraq, öyrənilən metodologiyalara əsaslanaraq, onu da qeyd etmək lazımdır ki, kənd təsərrüfatı müəssisələrində İKT-nin iqtisadi artıma təsirinə nail olmaq üçün bu texnologiyaların uzunmüddətli dövrdə tətbiqi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, İKT-ə investisiyaların artırılması bu texnologiyalardan istifadə bacarıqlarının da yüksəldilməsi tətbirlərini ehtiva etməlidir. Nəzərə almaq lazımdır ki, Azərbaycanda kənd təsərrüfatı müəssisələrinin əksəriyyəti özəl, kiçik müəssisə statusuna malik təsərrüfatlardır, bu da təkcə yeni bahalı texnologiyaların tətbiqi deyil, həm də bu müəssisələrin maliyyə resurslarına çıxışı probleminin həllini, rəqəmsal savadlılığın artırılması məsələlərini zəruri edir.

Onu da qeyd etmək lazımdır ki, hazırkı tədqiqat rəqəmsallaşmanın kənd təsərrüfatı müəssisələrinin iqtisadi göstəricilərinə təsirinin qiymətləndirilməsində daha adekvat nəticələrə nail olmaq məqsədilə asılı olmayan dəyişənlərin siyahısının genişləndirməsi istiqamətində davam etdirilib. Tədiqatlar onu deməyə əsas verir ki, məhz yüksək innovasiya potensialına malik aqrar sektor ölkəmizdə yaxın perspektivdə "Yaşıl iqtisadiyyatın" inkişafı istiqamətində öz töhfəsini verməyə qadir ola bilər.

## MALİYYƏ İDARƏETMƏSİNİN ƏSAS MƏQSƏDİ, METOD VƏ FUNKSİYALARI

**Səriyyə Tağızadə**
**baş müəllim**
**Pərvanə Məhəmmədova**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**sariyyatagizade@gmail.com**
**pervanemehemmedova663@gmail.com**

**Açar sözlər:** Kreditləşmə, risk sığortası, vergitutma, proqnozlaşdırma, faktor təhlili

Maliyyənin idarə olunması istənilən biznesin əsas funksiyasıdır. Müasir dövrdə bu idarəetmədə ayrıca bir istiqamətdir və buna çoxlu alətlər, metodlar və anlayışlar aiddir.

Metodlar maliyyənin idarə olunma yollarıdır. Bunlara kreditləşmə, risk sığortası, vergitutma, proqnozlaşdırma, faktor təhlili və s. aid etmək olar.

Alətlər isə maliyyəni idarə etmək üçün istifadə dilən vasitədir. Alətlər dəsti şirkətin məqsədlərindən asılıdır. Ən çox yayılmış üç vasitə aşağıdakılardır:

- ERP sistemi. Bu, menecer üçün lazım olan bütün məlumatları saxlayan bir müəssisə idarəetmə sistemidir. Bu sistemə müqavilələrin siyahısı, onlarda olan məbləğlər, ödəniş şərtləri və s. daxildir. ERP sistemlərinə misal olaraq SAP, Oracle, 1C-ni göstərmək olar.
- Büdcə. İstənilən şirkət büdcəni kağız üzərində gəlir və xərclərin siyahısı olsa belə, saxlayır.
- Maliyyə modeli. Bu, bir neçə il üçün nəzərdə tutulmuş inkişaf planıdır. Maliyyə modeli gəliri, dəyəri, xalis mənfəəti və pul vəsaitlərinin hərəkətini proqnozlaşdırır. Model qərar qəbul etmək və risklərin qiymətləndirilməsi üçün lazımdır.

Maliyyənin idarə olunmasını səmərəli həyata keçirməklə şirkət öz resurslarını effektiv şəkildə idarə edə bilər.

Maliyyənin idarə olunması şirkətin bütün maliyyə və ya pul vəsaitlərinin hərəkətinin idarə edilməsidir. O, həm də elmi bir intizam və geniş bilik sahəsidir. O, maliyyə

idarəçiliyinin bütün müştərilərlə hesablaşmalardan tutmuş kapitalın artırılmasına qədər sahələrini əhatə edir.

Hər bir şirkətin pul vəsaitlərinin hərəkətini idarə etmək üçün kimin məsul olduğu onun ölçüsündən asılıdır. Mikrobiznesdə maliyyə ilə bağlı funksiyaları sahibi və ya menecer yerinə yetirir. Lakin onlar çox vaxt pul vəsaitlərinin hərəkətini bir mütəxəssisdən daha az effektiv şəkildə idarə edirlər.

Kiçik və orta biznesdə pul vəsaitlərinin hərəkətinin idarə edilməsi maliyyə meneceri tərəfindən həyata keçirilə bilər.

Böyük şirkətlərdə isə buna görə onlarla insanlar- menecerlər, iqtisadçılar, analitiklər və başqaları məsuliyyət daşıyırlar. Onlara maliyyə direktoru rəhbərlik edir. Məsələn, şirkətdə aşağıdakı şöbələr ola bilər:

- maliyyə analitikası şöbəsi;
- kapitalın artırılması və bu əməliyyatların dəstəklənməsi ilə məşğul olan korporativ maliyyə şöbəsi;
- büdcənin tərtibi, mühasibat uçotu, mənfəətin bölüşdürülməsi və nəzarəti ilə məşğul olan maliyyə idarəetməsi şöbəsi.

Maliyyənin idarə olunması şirkətin fəaliyyətinin digər sahələri ilə sıx bağlıdır. Buna görə də, maliyyə idarəetməsinə cavabdeh olan işçilər bir çox şöbələrlə qarşılıqlı əlaqədə olurlar.

Funksiyalar maliyyə menecerlərinin etdikləri, yəni iş sahələridir. Biznesin ən çox ehtiyac duyduğu dörd ənənəvi funksiya ilə bağlı aşağıdakıları qeyd edə bilərik:

1. Maliyyə planlaşdırması. Funksiyanın başqa adı büdcələşdirmədir. Maliyyə meneceri bütün şirkət üçün gəlirlər, xərclər və pul vəsaitlərinin hərəkəti üçün planlar tərtib edir. Sadə dillə desək, departamentlərin nə qədər pul alacağını, onu nəyə xərcləyəcəyini və nəticələrin necə olması lazım olduğunu qeyd edir. Çox vaxt belə planların müddəti bir aydır, lakin bəzən büdcə bir il əvvəldən tərtib edilir.

2. İnvestisiyaların idarə edilməsi. Mütəxəssis biznes planları və onlar üçün texniki-iqtisadi əsaslandırmaları tərtib edir, gəlirliliyi hesablayır və layihələrin investisiya cəlbediciliyini qiymətləndirir. Böyük şirkətlərdə bunu ayrıca bir işçi edə bilər, kiçik şirkətlərdə bu, həm də maliyyə menecerinin vəzifəsidir.

3. İdarəetmə uçotu. Bu idarəetmə qərarlarının qəbulu üçün məlumatların toplanması, saxlanması, təqdim edilməsi və strukturlaşdırılması sistemidir. Menecer mühasibat uçotu sistemini qurur, ona qulluq edir və menecerlərə hesabatlar təqdim edir. O, həmçinin plan və faktiki təhlili apara bilər. Yəni müəssisə planlaşdırılan göstəricilərə nail olub-olmadığını yoxlaya bilər.

4. Maliyyə nəzarəti. Menecer qarşı tərəflərlə qarşılıqlı əlaqədə olur. Beləki o, müqavilələrin şərtlərini yoxlayır və debitor və kreditor borclarına nəzarət edir.

Bütün bu funksiyaları bir maliyyə meneceri yerinə yetirə bilər.

Maliyyə idarəetməsinin əsas məqsədi şirkətin dəyərini artırmaq və mənfəətini maksimuma çatdırmaqdır. Bu qlobal məqsəd bir çox aşağıdakı məqsədləri ehtiva edir:

- Birinci vəzifə resurslardan səmərəli istifadə etməkdir. Tutaq ki, bir şirkət illik 24%-lə kredit götürüb və bu puldan istifadə etmir. Hesablarda yalan danışırlar və illik cəmi 16% gətirirlər. Bu, resursların səmərəsiz istifadəsidir. Maliyyə menecmentinin vəzifəsi bunun qarşısını almaqdır.
- İkincisi, xərcləri optimallaşdırmaqdır. Maliyyə meneceri hansı xərclərin azalda biləcəyini axtarır və bunun yollarını təklif edir. Tutaq ki, şirkət tez-tez xammal alır və ona çoxlu pul xərcləyir. Menecer tədarükçülərə 5% endirim müqabilində əvvəlcədən ödəniş təklif edə bilər və bu yolla o, xərcləri optimallaşdırır.
- Üçüncüsü, riskləri minimuma endirməkdir. Menecer şirkətin itkilərə məruz qalması riskini azaldır. Məsələn, şirkətin qarşı tərəflərdən pulu vaxtında almasını və kreditor borclarını gecikdirmədən ödəyə bilməsini təmin edir. Bu yolla o, ödənişlərin gecikdirilməsi səbəbindən yarana biləcək artıq ödəniş riskinin qarşısını alır.

- Dördüncüsü, maliyyə sabitliyini təmin etməkdir. Bu, öhdəlikləri ödəmək qabiliyyətinə aiddir. Menecer əmin edir ki, şirkətin cari və gələcək ödənişlər üçün həmişə kifayət qədər pulu olsun.

Klassik vəzifələrə həmçinin pul vəsaitlərinin hərəkətini optimallaşdırmaq, şirkətin imkanlarını qiymətləndirmək, gəlirliliyi təmin etmək və s. daxildir. Deyə bilərik ki, maliyyə menecmenti şirkətin bütün vəzifələrində mövcuddur.

**Nəticə**

- Maliyyə modeli əsas idarəetmə vasitəsidir. Onun köməyi ilə biznes qiymətləndirilir, zərərsizlik nöqtəsi hesablanır və layihənin inkişaf ssenariləri modelləşdirilir.
- Maliyyə meneceri mühasibat uçotunu başa düşməlidir, çünki o, tez-tez onunla işləyir.
- Biznesdə mənfəət - marjinal, ümumi, əməliyyat, xalis formalarda ola bilər. Menecer müxtəlif mənfəət növlərini başa düşməyi bacarmalıdır.
- Maliyyə meneceri perspektivli bir peşədir.

## AZƏRBAYCANDA YÜNGÜL SƏNAYE MÜƏSSİSƏLƏRİNİN DAVAMLI İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏRİN EKONMETRİK QİYMƏTLƏNDİRİLMƏSİ

**Təbriz Yadigarov**
**dosent**
**Aygül Dəmirova**
**doktorant**
**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun**
**“Post-Konflikt Ərazilərin Bərpası Elmi Mərkəzi”**
**Azərbaycan Kooperasiya Universiteti**
**tabrizyadigarov65@gmail.com**
**aygul.demirova@mail.ru**

Yüngül sənayenin inkişaf etdidilməsi, Azərbaycanın bütün regionlarında, o cümlədən, geniş potensiala malik olan post-konflikt ərazilərdə yerli müəssisələrin yaradılması hesabına kiçik və orta sahibkarlığın inkişafı stimullaşdıracaqdır. Bu sektorun inkişafı eyni zamanda, Qarabag və işğaldan azad edilmiş ərazilərə “Böyük Qayıdış” proqramına uyğun olaraq, burada məskunlaşacaq əhalinn məşğulluq səviyyəsinin artırılması ilə yanaşı, geyim, ayaqqabı və aksessuarlara olan tələbatın ödənilməsini təmin edərək, Azərbaycanın sosial-iqtisadi inkişafına dair 2030-cu ilədək milli prioritetlərin əsas istiqamətləri üzrə yaşıl iqtisadiyat və davamlı inkişafın respublikamızda həyata keçirilməsinin təmin edilməsində mühüm rol oynayacaqdır.

**1. Azərbaycan Respublikasında yüngül sənayenin inkişafı**

Qloballaşan dünya iqtisadiyyatında əhalinin həyat şəraitinin və alıcılıq qabiliyytinin yüksəlməsi, yüngül sanaye məhsullarına yaranan tələbi daha da artırır. Azərbaycanda yüngül sənaye məhsullarının istehsalının ümumi sənayedə payı 2022-ci idə 21% təşkil etməsinə baxmayaraq, yüngül sənayenin emal sənayesindəə payı 2022-ci ildə cəmi 3,2% təşkil etmişdir. Emal sənayesi üzrə yüngül sənayedə istehsal edilmiş məhsulların həcmi müstəqilliyin ilk illərində (1991-1993-cü ilərdə) yüksək olmasına baxmaaraq, sonrakı illərdə azalaraq 2003-cü ildə 36,2 milyon manat təçkl etmişdir. Bu isə həmin dövr üzrə 107,8 dəfə azalma deməkdir. Sonrakı illərdə isə bu göstərici artaraq 2022-ci ildə 576,2 milyon manat olmuşdur. Tədqiq olunan dövr üzrə yüngül sənaye məhsullarının emal sənayesində payı 1991-1993-cü illəri əhatə edən iqtisadi tənəzzül dövründə 22% təşkil edirdisə, 2022-ci ildə 3,2% təşkil etmişdir. 2022-ci ildə toxuculuq sənayesinin yüngül sənayedə payı 2,1%, geyim

istehsalının 0,9 %, dəri və dəri məmulatları, ayaqqabı istehsalının payı isə cəmi 0,1% təşkil etmişdir ki, bu da ölkəmizdə əhalinin yüngül sənaye məhsullarına olan tələbatının 90%-dən çoxunun idxal hesabına tənzimlənməsinə səbəb olmuşdur..

## 2. Azərbaycanda yüngül sənayenin davamlı inkişafına investisiyaların və texnoloji innovasiya xərclərin təsirinin Eviews-12 proqram paketində qiymətləndirilməsi

Davamlı inkişafın əsas göstəricisi kimi iqtisadi, sosial və ya ekoloji göstəricilər iqtisadiyyatın bütün sahələrində olduğu kimi emal sənayesi üzrə yüngül sənayenin inkişafının əsas prioritetlərindən biridir. Yaşıl dəyər zəncirlərinin inkişafını təşviq etməklə, iqtisadiyyatın bütün sahələri kimi yüngül sənayedə də, iqtisadi imkanları genişləndirməklə, istehsal əməliyyatlarını innovasiya etməklə, texnologiyalar və təcrübələri modernləşdirməklə əlavə dəyərli fəaliyyətlərə inteqrasiya etmək olar.Yüngül sənaye müəssisələrinin davamlı inkişafı digər sənaye sahələri kimi onların şəhər yaradan olması ilə yanaşı əhalinin işlə təmin edilməsində mühüm rol oynayaraq sosial əhəmiyyət kəsb edir.İşgaldan azad edilmiş ərazilərin bərpası, artıq yüngül sənaye müəssisələrinin xammal təchizatı üçün münbit şərait yaradılmaqdadır. Yüngül sənayenin davamlı inkişafına bilavasitə gələcəkdə investsisiya qoyuluşunun həcminin və innovativ texnologiyaların tətbiqinə çəkilən xərclərin artması,yerli istehsalın həcmin artmasına müsbət təsir göstərəcəkdir. Bu baxımdan həmin göstəricilərin 2006-2022-ci illəri əhatə edən dövr üzrə statistik məlumatlarından istifadə etməklə, Eviews-12 proqram paketində qiymətləndirmə aparsaq aşağıdakı reqressiya matrisini alarıq.

**Cədvəl 2.1.**

**Azərbaycanda yüngül sənaye üzrə ümumi məhsulla əsas kapitala yönəldiən investisiyalar və inovasiya xərcləri arasındakı reqressiya analizinin matrisi**

| | | | | |
|---|---|---|---|---|
| Dependent Variable: Y | | | | |
| Method: Least Squares | | | | |
| Date: 04/19/24 Time: 06:52 | | | | |
| Sample: 2006 2022 | | | | |
| Included observations: 18 | | | | |
| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| X2 | 2.331.052 | 0.549167 | 4.244.706 | 0.0008 |
| X1 | 3.204.885 | 1.010.945 | 3.170.187 | 0.0099 |
| C | 9.041.903 | 2.509.771 | 3.602.681 | 0.0002 |
| R-squared | 0.563716 | Mean dependent var | | 3608.59 |
| Adjusted R-squared | 0.505561 | S.D. dependent var | | 5.295.874 |
| S.E. of regression | 1.190.054 | Akaike info criterion | | 1.945.168 |
| Sum squared resid | 226596.4 | Schwarz criterion | | 1.959.872 |
| Log likelihood | -11.10.059 | Hannan-Quinn criter. | | 1.946.630 |
| F-statistic | 11.85.607 | Durbin-Watson stat | | 2.134.266 |
| Prob(F-statistic) | 0.000545 | | | |

Mənbə: Eviews-12 proqram paketində müəlif tərəfindən tərtib edilib.

Azərbaycanda yüngül sənaye üzrə istehsal edilmiş məhsulların dəyəri ilə əsas kapitala yönəldiən investisiyalar və innovasiya xərcləri arasındakı reqressiya tənliyi Eviews-12 proqram paketinə əsasən aşağıdakı kimi olacaqdır:

**Y = 2.33105225685*X2 + 1.3810351441*X1 + 904.19032295**

Xətti reqressiya tənliyində izahdici dəyişənlərin və sərbəst həddin əmsalı onlraın standart xətasından əhəmiyyətli dərəcədə böyük olduğundan, modelə daxil olan izahedici dəyişənlər statistik əhəmiyyətlidir. Qaıqların normal paylanması üzrə histoqram normalıq testinə görə 95%-lik inamlı intervala ehtimal 0,05-dən böyük ( 2,91 > 0,05 ) olduğundan, model üzrə qalıqların normal paylanma qanununa tebidirlər. Fişer paylanmasına görə $F_{cədvəl}$=(a; m; n-m-1)=F(0,005;2;15)=4,49 olduğundan, F-Fişer kriteriyası=11,8 >

$F_{cədvəl}$=3,63. Yəni, xətti reqressiya tənliyinin statistik əhəmiyyətlidir. Darbon-Uotson statistikası üzrə böhran nöqtələri $d_l$=1,046, $d_u$=1,535 olduğundan, $d_u=1,535 \leq DW=2,134<4-d_u=1,866$ şərtini ödənilr.Yəni,qalıqların modeldə avtokorrelyasi yoxdur [4]. Bu isə reqressiya tənliyinın ümumən statistik əhəmiyyətli olmasını göstərir. Model statistikəhəiyyətli olduğundan, elastiklik əmsalını hesablamaqla aşağıdakı nəticəni alarıq.

$$E(innovasia) = 0{,}158,\ E(investisiya) = 0{,}59$$

**Nəticə**. Müəyyən edilmişdir ki, Azərbaycanda yüngül sənaye müəssisələrində əsas kapitala yönəldilən investisiyaların 1% artması, bu sahə üzrə istehsal edilmiş məhsulların 0,59 %, innovativ texnologiya xərclərinin 1% artması isə istehsalın həcminin 0,16% artmasına səbəb olur. Bu baxımdan respublikamızda yüngül sənayenin davamlı inkişafı məqsədi ilə innovativ texnologiyalara və əsas kapitala yönələnə xərlərin artırılması busektorun inkişafını şərtləndirə bilər.

## TURİZMİN İNKİŞAFI İSTİQAMƏTİNDƏ "YAŞIL İQTİSADİYYAT"IN ROLU

**Tural Xəlilov**
**dosent**
**Fatimə Həsənova**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**xalilovlive@gmail.com**
**fatime.hesenova.2001@mail.ru**

Azərbaycanda turizm sahəsində mövcud olan geniş imkanlar ölkəmizin bir sıra beynəlxalq təşkilatlarla turizmin inkişafı istiqamətində əməkdaşlıq etməsinə şərait yaradır. Bu beynəlxalq qurumlar arasında Dünya Turizm Təşkilatının, İslam Konfransı Təşkilatının, GUAM-ın, Müstəqil Dövlətlər Birliyinin və digər təşkilatların adlarını çəkmək olar. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, turizm iqtisadiyyata təsir göstərən güclü amildir. Dövlət büdcəsinin formalaşmasında,ticarət balansının sabitləşməsində turizm mühüm rol oynayır. Lakin turizmin rolu təkcə bununla bitmir, ölkədə turizmin dayanıqlı inkişafı ölkə iqtisadiyyatının bütün istiqamətlərinə mühüm təsir göstərir və ölkənin beynəlxalq imicinin formalaşması və nüfuzunun yüksəlməsinə zəmin yaradır.Azərbaycanda iqtisadiyyatın ən gəlirli sahələrindən olan turizmin inkişafı son illərdə diqqət mərkəzindədir və bu sahədə böyük uğurlar əldə edilib. Turizmin inkişafı üçün lazım olan bütün infrastruktur yaradılıb. Ölkəmizdə turizm sektorunun inkişafı Prezident İlham Əliyevin adı ilə bağlıdır. Dövlətimizin başçısının səyləri nəticəsində Azərbaycan dünyanın cəlbedici turizm ölkələrindən birinə çevrilib. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" prioritetində qarşıya qoyulmuş tapşırıqların icrası məqsədilə son illərdə iqtisadiyyatın dekarbonizasiyasına yönəlmiş siyasi, iqtisadi və qanunvericilik islahatları aparılır. Bu məqsədlə hazırlanmış qanun layihəsi ilə bağlı biznes subyektləri ilə fikir mübadiləsinin aparılması üçün ictimai müzakirələrin keçirilməsi nəzərdə tutulur. Yaşıl enerji sahəsində dövlət tərəfindən son zamanlar həyata keçirilmiş layihələr hesabına enerji səmərəliliyi və alternativ enerji mənbələrindən istifadə göstəriciləri artıb. Hazırda icrası davam edən layihələr çərçivəsində alternativ mənbələrdən istifadə daha da artacaqdır". "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" prioritetində qarşıya qoyulmuş tapşırıqların icrası məqsədilə son illərdə iqtisadiyyatın dekarbonizasiyasına yönəlmiş siyasi, iqtisadi və qanunvericilik islahatları aparılır. Bu məqsədlə hazırlanmış qanun layihəsi ilə bağlı biznes subyektləri ilə fikir mübadiləsinin aparılması üçün ictimai müzakirələrin keçirilməsi nəzərdə tutulur. Yaşıl enerji sahəsində dövlət tərəfindən son zamanlar həyata keçirilmiş layihələr hesabına enerji səmərəliliyi və

alternativ enerji mənbələrindən istifadə göstəriciləri artıb. Hazırda icrası davam edən layihələr çərçivəsində alternativ mənbələrdən istifadə daha da artacaqdır". Təsadüfi deyil ki, ölkəmizin 2030-cu ilə qədər sosial-iqtisadi inkişafına dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində dayanmadan işlər aparılır. Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də dövlətin bu sahəyə olan diqqətinin göstəricisidir. Ətraf mühitin mühafizəsinə önəm verən Azərbaycan "yaşıl enerji" istehsalı istiqamətində böyük əzm nümayiş etdirir. İşğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzurun yenidənqurma və bərpa işlərində bu amil önə çəkilib. Həmin regionlar, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan olunub. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2018-ci il tarixli “Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam”ına əsasən Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əsasında yaradılıb.Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi haqqında Əsasnaməyə uyğun olaraq Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi turizm sahəsində, habelə tabeliyindəki dövlət qoruqlarının ərazilərində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması sahəsində dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.Agentlik turizm sahəsində vahid dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi, turizm sahəsində normayaratma fəaliyyətinin icrası, dövlət tənzimləməsini, dövlət nəzarətini və əlaqələndirməni, turizmin inkişafı məqsədi ilə digər dövlət orqanları, müəssisələri və təşkilatları, habelə fiziki və hüquqi şəxslər, o cümlədən beynəlxalq və qeyri-hökumət təşkilatları arasında əlaqəli fəaliyyəti təmin etmək, qoruqların ərazilərindən məqsədyönlü istifadəni təşkil etmək və onların qorunub saxlanılmasını təmin etmək, milli kulinariya nümunələrinin qorunmasını və təbliğini təmin etmək istiqamətində fəaliyyət göstərir. Ölkəmizdə turizm sahəsinin inkişafı üçün qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə “Turizm haqqında” yeni qanun layihəsi, həmçinin 2016-2025-ci illər üçün Azərbaycanda turizmin inkişaf strategiyası hazırlanıb. Azərbaycan Turizm Assosiasiyası, Konqreslər Bürosu, Sağlamlıq və Termal Turizm Assosiasiyası, Yaşıl Kənd Turizm Assosiasiyası və digər turizm qurumları ölkəmizdə turizmin inkişafında mühüm rol oynayır. Paytaxt Bakı da daxil olmaqla, ölkəmizin əksər regionlarında turizmin müxtəlif növlərini, o cümlədən biznes, istirahət, sağlamlıq, idman turizmini inkişaf etdirmək üçün hər cür imkan var. Respublikamızda turizmin perspektiv inkişaf strategiyasında da ölkənin bütün regionlarının bu sahədəki potensialından səmərəli şəkildə istifadə etmək nəzərdə tutulub.

# YAŞIL İQTİSADİYYAT VƏ DAYANIQLI İNKİŞAFDA UÇOTUN ROLU

**Ülvi Quliyev**
**dosent**
**Əli Əhmədli**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**guliyev.ulvi@gmail.com**
**ehmedli.eli714@gmail.com**

**Açar sözlər:** Yaşıl iqtisadiyyat, dayanıqlı inkişaf, mühasibat uçotu

Yaşıl iqtisadiyyat termini ilk dəfə 1989-cu ildə Böyük Britaniya hökuməti üçün bir qrup aparıcı ekoloji iqtisadçı tərəfindən Yaşıl İqtisadiyyatın Planı (Pearce, Markandya və Barbier, 1989) adlı qabaqcıl hesabatda istifadə edilmişdir.

Yaşıl iqtisadiyyat resursdan səmərəli istifadə edən və sosial cəhətdən inklüziv olan bir iqtisadi sistemdir. Yaşıl iqtisadiyyatda məşğulluq və gəlir artımı, karbon emissiyalarının və çirklənmənin azaldılmasına, enerji və resurs səmərəliliyinin artırılmasına, biomüxtəlifliyin və ekosistem xidmətlərinin itirilməsinin qarşısının alınmasına imkan verən iqtisadi fəaliyyətlərə, infrastruktura və aktivlərə dövlət və özəl sərmayələr vasitəsilə idarə olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycanda 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Dövlət başçısı bu Sərəncamı iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə imzalayıb. Sərəncamda qeyd olunub ki, Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Dayanıqlı İnkişaf Məqsədləri (DİM) ölkənin 2030-cu ilədək milli inkişaf prioritetlərində nəzərə alınmışdır. Belə ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. İşğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev demişdir: "...Bizim siyasətimiz uzunmüddətli siyasətdir. Biz ölkəmizin gələcəyi, uzunmüddətli, dayanıqlı inkişaf haqqında düşünürük."

Dayanıqlı inkişaf prinsiplərinin reallaşdırılması bəşəriyyətin tələbatı ilə resurslardan istifadənin tarazlığını, təbii ehtiyatların tükənməsinin qarşısını almağı, digər tərəfdən də hakimiyyət orqanları, biznes strukturları və ictimaiyyətin dayanıqlı inkişaf problemləri istiqamətində səmərəli və qarşılıqlı əlaqələrinin təmin olunmasını tələb edir. Dayanıqlı inkişaf hər bir ölkənin, regionun və iqtisadi subyektin məsul olduğu mühüm bəşəri problemdir.

Bu göstərilənlər aspektində yeni şəraitdə şəffaflığın təmin olunması mühüm əhəmiyyətə malikdir. Məhz şəffaflıq, hesabatlılığın və obyektiv, keyfiyyətli informasiya təminatının əsası qismində resurslardan səmərəli və məqsədyönlü istifadənin təmin olunmasında dayanıqlı inkişafmühüm amil kimi dəyərləndirilir. **Bu istiqamətdə mühasibat**

**uçotunun rolu keyfiyyətli informasiya təminatının əsası qismində resurslardan səmərəli istifadənin təmin olunmasını vaxtında və düzgün uçotda əks etdirilməsindən ibarətdir.**

Heç də təsadüfi deyildir ki, dayanıqlı inkişaf məqsədlərində informasiya əlçatanlığı, məlumatların toplanması, monitorinqi və hesabatlılıq ən mühüm elementlər kimi dəyərləndirilir.

Ümumiyyətlə, Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) məlumatına görə, 17 DİM-in 8-i mühasibat uçotu, hesabatlılıqla və o cümlədən, auditlə birbaşa əlaqədardır. Başqa sözlə, mühasiblər və auditorlar DİM-in reallaşmasında mühüm rola malikdirlər. Bununla yanaşı, mühasibat uçotunun və auditin də korporativ dayanıqlı inkişaf nin yeni tələblərinə uyğun olaraq transformasiyası günün tələbləri sırasındadır.

Fikrimizcə mühasiblər və auditorlar aşağıdakı məsələlərin həllində vacib rola malikdirlər:

- maliyyə hesabatları təqdim və təsdiq edilərkən DİM üzrə mövcud durum barədə öz mülahizələrini təqdim etmək;
- şirkətləri DİM-in şərtlərini yerinə yetirməyə həvəsləndirmək və təşviq etmək;
- ətraf mühitin mühafizəsinə və sosial məsuliyyətə dair idarəetmənin məlumat bazasını formalaşdırmaq.

Dünya təcrübəsi göstərir ki, ekoloji və sosialyönümlü tədbirlər şirkətlərə pula qənaət etməyə və mənfəəti artırmaq üçün yeni imkanlar yaratmağa dəstək verir. Hesablanmışdır ki, sosial və ekoloji monitorinqlərdən keçmiş şirkətlər 6 aydan 3 ilə qədər müddət ərzində öz xərclərindən 6-12 dəfə çox gəlir əldə ediblər. Sosial və ekoloji şəffaflıq, eyni zamanda şirkətin imicini yaxşılaşdırır. Hətta şirkətlərin məhsullarının və ya xidmətlərinin keyfiyyəti, qiymətləri kimi rəqabət amilləri digər şirkətlərdəkinə bərabər olduğu hallarda belə, “yaxşı” reputasiya şirkətlərə rəqabət üstünlüyü verir.

Azərbaycan Respublikasının indiki inkişaf mərhələsində ətraf mühitin mühafizəsi və yaşıl iqtisadiyyata keçid kimi vacib problemlərin həlli ölkə Prezidenti İlham Əliyevin daim diqqət mərkəzində olması beynəlxalq aləmə də yaxşı bəllidir. Ölkəmizdə bu sahədə əldə edilən uğurlardan və nəzərdə tutulan prioritetlərdən biri də ekologiya və ətraf mühitə səmərəli nəzarət mexanizminin qurulmasıdır. **Bu istiqamətdə də mühasibat uçotu mühüm rola malikdir.**

Tam yəqinliklə demək olar ki, yaşıl iqtisadiyyat və bütövlükdə yaşıl dünya ilə dayanıqlı inkişaf bir-biri ilə üzvü surətdə bağlıdır və biri digərinin mövcudluğunu zəruri edir və bəlkə də özlüyündə ehtiva edir. Dayanıqlı inkişaf iqtisadi artımı, ətraf mühitin mühafizəsini və sosial tərəqqini birləşdirən konseptual çərçivədir. Dayanıqlı inkişaf konsepsiyası ətraf mühitin, cəmiyyətin və iqtisadiyyatın qarşılıqlı əlaqəsini qəbul edir və inkişafa balanslaşdırılmış və uzunmüddətli yanaşmanın zəruriliyini vurğulayır. İqtisadi mənfəətin dərhal əldə edilməsi üçün qeyri-məhdud resursların istifadəsi haqqında ənənəvi fikir gələcək nəsillər və bütövlükdə planet üçün mənfi nəticələrinə görə artıq məqbul hesab edilmir.

Təbii ki, Prezident İlham Əliyev tərəfindən 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” adlandırılması beynəlxalq birliyin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Azərbaycanda keçirilməsi barədə qərarın qəbul edilməsidir.

“Bizim niyyətimiz iqlim məsələlərinə töhfə verməkdir” fikrini bütün dünyaya çatdıran Prezident İlham Əliyevin bu sözlərindən irəli gələrək mühasibat uçotunun rolu bu istiqamətdə maksimum səmərəli, şəffaf və dəqiq icra mexanizmini yerinə yetirməkdir.

# BANKLARDA DAXİLİ AUDİTİN ƏSAS VƏZİFƏLƏRİ

**Ülvi Quliyev**
**dosent**
**Simran Həbibli**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**guliyev.ulvi@gmail.com**
**simranhbibli30@gmail.com**

**Açar sözlər:** Audit, daxili audit, auditor, auditor hesabatı

Bank sektorunda korporativ idarəetmənin səviyyəsinin artırılmasının əsas vəzifələrindən biri bankların fəaliyyətinin informasiya şəffaflığını və rəhbərliyin proaktiv məlumat almaq imkanını təmin edən şəraitin yaradılmasıdır. Bankın məqsədlərinə çatmasına mənfi təsir göstərə biləcək hadisələrin müəyyən edilməsi, qiymətləndirilməsi və baş verməsinin qarşısının alınması üçün tədbirlər görmək vacib məsələlərdəndir.

"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanunlarının tələblərinə uyğun olaraq hazırlanmış və Azərbaycan Respublikasında bütün kommersiya (səhmdar-kommersiya) bankları üçün daxili nəzarət və daxili auditin təşkili mexanizmləri müəyyən edilmişdir.

Bank işinin və siyasətinin ümumi strateji istiqamətlərinin, o cümlədən daxili nəzarət siteminin yaradılması və həyata keçirilməsi, habelə bank əməliyyatlarının düzgün və səmərəli aparılması üçün bankın Müşahidə şurası və İdarə Heyəti məsuliyyət daşıyır. Bankın Maliyyə-təftiş komissiyası isə bankın qanunlara, normativ aktlara, habelə bankın özünün siyasətinə və qaydalarına əməl edilməsini təhlil etmək məqsədilə, onun əməliyyatlarının müntəzəm auditinin keçirilməsi üçün məsuliyyət daşıyır.

Müasir dövrdə kommersiya banklarının fəaliyyətinin idarə edilməsində kifayət qədər aydın nəzarət növləri sistemindən biri kimi daxili auditin yeri, rolu və əhəmiyyəti ilə bağlı məsələlər aktuallıq kəsb edir.

Daxili audit bank aktivlərinin təhlükəsizliyini təmin edən müvafiq nəzarət mexanizmlərinin adekvatlığını, yaxud mövcudluğunu, bankın səhmdarlara, nəzarətedici orqanlara və ictimaiyyətə təqdim etdiyi dövri hesabatların dəqiqliyini, tamlığını və dürüstlüyünü təsdiq etməlidir.

Mütəxəssislər bilirlər ki, səmərəsiz idarəetmə və sonradan cəmi 2-3 kommersiya bankının müflisləşməsi ilə "domino effekti" deyilən şey necə işləyə bilər və bunun nəyə gətirib çıxara biləcəyi də məlumdur.

Daxili auditin məqsədi məhz riskləri qiymətləndirmək, onları azaltmaq yollarını tapmaq, həmçinin biznes proseslərinin gəlirliliyini artırmaqdır. Bu istiqamətdə bank auditinin əsas məqsədlərindən biri də yoxlanılan bankın maliyyə vəziyyəti, onun gəlirliliyi, likvidliyi, bank əməliyyatlarının risk dərəcəsi haqqında rəy almaqdır. Auditor hesabatı illik hesabat, rəsmi balans və mənfəət və zərər hesabı ilə birlikdə dərc olunur. Qeyd edək ki, bank auditinin məqsədi heç də maliyyə iflasının qarşısını almaq deyil, ilk növbədə maliyyə hesabatlarını qiymətləndirməkdir. Müstəqil bank auditorları öz funksiyalarını yerinə yetirərkən bank sektoruna təsir edən risklərlə bağlı amilləri, habelə bankların fəaliyyətinin bəzi aşağıdakı xüsusiyyətlərini nəzərə almalıdırlar:

- Banklar mühasibat yazılışlarında əks olunmayan və "audit izi"nə səbəb olmayan əhəmiyyətli balansdankənar əməliyyatlar həyata keçirirlər.
- bankların fəaliyyətinin dövlət orqanları tərəfindən tənzimlənməsi və bir çox hallarda mühasibat uçotu və audit təcrübəsinə təsir edən normativ tələblərə əsaslanır.
- bank əməliyyatlarında dövriyyədə olan nağd pula və böyük həcmdə vəsaitlərə maneəsiz çıxışın olması səbəbindən əməliyyatlar zamanı bankların əlaqəli (bir-biri ilə

əlaqəli) tərəflərlə əməliyyatlar şəklində sui-istifadəyə halları ilə rastlaşır. Kommersiya bankları tez-tez bir çox əlaqəli tərəflərlə, xüsusən də beynəlxalq əməliyyatlar apararkən işləyirlər.

Kommersiya banklarında daxili auditin əsas vəzifəsi banklarda nəzarətin keyfiyyətinə və effektivliyinə, risklərin idarə edilməsinə və qorunmasına, aktivlərin mühafizəsinə nəzarəti təmin etməkdir.

Respublika ərazisində fəaliyyət göstərən xarici bankların filiallarında, onların baş bankı tərəfindən müntəzəm surətdə audit keçirilərsə, həmin filiallarda ştat üzrə auditor olmaya bilər, lakin həmin filiallarda bu qaydaların tələblərinə cavab verən daxili nəzarət sisteminin yaradılması zəruridir.

Hər bir bankın müvafiq daxili audit proqramı olmalıdır.

Bankların audit funksiyası aşağıdakı minimum normalara uyğun olmalıdır:

- Auditor müstəqil olmalıdır;
- Auditor səriştəli olmalıdır;
- Audit proqramına malik olmalıdır.

Daxili audit proqramı əsasən aşağıdakı məsələlərin həllinə yönəldilməlidir:

- Bank rəhbərliyi tərəfindən müəyyən olunmuş siyasətə əməl edilməsi;
- Qüvvədə olan qanunvericiliyə əməl edilməsi;
- Bankda uçotunun düzgün və vaxtında aparılması;
- Bank aktivlərinin təhlükəsizliyi, maliyyə hesabatlarında onların düzgün uçotunun həyata keçirilməsi və s.

## “YAŞIL” VƏ “EKOLOJİ” AUDİTİN ƏHƏMİYYƏTİ

**Ülvi Quliyev**
**dosent**
**Yaşar Muradov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**guliyev.ulvi@gmail.com**
**yasharmuradov95@gmail.com**

**Açar sözlər:** “Yaşıl audit”, “ekoloji audit”, ekoloji dayanıqlığ, ekoloji risk, ekoloji auditor

Ətraf mühitə təsirləri qiymətləndirmək üçün “yaşıl audit” termini tez-tez istifadə olunur. Bu termin təşkilat və ya biznes fəaliyyətinin ətraf mühitə təsirlərini müəyyən etmək, azaltmaq və idarə etmək üçün həyata keçirilən audit növünə aiddir. Yaşıl audit müəssisələrin ekoloji fəaliyyətini ölçmək, resurslardan istifadəni optimallaşdırmaq, tullantıların istehsalını azaltmaq, enerji səmərəliliyini artırmaq və ümumilikdə onların ekoloji dayanıqlığını yaxşılaşdırmaq üçün bir vasitə kimi istifadə olunur.

Yaşıl audit müəssisələrə ekoloji qaydalara əməl etməyə kömək edə bilər və həmçinin davamlılıq səylərini dəstəkləmək üçün ictimaiyyəti biznesin reputasiyası haqqında məlumatlandırma potensialına malikdir. Bu növ audit ekoloji riskləri müəyyən etmək, resurslardan səmərəli istifadəni təşviq etmək və ekoloji fəaliyyətin monitorinqi üçün mühüm vasitədir. Buna görə də, ətraf mühitin idarə edilməsi strategiyalarının bir hissəsi kimi yaşıl audit biznes üçün getdikcə daha çox əhəmiyyət kəsb edir.

Yaşıl audit adətən müəssisələrin ətraf mühitə təsirlərini müəyyən etmək üçün bir neçə aşağıdakı mərhələlərdən ibarətdir:

- İlkin qiymətləndirmə. İlk addım adətən biznesin cari ekoloji fəaliyyətinin və siyasətlərinin qiymətləndirilməsini əhatə edir. Bu, biznesin resurs istifadəsi, tullantıların

idarə edilməsi, enerji istehlakı, su istifadəsi və ətraf mühitə digər təsirlərin icmalını təqdim edir.

- Məqsədlərin müəyyən edilməsi. Auditin məqsədini müəyyən etmək üçün məqsədlər və prioritetlər müəyyən edilir. Bu məqsədlərə ümumiyyətlə ətraf mühitə təsirlərin azaldılması, tullantıların miqdarının azaldılması və enerji səmərəliliyinin artırılması kimi ekoloji davamlılıq məqsədləri daxildir.

- Məlumatların toplanması və təhlili. Audit prosesi zamanı biznesin ekoloji fəaliyyətinə təsir edən məlumatlar toplanır və təhlil edilir. Bu məlumatlara tez-tez enerji istehlakı, su istifadəsi, tullantıların istehsalı, emissiyalar və ətraf mühitə digər təsirlər daxildir.

- Ekoloji risklərin və imkanların müəyyən edilməsi. Audit prosesi biznesin ekoloji risklərini və imkanlarını müəyyən etmək üçün istifadə edilə bilər. Buraya ekoloji qaydalara uyğunluq, təchizat zənciri riskləri, iqlim dəyişikliyi və s. kimi amillər daxil ola bilər.

- Hesabat və təkmilləşdirmə təklifləri. Audit nəticələri adətən hesabatda təqdim olunur. Bu hesabat biznesin cari ətraf mühit göstəricilərini ümumiləşdirir və təkmilləşdirilməsi üçün tövsiyələr verir. Bu tövsiyələr ətraf mühitə təsirləri azaltmaq, enerji səmərəliliyini artırmaq və ümumilikdə ekoloji dayanıqlığı yaxşılaşdırmaq üçün praktiki addımları əhatə edə bilər.

- İcra və monitorinq. Auditin nəticələrinə əsasən müəyyən edilmiş təkmilləşdirmə təklifləri həyata keçirilir və prosesin effektivliyinə mütəmadi olaraq nəzarət edilir. Bu, biznesin ekoloji fəaliyyətinin davamlı olaraq yaxşılaşdırılması üçün mühüm addımdır.

Yaşıl audit müəssisələr üçün ekoloji dayanıqlığı artırmaq və ətraf mühitə təsirlərini azaltmaq üçün dəyərli vasitədir. Bu audit müəssisələrə ekoloji riskləri azaltmaq, xərcləri azaltmaq və onların nüfuzunu gücləndirmək üçün mühüm imkanlar yaradır.

Son zamanlar ekologiya sahəsində fəaliyyət göstərən audit şirkətləri və təşkilatları müştərilərə yeni xidmət - ekoloji audit təklif edirlər.

Ekoloji audit beynəlxalq standartlara uyğun sertifikatlaşdırmaya hazırlıqla yanaşı, bu və ya digər avadanlığın tətbiqi üçün texnoloji tövsiyələri və ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması üçün görülən işlərin sonrakı təsirinin gəlirliliyinin iqtisadi təhlilini də əhatə edir.

Ekoloji auditin mənası layihələndirilən və ya mövcud obyektin ekoloji risklərini qiymətləndirmək, ətraf mühitin çirklənməsi təhlükəsini müəyyən etmək və aradan qaldırmaq, habelə obyektin təbiətlə "əlaqəsini" daha da tənzimləmək üçün tədbirlər hazırlamaqdır.

Eyni zamanda, ekoloji auditorların fəaliyyəti nəzarət və xüsusilə fiskal funksiyalara malik deyil və konfidensial xarakter daşıyır, ona görə də nəticə yalnız audit sifarişçisinə verilir.

Çox vaxt ekoloji audit maliyyə auditi ilə paralel aparılır, çünki ekoloji auditorun başqa bir funksiyası müəssisənin ümumi maliyyə hesabatlarının bir hissəsi kimi ətraf mühitin mühafizəsi xərclərini təhlil etməkdir. Bundan əlavə, müəssisə dövlət sanitar-epidemioloji müayinədən keçməzdən əvvəl ekoloji məsələlər üzrə məsləhət xidmətləri tələb oluna bilər. Ekoloji audit bu proseduru əvəz edə bilməsə də, onu əhəmiyyətli dərəcədə asanlaşdırır.

Müəssisə yenicə layihələndirilir və ya tikilirsə, sifarişçini ətraf mühitə dəymiş ziyana görə gələcəkdə tikintinin başa çatmamasından və ya dövlət orqanları tərəfindən müəssisənin bağlanmasından sığortalamaq üçün audit aparılır. Sahibindən əlavə, üçüncü tərəf təşkilatı da müəssisənin auditini sifariş edə bilər. Bu, bu risklərə ümumiyyətlə ehtiyacı olmayan potensial investor və ya alıcı, eləcə də müəssisənin götürdüyü kreditin ödənilməməsi ehtimalını istisna etmək istəyən müəssisənin kreditorları ola bilər.

**Nəticə**

- "Yaşıl audit" maliyyə itkiləri riskini azaltmaq üçün layihənin müəyyən edilmiş ətraf mühitin mühafizəsi standartlarına uyğunluğunun yoxlanılmasıdırsa, "Ekoloji audit" layihələndirilən və ya mövcud obyektin ekoloji risklərini qiymətləndirmək, ətraf mühitin

çirklənməsi təhlükəsini müəyyən etmək və aradan qaldırmaq, habelə obyektin təbiətlə “əlaqəsini” daha da tənzimləmək üçün tədbirlər hazırlamaq kimi başa düşülməlidir.

- İnvestor hər hansı sahənin inkişafına investisiya tətbiq etməzdən əvvəl onun rentabelliyini qiymətləndirmək üçün audit sifariş etməsi məqsədəuyğun olardı.

## DAYANIQLI İNKİŞAF PROSESİNDƏ ƏMƏK BAZARININ STATİSTİK GÖSTƏRİCİLƏRİNDƏ KEYFİYYƏT DƏYİŞİKLİKLƏRİ

**Vaqif Mustafayev**
**baş müəllim**
**Ceyran Səfərova**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**vaqif.mustafayev.1960@mail.ru**
**ceyran.safarova1966@gmail.com**

**Açar sözlər:** Miqrasiya, əmək miqrasiyası, əmək bazarı, dayanıqlı inkişaf

Dünya tarixinə nəzər salsaq görərik ki, miqrasiya ictimai hadisə kimi hər zaman xüsusi aktuallığa malik olmuşdur.

Miqrasiya (miqratio) latın mənşəli söz olub, köçürmə kimi 2 məna kəsb edir:

1-ci halda - əhalinin ölkə daxilindən köçürülməsi və ya əhalinin yerləşdirilməsi. Buna daxili miqrasiya deyilir.

2-ci halda – bir ölkənin ərazisindən digər ölkənin ərazisinə köçürülməsidir. Bu isə əhalinin xarici miqrasiyası adlanır. Buna emiqrasiya və ya immiqrasiya da deyilir.

Azərbaycan Respublikasında da miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi, habelə əcnəbi və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında hüquqi vəziyyəti Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə tənzimlənir. Miqrasiya qanunvericiliyinin Azərbaycan Respublikası Konstitusiyasına və beynəlxalq hüquq normalarına uyğunluğunun təmin edilməsi məqsədi ilə miqrasiya proseslərinin iştirakçılarına bir sıra anlayışlar verilmişdir. Bu anlayışlardan biridə “əmək miqrasiyası” anlayışıdır. XX əsrin ikinci yarısı üçün miqrasiyanın bütün formaları ilə yanaşı, müstəqil və özünəməxsus bir təzahürü - əmək miqrasiyası meydana gəlmişdir.

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində göstərilir ki, fiziki şəxsin haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olması üçün qanuni əsaslarla bir ölkədən başqa ölkəyə miqrasiya etməklə yaşayış yerini dəyişməsidir.

1999-cu ildə ölkədə “Əmək miqrasiyası haqqında” Qanunun, 2013-cü ildə artıq Miqrasiya Məcəlləsinin qəbul edildiyini, ötən dövrdə Miqrasiya İdarəetmə Siyasəti Konsepsiyasının icrası ilə bağlı Dövlət Miqrasiya Proqramının qəbul edilərək icra olunmuşdur.

Ölkədə aparılan islahatlar iqtisadiyyatda əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuş, dinamik iqtisadi inkişaf təmin edilmişdir. Regionların iqtisadi inkişafının təmin edilməsi, əhalinin sosial rifahı və həyat səviyyəsinin daha da yüksəldilməsi, ölkə iqtisadiyyatının, xüsusilə qeyri-neft sektorunun inkişafı istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir. Əhalinin məşğulluğunu təmin etmək məqsədilə yeni iş yerləri, müəssisələr, infrastruktur obyektləri və s. yaradılmışdır.

2022-ci ildə ölkədə işçi qüvvəsinin sayı 2010-cu illə müqayisədə 607,0 min nəfər artaraq 5194,4 min nəfər olmuş, onların da 4901,1 min nəfərini iqtisadiyyatda məşğul olanlar, 293,3 min nəfərini isə işsiz əhali təşkil edir.

Son illər ölkə iqtisadiyyatında aparılan islahatlar nəticəsində əmək bazarında əhəmiyyətli dərəcədə müsbət dəyişikliklərə nail olunmuşdur. Belə ki, 2010-cu ildə dövlət sektorunda çalışanların xüsusi çəkisi iqtisadiyyatda məşğul olanların ümumi sayının 26,4 faizini təşkil edirdisə, 2022-ci ildə bu göstərici 21,9 faizə enmiş, qeyri-dövlət sektorunda işləyənlərin sayı isə bu dövrdə 1,2 dəfə artmışdır.

2022-ci ildə istehsal sahələrində (kənd təsərrüfatı və balıqçılıq, sənaye, tikinti) 2509,9 min nəfər və ya iqtisadiyyatda məşğul olanların ümumi sayının 51,2 faizi qədər işçi çalışmış, xidmət sahəsində isə məşğul olanların sayı 2391,2 min nəfər olmuşdur ki, bu da məşğul əhalinin 48,8 faizini təşkil emişdir.

2022-ci ildə iqtisadiyyatda məşğul olan əhalinin ümumi sayından 1738,7 min nəfəri və yaxud 35,5 faizi muzdla işləyənlərin payına düşmüşdür. Muzdla işləyənlərin əksəriyyəti iri və orta müəssisələrdə əmək fəaliyyəti ilə məşğul olmuşdur.

2010-2022-ci illər ərzində muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 2,5 dəfə artaraq 840,0 manat təşkil etmişdir.

Azərbaycanda əmək bazarının əsas sosial-iqtisadi göstəriciləri aşağıdakı kimi olmuşdur:

| | 1992 | 2013 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|
| İşçi qüvvəsinin sayı-min nəfər | 3728,4 | 4757,8 | 5133,1 | 5037,7 | 5089,9 | 5141,6 | 5194,4 |
| Məşğul əhalinin sayı - min nəfər | 3722 | 4521,2 | 4879,3 | 4785,6 | 4721,2 | 4831,1 | 4901,1 |

Azərbaycanda məşğul əhalinin sayı aşağıdakı kimi olmuşdur:

| İllər | 1990 | 2000 | 2003 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Məşğul əhalinin sayı | 3703,4 | 3855,5 | 3972,6 | 4521,2 | 4602,9 | 4671,6 | 4759,9 | 4822,1 | 4879,3 | 4785,6 | 4721,2 | 4831,1 | 4901,1 |

Azərbaycanda sonuncu dəfə 2019-cu ildə əhalinin siyahıyaalınması həyata keçirilmişdir.

Ümumiyyətlə həm ölkəmizdə həm də dünya üzrə əmək miqrasiyasının əsasında iqtisadi motivlər və səbəblər durur.

Azərbaycanda daha çox tikinti sektorunda, neft-qaz və xidmət sahəsində əcnəbilər əmək fəaliyyəti ilə məşğul olurlar. Amma son zamanlar kənd təsərrüfatı sahəsində də aqronom və digər vəzifələrdə işləyən əcnəbilərə də rast gəlmək mümkündür.

Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin nəticəsi kimi, ölkədə dayanıqlı iqtisadi inkişafın təmin edildiyini, yeni iş yerlərinin açılması prosesinin daimi xarakter almışdır.

Ölkənin inkişaf prosesləri müsbət demoqrafik meyllərin davam etdiyi şəraitdə miqrasiya göstəricilərinin də ildən-ilə yaxşılaşmasına imkan verir.

Azərbaycan Respublikası öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoymuşdur.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 21 iyun 2022-ci il 22 iyun tarixli Sərəncamı ilə prioritet isitqamətləri özündə ehtiva edən **“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə “yaşıl enerji”** zonasının yaradılması üzrə Tədbirlər Planı” təsdiq edilmişdir.

İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası, dayanıqlı inkişafın və əhalinin yüksək səviyyəli həyat səviyyəsinin təmin olunması üçün zəruri infrastrukturun yaradılması çərçivəsində şəhər və kəndlərin, təhsil və səhiyyə obyektlərinin, hava limanlarının, bərpası və tikintisi istiqamətində işlər davam etdirilir.

Nəticə:

Ölkəmizdə əmək miqrasiyası yeni bir formada keyfiyyət dəyişikliyi üzrə həyata keçirilir.

Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin Azərbaycanın əmək bazarında da inkişaf meyillərinin davamlı xarakter almasına imkan verir.

Müasir dövrdə dayanıqlı inkişaf proseslərinin mövcud olduğu ölkəmiz xarici əməkçi miqrantları üçün də cəlbedicidir.

## RƏQƏMSAL İQTİSADİYYATA KEÇİD ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA RƏQABƏTLİ İNSAN KAPİTALI VƏ MÜASİR İNNOVASİYA MƏKANI

**Vildan Rizayeva**
**dosent**
**Təbibi Əhədzadə**
**magistrant**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**Lənkəran Dövlət Universiteti**
**tabibiahadzade@gmail.com**

XXI əsrin əvvəllərində ictimai həyatın bütün sahələrini əhatə edən qloballaşma proseslərinin intensivləşməsi müşahidə olunurdu. Beynəlxalq iqtisadi rəqabətin gücləndiyi şəraitdə dövlətlər əsas strateji inkişaf resursunu - insan kapitalını cəlb etməklə öz mövqelərini və üstünlüklərini gücləndirməyə çalışırlar.

İnsan kapitalı bu gün cəmiyyətin inkişafında mühüm amilə çevrilmiıdir. İnkişaf etmiş ölkələr çoxdan belə qənaətə gəliblər ki, cəmiyyətin inkişafının hərəkətverici qüvvəsi məhz bilik iqtisadiyyatıdır.

Bu şəraitdə dövlət orqanları tərəfindən mövcud insan kapitalına əsaslanaraq ölkədə davamlı iqtisadi inkişafa şərait yaradan və Azərbaycanda yeni, sosial yönümlü, innovativ iqtisadi modelin qurulması üçün hərtərəfli tədbirlər görülməlidir. Biliyə əsaslanan iqtisadiyyat kontekstində insan kapitalının formalaşması, rəqəmsal iqtisadiyyatın inkişafı üçün verilən istiqamət kimi nəzərdən keçirilir. Bilik iqtisadiyyatı ideyası cəmiyyətin və iqtisadiyyatın biliyə vurğulanmasına əsaslanır ki, bu da onun davamlı inkişafını tələb edir, onun yaradılmasını, yayılmasını və istifadəsini nəzərdə tutur. Bilik iqtisadiyyatı inkişafı biliyə və insan kapitalına əsaslanan biliklərin toplanması və onun çevrilməsini nəzərdə tutan iqtisadiyyatdır. Rəqəmsal iqtisadiyyatın insan kapitalının intensiv inkişafına töhfə verən biliklərin toplanması və sistemləşdirilməsi üçün ən böyük platforma kimi nəzərdə tutulur. Bizim fikrimizce çoxlu sayda müxtəlif şəbəkə və rəqəmsal səriştələrə malik olan yığılmış insan kapitalı ölkənin rəqəmsal iqtisadiyyatda rəqabət qabiliyyətini müəyyən edir. Bu araşdırma göstərdi ki, rəqabət qabiliyyətli insan kapitalı dövlətin iqtisadi və sosial inkişafına mühüm təsir göstərir. İnkişaf etməmiş ölkələrin iqtisadi geriliyini aradan qaldırmaq üçün insanların bacarıq səviyyəsini yüksəltmək lazımdır, çünki insan amili düzgün inkişaf etmədikdə, zəif inkişaf etmiş ölkələr arzu olunan tərəqqi səviyyəsinə nail ola bilməyəcəklər. Biz inanırıq ki, hökumətlər başa düşməlidirlər ki, bilik iqtisadiyyatına sərmayə qoymaq bugünkü qloballaşan dünyada aşağı bacarıqlarla sıx bağlı olan pis sağlamlıq, aşağı gəlir, işsizlik və sosial təcrid üçün sərmaye qoymaqdan əhəmiyyətli dərəcədə ucuzdur.Bilik iqtisadiyyatında biliyə və inkişaf etmiş informasiya infrastrukturuna (İnternet, verilənlər bazası, mobil rabitə, telekommunikasiya) əsaslanan innovasiya və sahibkarlıq uğurun açarıdır. Postindustrial ölkələrdə bilik, intellekt, innovativ informasiya texnologiyaları,

“yüksək texnologiyalar” əsas istehsal resurslarıdır, iqtisadi artımın mənbəyi isə rəqabətə davamlı əmtəə kimi ideyaların istehsalıdır. Nəzərə almaq lazımdır ki, bu gün iqtisadi sərvətin yaradılmasında liderlər ÜDM-də yüksək bilik payına malik olan, bilik tutumlu məhsullar istehsal edən, təhsilə, elmə, eləcə də əhəmiyyətli investisiyalar yatıran ölkələrdir.

Müasir dövrdə qurulmuş biznes modellərinə sürətlə inkişaf edən bir mühitdə baş verən dəyişikliklər əhəmiyyətli dərəcədə təsir göstərir. Təşkilatlar ənənəvi metodlara yenidən baxılması ehtiyacını yaradan və biznesin idarə edilməsi sistemindən dərhal cavab tələb edən yeni problemlərlə üzləşirlər. Bu günkü bu problemlərdən biri rəqəmsal transformasiyadır. Texnologiyanın inkişafı, avtomatlaşdırma, elm və texnikanın nailiyyətləri, proseslərin sürətlənməsi və böyük həcmdə məlumatların toplanması müəssisələri bu dəyişikliklərə reaksiya verməyə və biznes proseslərinin təşkilinə yeni yanaşmalar hazırlamağa məcbur edir. Rəqəmsal texnologiyalar əmək məhsuldarlığını, məhsulların keyfiyyətini və idarəetmə qərarlarının qəbulu sürətini artırmağa imkan verir və bununla da şirkətə bazarda lider mövqe qazandırır. Bu baxımdan, mövcud şəraitdə uğur əldə etmək rəqəmsal biznes transformasiyasına sistemli yanaşma inkişaf etdirmədən mümkün deyildir. Araşdırmalara görə, müəssisələrdə bütün fəaliyyət sahələrində rəqəmsal texnologiyaların tətbiqi müşahidə olunur. Rəqəmsal texnologiyaların yaradılması və istifadəsi üçün təşkilatların daxili xərclərinin artmasını müşahidə etmək mümkündü.

Rəqəmsal texnologiyalardan istifadə yeni iş imkanı deyil, uğurlu şirkəti fərqləndirən zəruri şərtlərdən biridir. Bununla belə, qeyd etmək lazımdır ki, dünya reytinqində 2022-ci ilin məlumatlarına əsasən, Azərbaycan rəqəmsal rəqabət qabiliyyətinə görə 43-cü yerdədir. Fəaliyyətlərinə rəqəmsal texnologiyaların tətbiqi prosesinə başlayan əksər təşkilatlar bir sıra problemlərlə üzləşirlər, bunlardan ən çox yayılmışları:
innovasiya proseslərinin tənzimlənməsi üçün nəzərdə tutulmuş normativ-hüquqi bazanın mükəmməl olmaması;

- əlavə infrastruktur dəstəyi tələb edən “başdan-başa” texnologiyaların yaranması;
- məlumatların həcminin sürətli artımı müəssisələri informasiyanın qorunması üçün əlavə tədbirlər hazırlamağa məcbur edir;
- rəqəmsal transformasiyada iştirak edə bilən kadr hazırlığının aşağı səviyyədə olması

Beləliklə, əsas problem təkcə tələb olunan səviyyədə investisiyaların cəlb edilməsi, resurs təminatı və rəqəmsal transformasiya üçün normativ bazanın yaradılması deyil, həm də ixtisaslı kadrların çatışmazlığıdır.

Müəssisənin uğurlu rəqəmsallaşdırılması strategiyasının əsası insan kapitalının keyfiyyətidir. Əksər müəssisələr rəqəmsal transformasiyanı planlaşdırarkən, ilk növbədə maddi-texniki bazanın inkişafına və istehsal biznes proseslərinin dəstəklənməsinə diqqət yetirərək, intellektual kapitala əhəmiyyətli resursların yatırılmasının vacibliyini düzgün qiymətləndirmirlər. Bununla belə, yeni texnologiyaların uyğunlaşdırılması, mövcud proseslərin optimallaşdırılması və yeni biliklərin şöbələr arasında yayılması üçün aydın bir sistem yaratmaq üçün getdikcə daha çox rəqəmsal mütəxəssisləri cəlb etmək lazım olur. Rəqəmsal transformasiya layihələri zəruri rəqəmsal səriştələrə malik yüksək ixtisaslı işçilərin cəlb edilməsi ilə həyata keçirilməlidir.

Təkcə rəqəmsal texnologiyaların tətbiqinə qadir olan kadrların seçilməsi kifayət deyil, həmçinin işçilərin əsas fəaliyyətlərini dayandırmadan lazımi bacarıqlarını inkişaf etdirmələri üçün şərait yaratmaq vacibdir. Eyni zamanda, kadrların innovativ transformasiyalarda fəal iştirakında marağlarını təmin etmək vacibdir. Mövcud insan kapitalının idarə edilməsi sistemini daha çevik, yeni şəraitə uyğunlaşdırılmış sistemə dəyişdirməklə bu vəzifəyə nail olmaq olar.



Konfrans materialları Lənkəran Dövlət Universtetinin
mətbəəsində çap olunmuşdur

Yığıma verilmişdir: 16.04.2024
Çapa imzalanmışdır: 03.05.2024
Kağızın formatı: $64 \times 84^{1/8}$
Çap vərəqi: 10 c.v., tiraj: 120

Ünvan: Az 4200, Lənkəran şəhəri, General Həzi Aslanov xiyabanı 50
Tel: (+994) 25-25-5-25-21
e-mail: iqt.konfrans2024@gmail.com
www.lsu.edu.az